# التحقيق والإيضاح لكثير من مسائل الحج والعمرة والزيارة على ضوء الكتاب والسنة (للحرمين)

# Kitab və Sünnə işığında həcc, ümrə və ziyarətlə bağlı bir çox məsələlərin araşdırılması və izahı.

## Kitab və Sünnə işığında həcc, ümrə və ziyarətlə bağlı bir çox məsələlərin araşdırılması və izahı.

Abdüləziz bin Abdullah bin Baz

## Kitab və Sünnə işığında həcc, ümrə və ziyarətlə bağlı bir çox məsələlərin araşdırılması və izahı.

(Müəllif): Dəyərli böyük alim
Abdüləziz bin Abdullah bin Baz

## Müəllifin ön sözü

Mərhəmətli və Rəhmli Alla----hın adı ilə

Aləmlərin Rəbbi olan Allaha həmd olsun. Gözəl sonluq müttəqilər üçündür. Allahın salavat və salamı Onun qulu və rəsulu olan Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinin üzərinə olsun.

Daha sonra:

Bu, həcc, onun fəziləti və ədəbləri, onu yerinə yetirmək üçün səfərə çıxmaq istəyən şəxsin əməl etməli olduğu qaydalar, həmçinin həcc, ömrə və ziyarətə dair bir çox mühüm məsələnin qısa və aydın şəkildə izahı haqqında müxtəsər bir risalədir. Mən bu risaləni tərtib edərkən Allahın Kitabının və rəsulu-Llahın, sallallahu aleyhi va səlləm, Sünnəsinin dəlalət etdiyi məsələləri əsas götürmüş, bunu müsəlmanlara bir nəsihət olaraq və Uca Allahın bu kəlamına əməl etmək üçün topladım:

﴿وَذَكِّرْ فَإِنَّ الذِّكْرَىٰ تَنْفَعُ الْمُؤْمِنِينَ 55﴾

"Sən xatırlat! Çünki xatırlatmaq möminlərə fayda verir". [Zariyat 51 surəsi, ayə 55]. Uca Allah buyurur:

﴿وَإِذْ أَخَذَ اللَّهُ مِيثَاقَ الَّذِينَ أُوتُوا الْكِتَابَ لَتُبَيِّنُنَّهُ لِلنَّاسِ وَلَا تَكْتُمُونَهُ...﴾

"Bir zaman Allah Kitab verilənlərdən: "Siz o (kitabı) mütləq insanlara açıqlayacaqsınız və onu gizlətməyəcəksiniz!"– deyə əhd almışdı". (Əli İmran 3 surəsi, ayə 187). Uca Allah buyurur:

﴿...وَتَعَاوَنُوا عَلَى الْبِرِّ وَالتَّقْوَى...﴾

"...Yaxşılıq etməkdə və (Allahdan qorxub) pis əməllərdən çəkinməkdə bir-birinizə yardım edin...". (Maidə 5 surəsi, ayə 2).

Səhih hədisdə peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«الدِّينُ النَّصِيحَةُ، ثَلَاثًا، قِيلَ: لِمَنْ يَا رَسُولَ اللَّهِ؟ قَالَ: لِلَّهِ وَلِكِتَابِهِ وَلِرَسُولِهِ وَلِأَئِمَّةِ الْمُسْلِمِينَ وَعَامَّتِهِمْ».

"Din nəsihətdir" (deyə üç dəfə buyurdu). Səhabələr dedilər: "Ey Allahın rəsulu, kim üçün (kimə qarşı)?". O buyurdu: "Allah üçün, Kitabı üçün, rəsulu üçün, müsəlmanların rəhbərləri üçün və bütün müsəlmanlar üçün"[1].

Təbəraninin Huzeyfədən rəvayət etdiyi hədisdə peyğəmbər, sallallahu əleyhi va səlləm, belə buyurmuşdur:

«مَنْ لَمْ يَهْتَمَّ بِأَمْرِ الْمُسْلِمِينَ فَلَيْسَ مِنْهُمْ، وَمَنْ لَمْ يُصْبِحْ وَيُمْسِ نَاصِحًا لِلَّهِ وَلِرَسُولِهِ وَلِكِتَابِهِ وَلِإِمَامِهِ وَلِعَامَّةِ الْمُسْلِمِينَ فَلَيْسَ مِنْهُمْ».

[1] Hədisi Müslim (55) rəvayət etmişdir.

«Kim müsəlmanların qayğısına qalmazsa, onlardan deyildir. Kim də səhər və axşam Allah üçün, Onun rəsulu üçün, Onun Kitabı üçün, rəhbəri üçün və bütün müsəlmanlar üçün səmimi nəsihət edən (münasibət bəsləyən) olmazsa, o da onlardan deyildir»[1].

Allahdan diləyirik ki, bu risalə ilə mənə və müsəlmanlara fayda versin, bu risalədəki səyi Öz Kərim Üzü üçün ixlaslı və Öz dərgahında Nəim Cənnətlərinə qovuşmağa bir səbəb etsin. Həqiqətən, O, Eşidən və duaları qəbul edəndir. O bizə yetər, O, nə gözəl Vəkildir.

## Fəsil.

## Həcc və ümrənin vacib olmasına dair dəlillər və onları yerinə yetirməyə tələsməyin zərurəti haqqında.

Bunu bildikdən sonra, bilin ki, - Allah məni və sizi haqqı bilməyə və ona tabe olmağa müvəffəq etsin - Uca Allah Öz qullarına "Haram evini" həcc etməyi vacib buyurmuş və onu İslamın rüknlarından biri etmişdir. Uca Allah buyurur:

﴿...وَلِلَّهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا وَمَنْ كَفَرَ فَإِنَّ اللَّهَ غَنِيٌّ عَنِ الْعَالَمِينَ﴾

"Yoluna gücü çatan hər kəsin (müqəddəs) Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır. Kim (bunu) inkar (küfr) edərsə, (bilsin ki,) Allahın

[1] Hədisi Tabarani "əl-Əvsat" (7469) əsərində rəvayət etmişdir.

aləmlərə ehtiyacı yoxdur". (Əli İmran 3 surəsi, ayə 97).

Buxari və Müslimin səhih əsərlərində İbn Ömər, Allah onların ikisindən razı olsun, peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, belə dediyini rəvayət etmişdir:

«بُنِيَ الإِسْلَامُ عَلَى خَمْسٍ: شَهَادَةِ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ، وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، وَإِقَامِ الصَّلَاةِ، وَإِيتَاءِ الزَّكَاةِ، وَصَوْمِ رَمَضَانَ، وَحَجِّ بَيْتِ اللَّهِ الحَرَامِ».

«İslam beş (əsas) üzərində qurulmuşdur: Allahdan başqa (ibadətə haqqı olan) məbud olmadığına və Muhəmmədin (sallallahu aleyhi və səlləm) Allahın elçisi olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, Ramazan orucunu tutmaq və Allahın Haram Evini həcc etmək»[1].

Səid öz "Sünən" əsərində Ömər bin Xattabdan, Allah ondan razı olsun, belə rəvayət etmişdir: "Mən bu diyarlara adamlar göndərməyi qəsd etdim ki (niyyət etdim; istədim), onlar imkanı olan[2], lakin həcc etməyən hər kəsi araşdırıb onlara cizyə tətbiq etsinlər. Çünki onlar müsəlman deyillər, onlar müsəlman deyillər"[3].

Əlidən, Allah ondan razı olsun, belə dediyi rəvayət edilir: "Həcc etməyə gücü çatıb onu tərk

---

[1] Hədisi Buxari (8) və Müslim (16) rəvayət etmişdir.

[2] Yəni: mal-dövlət bolluğu.

[3] "Cami'ul-Əhadis" (31221) əsərində Səid ibn Mənsurun "Sünən" əsərinə nisbət edilmişdir. Lakin mən onu əldə olan nüsxədə tapmadım.

edənin yəhudi və ya nəsrani kimi ölməsinin fərqi yoxdur"[1].

Həcc etməyə imkanı olub həcc etməyən kəsə həccə tələsmək vacibdir. Çünki İbn Abbasdan, radiyallahu anhu, rəvayət olunduğuna görə, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə demişdir:

«تَعَجَّلُوا إِلَى الحَجِّ - يَعْنِي الفَرِيضَةَ - فَإِنَّ أَحَدَكُمْ لَا يَدْرِي مَا يَعْرِضُ لَهُ».

"Həcc etməyə (yəni: fərz olanına) tələsin. Çünki sizdən biri başna nə gələcəyini bilmir"[2].

Çünki yoluna gücü çatan kimsəyə həcci dərhal yerinə yetirmək vacibdir. Buna dəlil isə Uca Allahın bu sözünün zahiridir:

﴿...وَلِلَّهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا وَمَنْ كَفَرَ فَإِنَّ اللَّهَ غَنِيٌّ عَنِ الْعَالَمِينَ﴾

"Yoluna gücü çatan hər kəsin (müqəddəs) Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır. Kim (bunu) inkar edərsə, (bilsin ki,) Allahın aləmlərə ehtiyacı yoxdur". (Əli İmran 3 surəsi, ayə 97). Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, xütbəsində buyurur:

«أَيُّهَا النَّاسُ، إِنَّ اللَّهَ فَرَضَ عَلَيْكُمُ الحَجَّ فَحُجُّوا».

"Ey insanlar, Allah sizə həcci fərz buyurmuşdur, odur ki, həcc edin!"[3].

---

[1] Hədisi Tirmizi: (812) rəvayət etmişdir.
[2] Hədisi Əbu Davud: (1732) rəvayət etmişdir.
[3] Hədisi Müslim: (1337) rəvayət etmişdir.

Ümrənin vacibliyinə dəlalət edən hədislər varid olmuşdur, onlardan bəziləri bunlardır:

Peyğəmbər, sallallahu aleyhi və səlləm, Cəbrayilin İslam haqqında sualına cavabında belə buyurmuşdur:

«الإِسْلَامُ أَنْ تَشْهَدَ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، وَتُقِيمَ الصَّلَاةَ، وَتُؤْتِيَ الزَّكَاةَ، وَتَحُجَّ البَيْتَ وَتَعْتَمِرَ، وَتَغْتَسِلَ مِنَ الجَنَابَةِ، وَتُتِمَّ الوُضُوءَ، وَتَصُومَ رَمَضَانَ»

«İslam Allahdan başqa haqq ilahın olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, Allahın evini həcc və ümrə etmək, cənabətdən qüsl almaq, dəstəmazı kamil almaq və Ramazan orucunu tutmaqdır»[1] Bu hədisi İbn Xuzeymə və Darəqutni, Ömər ibn əl-Xəttabdan, Allah ondan razı olsun, rəvayət etmişdir. Darəqutni demişdir: "Bu isnad sabit və səhihdir.

Rəvayət edilir ki, Aişə, Allah ondan razı olsun, demişdir:

«يَا رَسُولَ اللَّهِ، هَلْ عَلَى النِّسَاءِ مِنْ جِهَادٍ؟ قَالَ: عَلَيْهِنَّ جِهَادٌ لَا قِتَالَ فِيهِ: الحَجُّ وَالعُمْرَةُ»

"Ey Allahın elçisi, qadınlar üçün cihad varmı?". O buyurdu: "Onlara döyüş olmayan cihad vacibdir: həcc və ümrə"[2]. Bu hədisi Əhməd və İbn Macə rəvayət etmişdir. İsnadı səhihdir.

---

1 Hədisi İbn Xuzeymə: (1) rəvayət etmişdir.
2 Hədisi Buxari: (1520) rəvayət etmişdir.

Həcc və ümrə ömürdə yalnız bir dəfə vacibdir. Peyğəmbər, sallallahu aleyhi və səlləm, səhih hədisdə buyurmuşdur:

«الحَجُّ مَرَّةٌ، فَمَنْ زَادَ فَهُوَ تَطَوُّعٌ».

"Həcc bir dəfədir, bundan artığı isə nafilədir"[1].

Nafilə olaraq həcc və ümrəni çoxlu etmək sünnədir. Çünki "Səhiheyndə" (yəni: Buxari və Muslimdə) Əbu Hureyradan, Allah ondan razı olsun, rəvayət olunur ki, Allahın elçisi, sallallahu aleyhi və səlləm, demişdir:

«العُمْرَةُ إِلَى العُمْرَةِ كَفَّارَةٌ لِمَا بَيْنَهُمَا، وَالحَجُّ المَبْرُورُ لَيْسَ لَهُ جَزَاءٌ إِلَّا الجَنَّةُ».

"Ümrə ziyarəti, növbəti ümrəyədək arada olan (kiçik) günahlara kəffarədir. Qəbul olunmuş həccin mükafatı isə ancaq Cənnətdir"[2].

## Fəsil.

## Günahlardan tövbə etməyin və zülmlərdən qurtulmağın vacibliyi.

Müsəlman həcc və ya ümrə səfərinə çıxmağa qərar verdikdə, ailəsinə və dostlarına Allahdan, Azzə va Cəllə, qorxmağı tövsiyə etməsi müstəhəbdir. Bu isə (təqva), Onun əmrlərini yerinə yetirmək və qadağan etdiklərindən çəkinməkdir.

Alacaqlarını və borclarını yazmalı, buna şahid tutmalı və bütün günahlardan ixlasla tövbə etməyə tələsməlidir. Çünki Uca Allah belə buyurmuşdur:

---

[1] Hədisi Nəsai: (2620) rəvayət etmişdir.

[2] Hədisi Buxari: (1773) və Müslim: (1349) rəvayət etmişdir.

﴿...وَتُوبُوا إِلَى اللَّهِ جَمِيعًا أَيُّهَ الْمُؤْمِنُونَ لَعَلَّكُمْ تُفْلِحُونَ﴾

"Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız". (Nur 24 surəsi, ayə 31).

Tövbənin həqiqəti: günahları tərk etmək, etdiyi günahlara görə peşman olmaq və bir daha onlara qayıtmamağa əzm etməkdir. Əgər onun insanlara qarşı can, mal və ya ismət kimi haqsızlıqları varsa, səfərindən əvvəl həmin haqları sahiblərinə qaytarmalı yaxud onlardan halallıq almalıdır. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, səhih hədisdə belə buyurmuşdur:

«مَنْ كَانَتْ عِنْدَهُ مَظْلَمَةٌ لِأَخِيهِ مِنْ مَالٍ أَوْ عِرْضٍ فَلْيَتَحَلَّلِ الْيَوْمَ قَبْلَ أَنْ لَا يَكُونَ دِينَارٌ وَلَا دِرْهَمٌ، إِنْ كَانَ لَهُ عَمَلٌ صَالِحٌ أُخِذَ مِنْهُ بِقَدْرِ مَظْلَمَتِهِ، وَإِنْ لَمْ تَكُنْ لَهُ حَسَنَاتٌ أُخِذَ مِنْ سَيِّئَاتِ صَاحِبِهِ فَحُمِلَ عَلَيْهِ».

"Kimin üzərində qardaşının malı və ya namusu ilə əlaqəli bir zülmü varsa, dinar və dirhəmin olmayacağı bir gün gəlməzdən əvvəl bu gün onunla halallaşsın. Əgər onun saleh əməlləri olarsa, etdiyi zülm qədər savablarından götürülər. Yox əgər onun saleh əməlləri olmazsa, o zaman zülm etdiyi adamın günahlarından götürülüb onun üzərinə qoyular"[1].

Həcc və ümrəsi üçün halal maldan olan pak bir xərc seçməlidir. Çünki peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«إِنَّ اللَّهَ تَعَالَى طَيِّبٌ لَا يَقْبَلُ إِلَّا طَيِّبًا».

1 Hədisi Buxari: (2449) rəvayət etmişdir.

"Həqiqətən, Uca Allah Pakdır və yalnız Pak olanları qəbul edər"[1].

Təbərani, Əbu Hureyrədən, Allah ondan razı olsun, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə dediyini rəvayət etmişdir:

«إِذَا خَرَجَ الرَّجُلُ حَاجًّا بِنَفَقَةٍ طَيِّبَةٍ وَوَضَعَ رِجْلَهُ فِي الغَرْزِ فَنَادَى: لَبَّيْكَ اللَّهُمَّ لَبَّيْكَ، نَادَاهُ مُنَادٍ مِنَ السَّمَاءِ: لَبَّيْكَ وَسَعْدَيْكَ، زَادُكَ حَلَالٌ، وَرَاحِلَتُكَ حَلَالٌ، وَحَجُّكَ مَبْرُورٌ غَيْرُ مَأْزُورٍ، وَإِذَا خَرَجَ الرَّجُلُ بِالنَّفَقَةِ الخَبِيثَةِ فَوَضَعَ رِجْلَهُ فِي الغَرْزِ فَنَادَى: لَبَّيْكَ اللَّهُمَّ لَبَّيْكَ، نَادَاهُ مُنَادٍ مِنَ السَّمَاءِ: لَا لَبَّيْكَ وَلَا سَعْدَيْكَ، زَادُكَ حَرَامٌ، وَنَفَقَتُكَ حَرَامٌ، وَحَجُّكَ غَيْرُ مَبْرُورٍ».

«Kişi halal qazancla həccə getmək üçün yola çıxıb, ayağını üzəngiyə qoyaraq: "Ləbbeykə-l-lahummə ləbbeyk" – deyə nida etdikdə, səmadan bir nida edən ona belə səslənər: "Çağırışın qəbuldur, sənin üçün hazırıq! Azuqən halaldır, miniyin halaldır və həccin məbrurdur (qəbul olunmuşdur) və günahsızdır". Yox, əgər kişi haram qazancla yola çıxıb ayağını üzəngiyə qoyaraq: "Ləbbeykə-l-lahummə ləbbeyk" – deyə nida edərsə, səmadan bir nida edən ona belə səslənər: "Nə çağırışın qəbuldur, nə də sənin üçün hazırıq! Azuqən haramdır, qazancın haramdır və həccin isə məbrur (qəbul olunmuş) deyildir»[2].

Həcc edən kimsə gərək, insanların əlində olana möhtac olmasın və onlardan bir şey istəməkdən

---

[1] Hədisi Müslim: (1015) rəvayət etmişdir.
[2] Hədisi Tabarani "əl-Kəbir" (2989) əsərində rəvayət etmişdir.

çəkinib iffətli davransın. Çünki peyğəmbər, sallallahu əleyhi va səlləm, buyurmuşdur:

«وَمَنْ يَسْتَعْفِفْ يُعِفَّهُ اللَّهُ، وَمَنْ يَسْتَغْنِ يُغْنِهِ اللَّهُ».

«Kim iffətli olmağa çalışarsa, Allah onu iffətli edər. Kim toxgözlük edərsə, Allah onu zəngin edər»[1].

Peyğəmbər, sallallahu aleyhi və səlləm, digər bir hədisdə buyurur:

«لَا يَزَالُ الرَّجُلُ يَسْأَلُ النَّاسَ حَتَّى يَأْتِيَ يَوْمَ الْقِيَامَةِ وَلَيْسَ فِي وَجْهِهِ مُزْعَةُ لَحْمٍ».

«İnsanlardan dilənməkdən əl çəkməyən kimsə, Qiyamət günü üzündə bir tikə ət belə olmadan gələr»[2].

Həcc edən şəxs həcc və ümrəsini Allahın rizasını və Axirət yurdunu qazanmaq, o mübarək yerlərdə Onu razı salan sözlər və əməllərlə Allaha yaxınlaşmaq məqsədi ilə yerinə yetirməlidir. O, həcci ilə dünyəvi mənfəət əldə etməkdən, riyakarlıqdan, şan-şöhrətdən və özünü göstərməkdən qətiyyən çəkinməlidir. Çünki bu, ən çirkin məqsədlərdəndir və əməlin batil olmasına və qəbul edilməməsinə səbəbdir. Necə ki, Uca Allah belə buyurur:

﴿مَنْ كَانَ يُرِيدُ الْحَيَاةَ الدُّنْيَا وَزِينَتَهَا نُوَفِّ إِلَيْهِمْ أَعْمَالَهُمْ فِيهَا وَهُمْ فِيهَا لَا يُبْخَسُونَ
15 أُولَئِكَ الَّذِينَ لَيْسَ لَهُمْ فِي الاخِرَةِ إِلَّا النَّارُ وَحَبِطَ مَا صَنَعُوا فِيهَا وَبَاطِلٌ مَّا
كَانُوا يَعْمَلُونَ 16﴾

---

[1] Hədisi Buxari: (1427) və Müslim: (1035) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (1474) və Müslim: (4040) rəvayət etmişdir.

"Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini dünyada tam verərik və onlar orada zərər çəkməzlər.

Beləl追 rinin axirətdə oddan başqa heç bir payı yoxdur. Onların dünyada gördükləri işlər boşa çıxar və etdikləri əməlləri də puç olar". [Hud 11 surəsi, ayələr 15-16].

Uca Allah buyurur:

﴿مَّن كَانَ يُرِيدُ الْعَاجِلَةَ عَجَّلْنَا لَهُ فِيهَا مَا نَشَاءُ لِمَن نُّرِيدُ ثُمَّ جَعَلْنَا لَهُ جَهَنَّمَ يَصْلَاهَا مَذْمُومًا مَّدْحُورًا 18 وَمَنْ أَرَادَ الْآخِرَةَ وَسَعَىٰ لَهَا سَعْيَهَا وَهُوَ مُؤْمِنٌ فَأُولَٰئِكَ كَانَ سَعْيُهُم مَّشْكُورًا 19﴾

"Kim keçici dünyanı istəsə, orada ona – dilədiyimiz kimsəyə istədiyimiz şeyləri dərhal verərik. Sonra isə onu qınanmış və (Allahın rəhmətindən) qovulmuş halda girəcəyi Cəhənnəmə atarıq.

Axirəti istəyən, ona layiqincə çalışan və mömin olan kimsələrin səyi təqdir ediləcəkdir". (İsra 17 surəsi, ayələr 18-19).

Peyğəmbər, sallallahu aleyhi va səlləm, səhih bir hədisdə belə buyurmuşdur:

«قَالَ اللَّهُ تَعَالَى: أَنَا أَغْنَى الشُّرَكَاءِ عَنِ الشِّرْكِ، مَنْ عَمِلَ عَمَلًا أَشْرَكَ مَعِي فِيهِ غَيْرِي تَرَكْتُهُ وَشِرْكَهُ».

"Uca Allah buyurmuşdur: Mən, şərik olmağa əsla möhtac deyiləm. Kim bir əməl edərsə və etdiyi əməldə başqasını Mənə şərik qoşarsa, Mən onu və şərik qoşduğunu tərk edərəm"[1].

---

[1] Hədisi Müslim: (2985) rəvayət etmişdir.

Həmçinin onun səfərində itaət, təqva və dində fəqih olan yaxşı insanlarla yoldaşlıq etməsi, səfehlər və fasiqlərlə dostluq etməkdən isə çəkinməsi gərəkdir.

Həcc və ümrə edən şəxs, bu ibadətlərində şəriətin buyurduqlarını öyrənməli, bu barədə dərin biliyə yiyələnməli və ona aydın olmayan məsələləri soruşmalıdır ki, ibadətini bəsirətlə yerinə yetirsin. Minik heyvanına, avtomobilinə, təyyarəyə və ya digər nəqliyyat vasitələrinə mindikdə, Uca Allahın adını çəkməsi, Ona həmd etməsi, sonra üç dəfə təkbir gətirib belə deməsi müstəhəbdir:

﴿...سُبْحَانَ الَّذِي سَخَّرَ لَنَا هَذَا وَمَا كُنَّا لَهُ مُقْرِنِينَ 13 وَإِنَّا إِلَى رَبِّنَا لَمُنْقَلِبُونَ 14﴾

"Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. (Yoxsa) bizim ona gücümüz çatmazdı.

Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq". (Zuxruf 43 surəsi, ayələr 13-14).

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ فِي سَفَرِي هَذَا البِرَّ وَالتَّقْوَى، وَمِنَ العَمَلِ مَا تَرْضَى، اللَّهُمَّ هَوِّنْ عَلَيْنَا سَفَرَنَا هَذَا، وَاطْوِ عَنَّا بُعْدَهُ، اللَّهُمَّ أَنْتَ الصَّاحِبُ فِي السَّفَرِ، وَالخَلِيفَةُ فِي الأَهْلِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ وَعْثَاءِ السَّفَرِ، وَكَآبَةِ المَنْظَرِ، وَسُوءِ المُنْقَلَبِ فِي المَالِ وَالأَهْلِ»؛

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ فِي سَفَرِي هَذَا البِرَّ وَالتَّقْوَى، وَمِنَ العَمَلِ مَا تَرْضَى، اللَّهُمَّ هَوِّنْ عَلَيْنَا سَفَرَنَا هَذَا، وَاطْوِ عَنَّا بُعْدَهُ، اللَّهُمَّ أَنْتَ الصَّاحِبُ فِي السَّفَرِ، وَالخَلِيفَةُ فِي الأَهْلِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ وَعْثَاءِ السَّفَرِ، وَكَآبَةِ المَنْظَرِ، وَسُوءِ المُنْقَلَبِ فِي المَالِ وَالأَهْلِ»

[Allahummə inni əs'ələukə fi səfəri həzə əl-birra vət-təqva va minəl-aməli mə tərda. Allahummə həvvin aleynə səfəranə həzə vətvi annə budəhu. Allahummə əntəs-sahibu fis-səfəri val-xaliyfətu fil-əhli. Allahummə inni əuzu bikə min vəasai-ssəfəri, va kəabətil-mənzari va suil-munqaləbi fil-məli vəl-əhli]:

"Allahım! Bu səfərim-də Səndən yaxşı-lıq, Allah qorxusu və razı qalaca-ğın əməl diləyirəm. Alla-hım! Bu səfərimizi bi-zim üçün rahat et və onun uzaq-lığını bizə ya-xın et. Allahım! Səfərdə dost və ailə-miz üçün hami Sənsən. Allahım! Səfərin məşəqqətindən, məyus edən mənzərədən, malda və ailədə xo-şa-gəl-məz dönüşdən Sənə pənah aparıram"[1].

Çünki Müslimin İbn Ömərdən, Allah onların hər ikisindən də razı olsun, rəvayət etdiyi bu hədis peyğəmbərdən, sallallahu aleyhi va səlləm, səhih olaraq rəvayət olunmuşdur.

Səfəri zamanı çoxlu zikr və istiğfar etməli, Uca Allaha dua edib Ona yalvarmalı, Quran oxuyub mənaları haqqında düşünməli, namazları camaatla qılmağa riayət etməli, dilini isə çoxlu dedi-qodudan, ona aid olmayan işlərə qarışmaqdan, zarafatda ifrata varmaqdan, habelə yalandan, qeybətdən,

[1] Hədisi Müslim: (1342) rəvayət etmişdir.

nəmmamlıqdan, öz yoldaşlarına və digər müsəlman qardaşlarına istehza etməkdən qorumalıdır.

Yoldaşlarına yaxşılıq edər, onlara əziyyət verməkdən çəkinər, gücü çatdığı qədər hikmət və gözəl öyüd-nəsihətlə onlara yaxşılığı əmr edib pislikdən çəkindirər.

## Fəsil.

## Hacının miqata çatdığı zaman yerinə yetirməli olduğu əməllər.

Miqata çatdıqda qüsl alıb ətirlənmək müstəhəbdir. Çünki peyğəmbərin, sallallahu aleyhi və səlləm, ehrama girərkən tikili paltarlarını çıxarıb qüsl aldığı rəvayət olunmuşdur. Həmçinin Səhiheyndə Aişədən, Allah ondan razı olsun, sabit olan hədisdə o, belə demişdir:

«كُنْتُ أُطَيِّبُ رَسُولَ اللَّهِ ﷺ لِإِحْرَامِهِ قَبْلَ أَنْ يُحْرِمَ، وَلِحَلِّهِ قَبْلَ أَنْ يَطُوفَ بِالبَيْتِ»،

«Mən peyğəmbəri, Allahın salavatı və salamı onun üzərinə olsun, ehrama girməzdən əvvəl ehramı üçün və Beyti (Kəbəni) təvaf etməzdən əvvəl ehramdan çıxması üçün ətirləyərdim»[1]. Həmçinin, peyğəmbər, sallallahu aleyhi va səlləm, ümrə üçün ihrama girdikdən sonra heyz olan Aişəyə qüsl almasını və həcc üçün ihrama girməsini əmr etmişdir. Peyğəmbər, sallallahu aleyhi va səlləm, Əsma bint Umeysə Zül-Hüleyfədə uşaq dünyaya gətirdiyi zaman qüsl almasını, bir parça ilə bərk

[1] Hədisi Buxari: (1539) və Müslim: (1189) rəvayət etmişdir.

bağlanmasını və ihrama girməsini əmr etmişdir[1]. Bu da ona dəlalət edir ki, qadın miqata çatdığı zaman heyzli və ya nifaslı olarsa, qüsl alıb insanlarla birlikdə ihrama girir və Kəbəni təvaf etməkdən başqa, hacıların etdiyi bütün əməlləri yerinə yetirir. Necə ki, peyğəmbər, sallallahu aleyhi va səlləm, Aişəyə və Əsmaya da bunu əmr etmişdir.

Ehrama girmək istəyən şəxsə bığını, dırnaqlarını, övrət yerini və qoltuq altlarını təmizləməsi müstəhəbdir ki, ehrama girdikdən sonra bunları etməyə ehtiyac qalmasın. Çünki ehram halında bu əməllər haramdır. Həmçinin ona görə ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, müsəlmanlara hər zaman bu təmizlik işlərini görməyi buyurmuşdur. Necə ki, Səhiheyndə Əbu Hureyrədən, Allah ondan razı olsun, rəvayət olunur ki, o demişdir: Allahın elçisi, sallallahu aleyhi və səlləm, buyurmuşdur:

«الفِطْرَةُ خَمْسٌ: الخِتَانُ، وَالِاسْتِحْدَادُ، وَقَصُّ الشَّارِبِ، وَقَلْمُ الأَظْفَارِ، وَنَتْفُ الإِبْطِ».

"Beş şey fitrətdəndir: sünnət olmaq, övrət yerini qırxmaq, bığları qısaltmaq, dırnaqları tutmaq və qoltuq altındakı tükləri yolmaq"[2].

Səhih Müslimdə, Ənəsin, Allah ondan razı olsun, belə dediyi rəvayət edilir:

---

[1] Hədisi Müslim: (1218) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (5891) və Müslim: (257) rəvayət etmişdir.

«وَقَّتَ لَنَا فِي قَصِّ الشَّارِبِ، وَقَلْمِ الأَظْفَارِ، وَنَتْفِ الإِبْطِ، وَحَلْقِ العَانَةِ: أَنْ لاَ نَتْرُكَ ذَلِكَ أَكْثَرَ مِنْ أَرْبَعِينَ لَيْلَةً».

"Bığları qısaltmaq, dırnaqları kəsmək, qoltuqaltı tükləri yolmaq və qasıq tüklərini qırxmaq xüsusunda bizə, bu işləri qırx gündən çox tərk etməməyimiz üçün vaxt təyin edildi"[1].

Nəsai isə bu ləfz ilə rəvayət etmişdir:

«وَقَّتَ لَنَا رَسُولُ اللَّهِ ﷺ»،

«Allahın rəsulu, sallallahu aleyhi və səlləm, bizə vaxt təyin etdi» (24),[2] Bu hədisi Əhməd, Əbu Davud və Tirmizi rəvayət etmişdir. Hədisin ləfzi isə Nəsaiyə aiddir. Başa gəlincə, ehrama girərkən ondan bir şey götürmək nə kişilər, nə də qadınlar üçün şəriətə görə icazəli deyil.

Saqqala gəlincə, onu bütün vaxtlarda qırxmaq və ya ondan götürmək haramdır. Əksinə, onu saxlamaq və uzatmaq vacibdir. Belə ki, Səhiheyndə İbn Ömərdən, Allah onlardan razı olsun, rəvayət olunur ki, Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, buyurmuşdur:

«خَالِفُوا المُشْرِكِينَ، وَفِّرُوا اللِّحَى، وَأَحْفُوا الشَّوَارِبَ».

"Müşriklərə müxalif olun, saqqallarınızı uzadın, bığlarınızı isə qısaldın"[3]. Müslimin "Səhih" əsərində Əbu Hureyrədən, Allah ondan razı olsun, rəvayət

---

[1] Hədisi Müslim: (258) rəvayət etmişdir.
[2] Hədisi Nəsai: (14) rəvayət etmişdir.
[3] Hədisi Buxari: (2892) və Müslim: (259) rəvayət etmişdir.

etdiyi hədisdə, Allahın rəsulu, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«جُزُّوا الشَّوَارِبَ، وَأَرْخُوا اللِّحَى، خَالِفُوا المَجُوسَ».

"Bığlarınızı qısaldın, saqqallarınızı isə uzadın. Məcusilərə müxalif olun"[1].

Bu dövrdə bir çox insanın — xüsusilə də elmə və tədrisə mənsub olanların — bu sünnəyə müxalif çıxması, saqqala qarşı mübarizə aparması, kafirlərə və qadınlara bənzəməkdən razı qalması ilə müsibət daha da böyümüşdür. Həqiqətən, Biz, Alla-ha məx--susuq və biz Ona qayı-da-ca-ğıq. Biz Allahdan, əksəriyyət ondan üz döndərsə belə, bizi və bütün müsəlmanları sünnəyə müvafiq olmağa, ondan möhkəm yapışmağa və ona dəvət etməyə müvəffəq etməsini diləyirik. Allah bizə yetər, O nə gözəl Vəkildir! Uca və Əzəmətli Allahdan başqa heç bir güc və qüvvət yoxdur.

Sonra kişi "izar və rida" geyinir. Onların ağ və təmiz olması müstəhəbdir. Həmçinin ehrama nəleyn (səndəl) geyinərək girmək də müstəhəbdir. Peyğəmbərin, salləllahu aleyhi va səlləm, bu sözünə görə:

«وَلْيُحْرِمْ أَحَدُكُمْ فِي إِزَارٍ وَرِدَاءٍ وَنَعْلَيْنِ، فَإِنْ لَمْ يَجِدْ نَعْلَيْنِ فَلْيَلْبَسْ خُفَّيْنِ وَلْيَقْطَعْهُمَا حَتَّى يَكُونَا أَسْفَلَ مِنَ الكَعْبَيْنِ»

"Sizdən biri izar, rida və nəleyndə (səndəl) ehrama girsin. Əgər nəleyn tapmazsa, xuf geyinsin və onları

[1] Hədisi Müslim: (260) rəvayət etmişdir.

kəssin ki, topuqdan aşağı olsun"[1]. İmam Əhməd, Allah ona rəhmət etsin, rəvayət etmişdir.

Qadına gəlincə, o, geyimində kişilərə bənzəməmək şərti ilə istədiyi qara, yaşıl və ya digər rəngli paltarda ehrama girə bilər. Lakin ehramda ikən niqab və əlcək geyinməməli, üzünü və əllərini isə onlardan başqa bir şeylə örtməlidir. Çünki peyğəmbər, sallələllahu aleyhi va səlləm, ehramda olan qadına niqab və əlcək geyinməyi qadağan etmişdir. Amma bəzi avam insanların qadının ehram geyimini yalnız yaşıl və ya qara rənglə məhdudlaşdırmasına gəlincə, bunun heç bir əsası yoxdur.

Sonra qüsl alıb təmizləndikdən və ihram libasını geyindikdən sonra, istədiyi həcc və ya ömrə ibadətini icra etmək üçün qəlbində niyyət edir. Çünki peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«إِنَّمَا الأَعْمَالُ بِالنِّيَّاتِ، وَإِنَّمَا لِكُلِّ امْرِئٍ مَا نَوَى».

"Əməllər niyyətlərə görədir. Hər kəsə yalnız niyyət etdiyi şey vardır"[2].

Niyyət etdiyini dilə gətirməsi müstəhəbdir. Əgər niyyəti ümrədirsə, belə deyir: "Ləbbeykə ümratən" və ya "Allahummə ləbbeykə ümratən". Əgər niyyəti həccdirsə, belə deyir: "Ləbbeykə həccən" və ya "Allahummə ləbbeykə həccən". Çünki peyğəmbər,

---

[1] Hədisi Müslim: (1177) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (1) və Müslim: (1907) rəvayət etmişdir.

sallallahu aleyhi va səlləm, belə etmişdir. Əgər hər ikisinə birlikdə niyyət edibsə, təlbiyə gətirərək belə deyir: "Allahummə ləbbeykə ümratən va həccən". Bu sözləri miniyinə - istər heyvan olsun, istər avtomobil, istərsə də başqa bir vasitə - mindikdən sonra deməsi daha fəzilətlidir. Çünki peyğəmbər, sallallahu aleyhi va səlləm, yalnız miniyinə əyləşib miqatdan yola düşdükdən sonra təlbiyə gətirməyə başlamışdır. Bu, elm əhlinin rəyləri arasında ən səhih olanıdır.

Yalnız ehram halı istisna olmaqla, niyyətini dilə gətirmək şəriətə uyğun deyildir. Çünki bu barədə peyğəmbərdən, sallallahu aleyhi və səlləm, rəvayət varid olmuşdur.

Amma namaz, təvaf və digər ibadətlərə gəldikdə isə, onların heç birində niyyəti dil ilə tələffüz etmək olmaz. Belə ki, insan: "filan namazı qılmağa niyyət etdim" və ya "filan qədər təvaf etməyə niyyət etdim" deməməlidir. Əksinə, niyyəti bu şəkildə tələffüz etmək sonradan ortaya çıxarılmış bidətlərdəndir. Bunu uca səslə etmək isə daha çirkin və daha böyük günahdır. Əgər niyyəti dil ilə tələffüz etmək şəriətə uyğun olsaydı, rəsulu-Llah, sallallahu aleyhi və səlləm, bunu öz əməli və ya sözü ilə ümmətə bəyan edərdi və saleh sələflər bu əməldə bizdən önə keçərdilər.

Bu əməl nə peyğəmbərdən, sallallahu aleyhi va səlləm, nə də səhabələrindən, Allah onlardan razı olsun, nəql edilmədiyi üçün bu əməlin bidət olduğu

aydın olur. Peyğəmbər, sallallahu aleyhi va səlləm, demişdir:

«وَشَرُّ الأُمُورِ مُحْدَثَاتُهَا، وَكُلُّ بِدْعَةٍ ضَلَالَةٌ»

"Əməllərin ən şərlisi isə dinə sonradan daxil edilən yeniliklərdir (bidətlərdir), hər bir bidət də zəlalətdir"[1]. Hədisi Müslim öz "Səhih" əsərində rəvayət etmişdir. Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«مَنْ أَحْدَثَ فِي أَمْرِنَا هَذَا مَا لَيْسَ مِنْهُ فَهُوَ رَدٌّ»

"Kim bizim bu işimizdə (dinimizdə) onda olmayan bir yenilik edərsə o, rədd olunar"[2]. Hədisi Buxari və Müslim rəvayət etmişdir. Müslimin başqa bir ləfzində isə belə deyilir:

«مَنْ عَمِلَ عَمَلًا لَيْسَ عَلَيْهِ أَمْرُنَا فَهُوَ رَدٌّ».

"Kim (dində) bizim əmr etmədiyimiz (şəriət dəlillərinə istinad etməyən) bir əməl edərsə, o əməl qəbul olunmaz"[3].

## Fəsil.

## Məkan miqatları və onların müəyyən edilməsi haqqında.

Miqatların sayı beşdir:

Birinci: Zulhuleyfədir. Bu, Mədinə əhlinin miqatıdır və bu gün insanlar arasında "Ebyar Ali" adlanır.

---

[1] Hədisi Müslim: (867) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (2697) və Müslim: (1718) rəvayət etmişdir.
[3] Hədisi Buxari: (2550) və Müslim: (1718) rəvayət etmişdir.

İkinci: Cühfə. Bu, Şam əhlinin miqatıdır və Rabiğ yaxınlığında yerləşən xaraba bir kənddir. İnsanlar bu gün Rabiğdən ehrama girirlər. Rabiğdən ehrama girən şəxs miqatdan ehrama girmiş sayılır. Çünki Rabiğ ondan bir qədər əvvəldir.

Üçüncü: Qarnul-mənəzil. Bu, Nəcid əhlinin miqatıdır və bu gün "əs-Seyil" adlanır.

Dördüncü: Yələmləm. Bu, Yəmən əhlinin miqatıdır.

Beşinci: Zətul-İrq. Bu, İraq əhlinin miqatıdır.

Bu miqatları peyğəmbər, sallallahu aleyhi va səlləm, qeyd etdiyimiz şəxslər və onlardan başqa, həcc və ya ümrə etmək niyyəti ilə bu miqatlardan keçənlər üçün təyin etmişdir.

Həcc və ya ümrə niyyəti ilə Məkkəyə gedən şəxsin, istər quru, istərsə də hava yolu ilə bu miqatlardan keçərkən oradan ihrama girməsi vacibdir və onları ihramsız keçməsi haramdır. Çünki peyğəmbər, sallallahu aleyhi va səlləm, bu miqatları təyin edərkən ümumi olaraq belə buyurmuşdur:

«هُنَّ لَهُنَّ، وَلِمَنْ أَتَى عَلَيْهِنَّ مِنْ غَيْرِ أَهْلِهِنَّ، مِمَّنْ أَرَادَ الحَجَّ وَالعُمْرَةَ».

«Bu (miqatlar) həm o yerlərin əhalisi, həm də həcc və ümrə etmək niyyətində olub oradan keçən qeyri-sakinlər üçündür»[1].

Həcc və ya ümrə niyyəti ilə təyyarə ilə Məkkəyə yollanan şəxsin təyyarəyə minməzdən əvvəl qüsl

[1] Hədisi Buxari: (1524) və Müslim: (1181) rəvayət etmişdir.

alması və bənzəri hazırlıqlar görməsi şəriətə uyğundur. Miqata yaxınlaşdıqda izarını və ridasını geyinir. Sonra, əgər vaxtı genişdirsə ümrə üçün, vaxtı dardırsa həcc üçün təlbiyə gətirir. İzarını və ridasını təyyarəyə minməzdən və ya miqata yaxınlaşmazdan əvvəl geyinməsinin bir qəbahət yoxdur. Lakin o, miqatın bərabərliyinə çatana və ya ona yaxınlaşana qədər ihrama girməyə niyyət etmir və təlbiyə gətirmir. Çünki peyğəmbər, sallallahu aleyhi va səlləm, yalnız miqatdan ihrama girmişdir. Dinin digər məsələlərində olduğu kimi, bu məsələdə də ümmətə ona, sallallahu aleyhi va səlləm, tabe olmaq vacibdir. Uca Allahın bu buyruğuna əsasən:

﴿لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ...﴾

"Allahın rəsulunda sizlər üçün gözəl örnək vardır...". (Əhzab 33 surəsi, ayə 21). Peyğəmbər, sallallahu aleyhi va səlləm, vida həccində belə buyurmuşdur:

«خُذُوا عَنِّي مَنَاسِكَكُمْ».

"Mənasiklərinizi (həcc əməllərini) məndən götürün!"[1].

Amma Məkkəyə həcc və ya ümrə niyyəti olmadan gedən tacir, odunçu, qasid və bu kimi şəxslərə ihram vacib deyil, yalnız özləri bunu arzu edərlərsə, bu hal istisnadır. Çünki peyğəmbər,

[1] Hədisi Müslim: (1297) rəvayət etmişdir.

sallallahu aleyhi və salləm, miqatları zikr etdiyi əvvəlki hədisdə buyurur:

«هُنَّ لَهُنَّ، وَلِمَنْ أَتَى عَلَيْهِنَّ مِنْ غَيْرِ أَهْلِهِنَّ، مِمَّنْ أَرَادَ الحَجَّ وَالعُمْرَةَ»،

«Bu (miqatlar) həm orada yaşayanlar, həm də həcc və ümrə etmək niyyəti ilə kənardan oraya gələnlər üçündür»[1]. Bundan belə nəticə çıxır ki, hər kim miqat məkanlarından həcc və ya ümrə niyyəti olmadan keçərsə, onun ihrama girməsi vacib deyildir.

Bu, Uca Allahın Öz qullarına olan rəhmətindən və işlərini onlar üçün asanlaşdırmasındandır. Buna görə həmd-səna və şükür Ona məxsusdur. Bunu o da təsdiq edir ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, Məkkənin fəthi ilində Məkkəyə gəldiyi zaman ehrama girməmiş, əksinə, başında dəbilqə ilə şəhərə daxil olmuşdu. Çünki o zaman onun niyyəti həcc və ya ümrə etmək deyildi, istəyi yalnız Məkkəni fəth etmək və oradakı şirki aradan qaldırmaq idi.

Miqat hüdudlarının daxilində yaşayanlara gəldikdə isə – Ciddə, Ummus-Sələm, Bəhrə, əş-Şərai, Bədr, Məsturə və bu kimi yerlərin sakinləri kimi – onların yuxarıda qeyd edilən beş miqatdan birinə getməsi tələb olunmur. Əksinə, onların miqatı elə yaşadıqları yerdir və onlar istədikləri həcc və ya ümrə üçün öz məkanlarından ihrama girirlər. Əgər belə bir şəxsin miqatdan kənarda

[1] Hədisin qaynağı əvvəldə qeyd edilmişdir.

başqa bir yaşayış yeri də varsa, o, seçim edə bilər: istəsə miqatdan, istəsə də miqatdan Məkkəyə daha yaxın olan yaşayış yerindən ihrama girər. Bu hökm, peyğəmbərin, sallallahu aleyhi və səlləm, İbn Abbasın, Allah onların ikisindən də razı olsun, rəvayət etdiyi hədisdə miqatları zikr edərkən buyurduğu ümumi sözə əsaslanır:

«فَمَنْ كَانَ دُونَهُنَّ، فَمُهَلُّهُ مِنْ أَهْلِهِ، وَكَذَلِكَ حَتَّى أَهْلُ مَكَّةَ يُهِلُّونَ مِنْ مَكَّةَ»

«Bu miqatlarla Məkkə arasında olanlar isə öz yaşadıqları yerdən ihrama girərlər[1], eləcə də Məkkə əhli Məkkədən ihrama girərlər»[2]. Hədisi Buxari və Müslim rəvayət etmişdir.

Lakin Haramda olan şəxs ümrə etmək istəyərsə, Haram hüdudlarından kənara çıxıb oradan ümrə üçün ehrama girməlidir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, Aişə ondan ümrə etmək istədiyi zaman qardaşı Abdurrahmana onu Haram hüdudlarından kənara çıxarıb oradan ehrama girməsini əmr etdi. Bu da ona dəlalət edir ki, ümrə edən şəxs ümrə üçün Haramdan deyil, məhz Haram hüdudlarından kənardan ehrama girməlidir.

Bu hədis İbn Abbasın əvvəldə qeyd olunan hədisini təxsis edir və peyğəmbərin, sallallahu aleyhi və səlləm, bu sözü ilə nəyi qəsd etdiyinə dəlalət edir:

«حَتَّى أَهْلُ مَكَّةَ يُهِلُّونَ مِنْ مَكَّةَ»،

[1] İhlal: yəni: ehrama girdiyi yerdən təlbiyə gətirməkdir.
[2] Əvvəlki hədisin bir hissəsidir.

"Hətta Məkkə əhli də Məkkədən ehrama girər"[1]. Bu, ömrə üçün deyil, həcc üçün ihrama girməkdir. Əgər Haram daxilindən ömrə üçün ihrama girmək icazəli olsaydı, Aişəyə, radiyallahu anha, buna izin verər və onu Haram hüdudlarından kənara çıxmağa məcbur (yükləməzdi; bu işə mükəlləf) etməzdi. Bu, aydın bir məsələdir və bu, həm də alimlərin əksəriyyətinin rəyidir, Allah onlara rəhmət etsin. Həmçinin bu, mömin üçün daha ehtiyatlıdır. Çünki bununla hər iki hədisə də əməl edilmiş olur. Müvəffəq edən Allahdır.

Amma bəzi insanların həccdən əvvəl ümrə etdikləri halda, həccdən sonra "Tənim", "Ciranə" və ya digər yerlərdən çoxlu ümrə etmələrinə gəlincə, bunun şəriətə uyğun olmasına heç bir dəlil yoxdur. Əksinə, dəlillər bunun tərk edilməsinin daha fəzilətli olduğuna dəlalət edir. Çünki peyğəmbər, sallallahu aleyhi va səlləm, və səhabələri, Allah onlardan razı olsun, həcci bitirdikdən sonra ümrə etməyiblər. Aişə, radiyallahu anha, isə Tənimdən ona görə ümrə etmişdir ki, heyizli olduğu üçün Məkkəyə daxil olarkən insanlarla birlikdə ümrə edə bilməmişdi. Buna görə də o, peyğəmbərdən, sallallahu aleyhi va səlləm, miqatda ihrama girdiyi ümrənin əvəzinə başqa bir ümrə etməyi xahiş etdi və peyğəmbər, sallallahu aleyhi va səlləm, də onun bu istəyini qəbul etdi. Bununla da o, iki ümrə etmiş

---

[1] Hədisin qaynağı əvvəldə qeyd edilmişdir.

oldu: biri həcci ilə birlikdə olan ümrə, digəri isə bu müstəqil ümrə. Kim Aişə, radiyallahu anha, kimi olarsa, həccini bitirdikdən sonra ümrə etməsində bir qəbahət yoxdur. Bu, bütün dəlillərə əməl etmək və müsəlmanlar üçün bir asanlıq olması üçündür.

Şübhəsiz ki, hacıların həcc ibadətini bitirdikdən sonra, Məkkəyə daxil olarkən yerinə yetirdikləri ümrədən başqa bir ümrə etmələri hamı üçün çətinlik törədir, izdihamın və (bədbəxt) hadisələrin artmasına səbəb olur. Bu əməl, həmçinin peyğəmbərin, sallallahu aleyhi və səlləm, yoluna və sünnəsinə də ziddir. Müvəffəq edən Allahdır.

## Fəsil.

## Həcc aylardan başqa vaxtda miqata çatan şəxsin hökmü haqqında.

Bil ki, miqata çatan şəxsin iki halı vardır:

Həcc aylarından başqa vaxtda, məsələn: Ramazan və ya Şaban ayında (Məkkəyə) gəlib çatan şəxs üçün sünnəyə uyğun olan əməl ümrə üçün ehrama girməkdir. O, qəlbində ümrəyə niyyət edərək dili ilə: "لَبَّيْكَ عُمْرَةً" [Ləbbeykə umratən] (Mən ümrə ziyarəti üçün Sənin hüzurunda-yam) və ya "اَللَّهُمَّ لَبَّيْكَ عُمْرَةً" [Allahummə ləbbeykə umratən] (Ey Allahım! Mən ümrə ziyarəti üçün Sənin hüzurunda-yam) – deyir. Sonra da peyğəmbərin, sallallahu aleyhi va səlləm, təlbiyəsini gətirir. Həmin təlbiyə belədir:

«لَبَّيْكَ اللَّهُمَّ لَبَّيْكَ، لَبَّيْكَ لاَ شَرِيكَ لَكَ لَبَّيْكَ، إِنَّ الحَمْدَ وَالنِّعْمَةَ لَكَ وَالمُلْكَ، لاَ شَرِيكَ لَكَ».

«Hüzurundayam Allahım, hüzurundayam. Hüzurundayam, Sənin heç bir şərikin yoxdur, hüzurundayam. Həmd, nemət və mülk tək Sənə məxsusdur, Sənin şərikin yoxdur!»[1]. Kəbəyə çatana qədər bol-bol təlbiyə gətirməli və Uca Allahı zikr etməlidir. Kəbəyə çatdıqda təlbiyə deməyi dayandırır. Kəbə ətrafında yeddi dəfə təvaf edir və Məqamın arxasında iki rükət namaz qılır. Sonra Səfaya çıxıb Səfa və Mərva arasında yeddi dəfə səy edir. Sonra başının saçını qırxır və ya qısaldır. Beləliklə də ümrəsi tamamlanmış olur və ihramla ona haram olan hər şey halal olur.

İkinci: Həcc aylarında miqata çatmaqdır. Bu aylar: Şəvval, Zülqədə ayları və Zülhiccənin birinci on günüdür.

Belə bir şəxs üç şeydən birini seçməkdə sərbəstdir: yalnız həcc etmək, yalnız ümrə etmək və ya hər ikisini birləşdirmək. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, Vida həccində, Zilqədə ayında miqata çatdıqda, səhabələrinə bu üç ibadət növündən birini seçmək imkanı vermişdi. Lakin belə bir şəxs üçün də, əgər özü ilə qurbanlıq heyvan (hədy) gətirməyibsə, sünnə olanı ümrə üçün ehrama girməsi və həcc aylarından kənarda miqata çatan şəxs haqqında zikr etdiklərimizi yerinə

---

[1] Hədisi Buxari: (1549) və Müslim: (1184) rəvayət etmişdir.

yetirməsidir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, Məkkəyə yaxınlaşdıqda səhabələrinə ehramlarını ümrəyə çevirmələrini əmr etmiş və Məkkədə bunu onlara bir daha təkidlə bildirmişdi. Onlar da peyğəmbərin, sallallahu aleyhi və səlləm, əmrinə tabe olaraq təvaf edib, səy edib, saçlarını qısaldaraq ehramdan çıxdılar. Yalnız özü ilə qurbanlıq heyvan (hədy) gətirənlər istisna olmaqla, peyğəmbər, sallallahu aleyhi və səlləm, onlara Qurban bayramı günü ehramdan çıxana qədər ehramlı olaraq qalmalarını əmr etdi. Qurbanlığı özü ilə gətirən şəxs üçün sünnəyə uyğun olan, həcc və ümrə üçün birlikdə ehrama girməsidir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, belə etmişdir və o, özü ilə qurbanlıq gətirmişdi. Peyğəmbər, sallallahu aleyhi və səlləm, səhabələrindən qurbanlıq gətirib ümrə üçün ehrama girənlərə, ümrələri ilə birlikdə həccə də niyyət etmələrini və Qurban bayramı günü hər ikisindən birlikdə çıxana qədər ehramdan çıxmamalarını əmr etmişdi. Əgər qurbanlıq gətirən şəxs yalnız həcc üçün ehrama girmişdirsə, o da eynilə hər ikisini birləşdirən ("qiran həcci" edən) şəxs kimi, Qurban bayramı günü ehramdan çıxana qədər ehramlı olaraq qalır.

Bununla da aydın olur ki, yalnız həcc üçün və ya həcc və ümrə üçün ehrama girən, lakin özü ilə qurbanlıq gətirməyən şəxsin ehramlı qalması münasib deyil. Əksinə, onun üçün sünnə olan,

ehramını ümrəyə çevirməsi, sonra təvaf və səy edib, saçını qısaldaraq ehramdan çıxmasıdır. Necə ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, öz səhabələrindən qurbanlıq gətirməyənlərə bunu əmr etmişdir. Lakin bu şəxs (Məkkəyə) gec gəldiyi üçün həcci qaçırmaqdan qorxarsa, o zaman ehramlı qalmasında bir qəbahət yoxdur. Ən doğrusunu Allah bilir.

Əgər ehrama girən şəxs xəstəlik, düşmən qorxusu və ya bu kimi səbəblərdən ibadətini yerinə yetirə bilməyəcəyindən qorxarsa, ehrama girərkən belə deməsi müstəhəbdir: "فَإِنْ حَبَسَنِي حَابِسٌ فَمَحِلِّي حَيْثُ حَبَسْتَنِي" - (Əgər bir maneə məni saxlayarsa, ehramdan çıxacağım yer elə saxlandığım yerdir). Buna dəlil Dubə'at bint əz-Zubeyrin, Allah ondan razı olsun, rəvayət etdiyi hədisdir. O demişdir: “Ey Allahın elçisi, mən həcc etmək istəyirəm, lakin xəstəyəm”. Peyğəmbər , sallallahu aleyhi və səlləm, ona belə buyurdu:

«حُجِّي وَاشْتَرِطِي أَنَّ مَحِلِّي حَيْثُ حَبَسْتَنِي»

"Həcc et və şərt qoş: ki məni harada saxlasan, ihramdan çıxacağım yer oradır"[1]. Hədisi Buxari və Müslim rəvayət etmişdir.

Bu şərtin faydası odur ki, əgər ehrama girən şəxsə xəstəlik və ya düşmənin mane olması kimi ibadətini tamamlamasına mane olan bir hal baş

---

[1] Hədisi Buxari: (5089) və Müslim: (1207) rəvayət etmişdir.

verərsə, onun ehramdan çıxması caizdir və üzərinə heç bir şey düşməz.

## Fəsil.

## Kiçik uşağın həccinin hökmü: bu onun üçün (fərzi) "Həccü-l-İslamı" yerinə yetirməyə kifayət edirmi?

Kiçik oğlan və qız uşağının həcci səhihdir; çünki Səhih Muslimdə İbn Abbasdan, Allah ondan razı olsun, rəvayət edilir ki, bir qadın uşağını peyğəmbərə, sallallahu aleyhi və səlləm, tərəf qaldırıb demişdir: “Ey Allahın elçisi, bu uşağa həcc etmək vacibdirmi?”. Peyğəmbər, sallallahu aleyhi və səlləm, buyurdu:

«نَعَمْ، وَلَكِ أَجْرٌ».

“Bəli, sənin üçün də əcr vardır”[1].

Buxarinin "Səhih" əsərində rəvayət edilir ki, əs-Saib bin Yezid, Allah ondan razı olsun, demişdir: «Mən yeddi yaşında olarkən peyğəmbər, sallallahu aleyhi və səlləm, ilə birlikdə həcc etdim»[2]. Lakin bu həcc, onların İslam həccini əvəz etməz.

Eləcə də qul və cariyənin etdiyi həcc səhih sayılar, lakin bu, onlara İslam həccinin yerini verməz. Çünki İbn Abbasdan, Allah onlardan razı olsun, rəvayət olunur ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə demişdir:

---

[1] Hədisi Müslim: (1336) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (1858) rəvayət etmişdir.

«أَيُّمَا صَبِيٍّ حَجَّ، ثُمَّ بَلَغَ الحِنْثَ، فَعَلَيْهِ أَنْ يَحُجَّ حَجَّةً أُخْرَى، وَأَيُّمَا عَبْدٍ حَجَّ، ثُمَّ أُعْتِقَ، فَعَلَيْهِ حَجَّةٌ أُخْرَى»

"Hansı uşaq həcc edərsə, həddi-büluğa çatdıqdan sonra yenidən həcc etməlidir. Hansı qul həcc edərsə, qulluqdan azad olduqdan sonra yenidən həcc etməlidir"[1]. Bu hədisi İbn Əbi Şeybə və Beyhəqi həsən isnadla rəvayət etmişdir.

Sonra, əgər oğlan uşağı "təmyiz" yaşına çatmayıbsa, onun vəlisi onun əvəzinə ihrama niyyət edir, onu tikili paltarlardan çıxarır və onun əvəzinə təlbiyə gətirir. Beləliklə, uşaq ihramlı olur və yetkinlik yaşına çatmış ihramlı kişiyə qadağan olanlar ona da qadağan edilir. Eləcə də, təmyiz yaşına çatmamış qız uşağının əvəzinə vəlisi ihrama niyyət edir və onun əvəzinə təlbiyə gətirir. Bununla da qız uşağı ihramlı olur və yetkinlik yaşına çatmış ihramlı qadına qadağan olanlar ona da qadağan edilir. Təvaf edərkən hər ikisinin paltarının və bədəninin təmiz olması lazımdır. Çünki təvaf namaza bənzəyir, təmizlik isə namazın səhih olmasının şərtidir.

Əgər oğlan və qız uşağı yaxşını pisdən ayıra bilən (təmyiz) yaşdadırlarsa, vəlilərinin icazəsi ilə ihrama girərlər. İhrama girərkən böyüklərin etdiyi qüsl almaq, ətir vurmaq və bu kimi əməlləri yerinə yetirərlər. Onların vəlisi, istər ataları, istər anaları, istərsə də başqası olsun, onların işlərini yerinə

[1] Hədisi İbn Əbi Şeybə (cild:4/444) rəvayət etmişdir.

yetirən və qayğılarına qalan kimsədir. Vəli, onların bacarmadıqları daş atmaq və bu kimi əməlləri onların əvəzinə yerinə yetirər. Bundan başqa digər həcc əməllərini, məsələn: Arafatda durmağı, Minada və Müzdəlifədə gecələməyi, təvaf və səy etməyi isə özləri yerinə yetirməlidirlər. Əgər onlar təvaf və səy etməkdən aciz qalarlarsa, daşınaraq onlara təvaf və səy etdirilir. Onları daşıyan kimsə üçün isə daha fəzilətlisi təvaf və səyi özü ilə onlar arasında müştərək etməməsi, əksinə, təvaf və səyi onlar üçün niyyət edib, özü üçün müstəqil təvaf və müstəqil səy etməsidir. Bu, ibadətdə ehtiyatlı olmaq və şərəfli hədisə əməl etmək üçündür:

«دَعْ مَا يَرِيبُكَ إِلَى مَا لَا يَرِيبُكَ».

"Sənə şübhə verən şeyi, şübhə verməyən şeylə dəyiş"[1]. Əgər daşıyan şəxs həm özü, həm də daşıdığı üçün təvaf etməyə niyyət edərsə, iki rəydən daha səhih olana görə bu, hər ikisi üçün keçərli sayılar. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, ondan uşağın həcci barədə soruşan qadına, uşaq üçün ayrıca təvaf etməsini əmr etməmişdir. Əgər bu, vacib olsaydı, peyğəmbər, sallallahu aleyhi və səlləm, bunu bəyan edərdi. Müvəffəq edən Allahdır.

Təmyiz yaşına çatmış oğlan və qız uşağına, böyük ehramlı şəxs kimi, təvafa başlamazdan əvvəl hədəsdən və nəcasətdən təmizlənmək əmr olunur. Kiçik yaşlı oğlan və qız uşağı üçün ehrama girmək

---

[1] Hədisi Tirmizi: (2518) rəvayət etmişdir.

onların vəlisinə vacib deyil, əksinə bu, nafilədir. Əgər vəli bunu etsə, ona əcr var, tərk etsə isə, ona heç bir günah yoxdur. Allah daha doğrusunu bilir.

## Fəsil.

## Ehram halında qadağan olunan əməllərin və ehramlı şəxs üçün icazəli olan işlərin açıqlanması.

İhram niyyətindən sonra - kişi yaxud qadın olmasından asılı olmayaraq - ihramda olan şəxsin saçından, dırnaqlarından bir şey götürməsi və ya ətirlənməsi caiz deyildir.

Yalnız kişilərə bədən formasına uyğun biçilib tikilmiş paltarları, məsələn: köynək, fanelka, şalvar, xüf və corabları geyinmək icazəli deyil. Ancaq izar tapmasa, şalvar geyinə bilər. Eləcə də, səndəl tapmayan kəs xüfləri kəsmədən geyinə bilər. Çünki Səhiheyində sabit olan İbn Abbasın, Allah onlardan razı olsun, hədisində peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, demişdir:

«مَنْ لَمْ يَجِدْ نَعْلَيْنِ، فَلْيَلْبَسِ خُفَّيْنِ، وَمَنْ لَمْ يَجِدْ إِزَارًا، فَلْيَلْبَسْ سَرَاوِيلَ».

«Kim nəleyn (səndəl) tapmasa, xuf geyinsin. Kim də izar tapmasa, şalvar geyinsin»[1].

İbn Ömərin, Allah onların hər ikisindən də razı olsun, hədisində ayaqqabı tapılmadığı üçün xufları geyinməyə ehtiyac duyduqda onların kəsilməsi əmrinə gəlincə, bu hökm nəsx olunmuşdur. Çünki

[1] Hədisi Buxari: (1841) və Müslim: (1179) rəvayət etmişdir.

peyğəmbər, sallallahu aleyhi və səlləm, Mədinədə olarkən ihramlı şəxsin hansı geyimləri geyinə biləcəyi barədə soruşulduqda belə əmr etmişdir. Sonra isə Ərəfatda insanlara xütbə verərkən ayaqqabı tapılmadıqda xufları geyinməyə icazə verdi və onların kəsilməsini əmr etmədi. Bu xütbədə onun Mədinədəki cavabını eşitməyənlər də iştirak edirdi. Hökmün izahını ehtiyac duyulan vaxtdan sonraya saxlamaq isə icazəli deyil. Bu, hədis və fiqh üsulu elmlərində də məlumdur. Bununla da kəsmək əmrinin nəsx olunduğu sübuta yetmiş olur. Əgər bu, vacib olsaydı, peyğəmbər, sallallahu aleyhi və səlləm, onu mütləq bəyan edərdi. Ən doğrusunu Allah bilir.

İhramda olan kimsənin topuqdan aşağı olan xüfləri geyinməsi caizdir. Çünki onlar nalın (səndəl) növündəndir.

İzarı düyünləmək və onu ip və bənzəri şeylərlə bağlamaq, qadağan edən bir dəlil olmadığı üçün icazəlidir.

İhramda olan kimsənin ehtiyac duyduğu zaman yavaşca və asanlıqla yuyunması, başını yuması və qaşıması caizdir. Əgər buna görə başından bir şey düşərsə, ona bir günah yoxdur.

Ehramda olan qadının üzünü niqab, burqa və bənzəri (üzün formasına/ ölçüsünə uyğun olaraq tikilən və ya toxunan) şeylərlə örtməsi və əlinə əlcək geyinməsi qadağandır. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«وَلَا تَنْتَقِبِ الْمَرْأَةُ الْمُحْرِمَةُ، وَلَا تَلْبَسِ الْقُفَّازَيْنِ»

"Ehramda olan qadın niqab taxmasın və əlcək geyinməsin"[1] Hədisi Buxari rəvayət etmişdir. Əlcəklər: yundan, pambıqdan və ya digər şeylərdən əllərin ölçüsünə uyğun olaraq tikilən və ya toxunan geyimdir.

Qadına, bunlardan başqa, köynək, şalvar, xuf, corab və buna bənzər digər tikili paltarları geyinmək icazəlidir.

Eləcə də, qadının ehtiyac duyduğu zaman baş örtüyünü heç bir şeylə bağlamadan üzünün üstünə salması caizdir. Əgər baş örtüyü üzünə toxunarsa, üzərinə düşəsi bir şey yoxdur. Çünki Aişə, radiyallahu anha, demişdir: «Biz rəsulu-Llahla, sallallahu aleyhi və səlləm, birlikdə ehramda olarkən atlılar yanımızdan keçərdilər. Onlar bizim bərabərimizə çatanda bizdən birimiz cilbabını başından üzünün üstünə endirərdi. Onlar bizi ötüb keçəndə isə üzümüzü açardıq»[2]. Bu hədisi Əbu Davud və İbn Macə rəvayət etmişdir. Daraqutni isə Umm Sələmədən buna bənzərini rəvayət etmişdir.

Həmçinin, qadın əllərini paltarı və ya başqa bir şeylə örtə bilər, lakin naməhrəm kişilərin yanında olduğu halda üzünü və əllərini örtməsi vacibdir. Çünki bunlar övrətdir. Allah Sübhanəhu və Təala buyurur:

---

[1] Hədisi Buxari: (1838) rəvayət etmişdir.
[2] Hədisi Əbu Davud: (1833) rəvayət etmişdir.

﴿...وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا لِبُعُولَتِهِنَّ...﴾

"Zinətlərini ərlərindən başqasına göstərməsinlər". (Nur 24 surəsi, ayə 31). Şübhəsiz ki, üz və əllər zinətin ən mühüm və diqqət çəkən hissələrindəndir.

Bu baxımdan üz daha güclü və daha mühüm əhəmiyyət daşıyır. Uca Allah buyurur:

﴿...وَإِذَا سَأَلْتُمُوهُنَّ مَتَاعًا فَاسْأَلُوهُنَّ مِنْ وَرَاءِ حِجَابٍ ذَلِكُمْ أَطْهَرُ لِقُلُوبِكُمْ وَقُلُوبِهِنَّ...﴾

"Peyğəmbərin zövcələrindən bir şey soruşduqda, pərdə arxasından soruşun. Bu həm sizin qəlbiniz, həm də onların qəlbləri üçün daha təmizdir". (Əhzab 33 surəsi, ayə 53).

Bir çox qadınların, baş örtüyünü üzdən aralı tutmaq üçün onun altına sarğı qoymasına gəlincə, bildiyimizə görə bunun şəriətdə heç bir əsası yoxdur. Əgər bu, şəriətə uyğun bir əməl olsaydı, peyğəmbər, sallallahu aleyhi və səlləm, bunu öz ümmətinə bəyan edərdi və bu barədə susmazdı.

Ehramda olan kişi və qadınların, ehram paltarlarını çirkləndikdə yuması, eləcə də onları başqası ilə dəyişdirməsi caizdir.

Ona zəfəran və ya vərs (ətir) sürtülmüş paltar geyinmək icazəli deyil. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, İbn Ömərin, Allah onlardan razı olsun, rəvayət etdiyi hədisdə bunu qadağan etmişdir.

Ehramda olan şəxs ədəbsiz danışıqdan, günah işlərdən və mübahisədən çəkinməlidir. Çünki Uca Allah buyurur:

﴿الْحَجُّ أَشْهُرٌ مَّعْلُومَاتٌ فَمَنْ فَرَضَ فِيهِنَّ الْحَجَّ فَلَا رَفَثَ وَلَا فُسُوقَ وَلَا جِدَالَ فِي الْحَجِّ...﴾

"Həcc (ziyarəti) məlum olan aylardadır. Bu aylarda həcci yerinə yetirməyi niyyət edən kəs həcc (ziyarəti) əsnasında (qadınıyla) yaxınlıq etməməli, günah işlər görməməli və mübahisələrə qoşulmamalıdır". (Bəqərə 2 surəsi, ayə 197).

Peyğəmbər, sallallahu aleyhi va səlləm, səhih bir hədisdə belə buyurmuşdur:

«مَنْ حَجَّ، فَلَمْ يَرْفُثْ، وَلَمْ يَفْسُقْ، رَجَعَ كَيَوْمِ وَلَدَتْهُ أُمُّهُ».

«Kim həcc edərsə, (bu zaman) qadını ilə yaxınlıq etməz və söyüş söyüb pis sözlər danışmazsa, anadan doğulduğu gün kimi (günahsız olaraq) geri dönər»[1]. "Ər-Rəfəs": cinsi əlaqəyə, habelə əxlaqsız söz və hərəkətlərə deyilir. "əl-Fusuq": günahlardır. "Əl-Cidəl": batil bir şey uğrunda və ya faydasız bir mövzuda mübahisə etməkdir. Amma haqqı üzə çıxarmaq və batili rədd etmək üçün gözəl bir şəkildə edilən mübahisəyə gəldikdə isə, bunda bir qəbahət yoxdur. Əksinə, bu, əmr edilən əməldir. Çünki Uca Allah buyurur:

﴿ادْعُ إِلَى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ وَجَادِلْهُم بِالَّتِي هِيَ أَحْسَنُ...﴾

[1] Hədisi Buxari: (1521) və Müslim: (1350) Əbu Hureyrədən, Allah ondan razı olsun, rəvayət etmişdir.

"(İnsanları) Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et...". (Nəhl 16 surəsi, ayə 125).

İhramda olan kişinin başını ona yapışan bir şeylə, məsələn: papaq, baş örtüyü, əmmamə və ya buna bənzər şeylərlə örtməsi, eləcə də üzünü örtməsi haramdır. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, Arafat günündə miniyindən yıxılıb vəfat edən şəxs barədə buyurmuşdur:

«اغْسِلُوهُ بِمَاءٍ وَسِدْرٍ، وَكَفِّنُوهُ فِي ثَوْبَيْهِ، وَلَا تُخَمِّرُوا رَأْسَهُ، وَلَا وَجْهَهُ، فَإِنَّهُ يُبْعَثُ يَوْمَ الْقِيَامَةِ مُلَبِّيًا»

"Onu su və sidr ilə yuyun, öz iki paltarı ilə kəfənləyin, başını və üzünü örtməyin. Çünki o, Qiyamət günü təlbiyə edərək diriləcək"[1]. Hədisi Buxari və Müslim rəvayət edib. Hədisin ləfzi (mətni) isə Müslimindir.

Amma maşının tavanı, şəmsiyə (çətir) və ya digər oxşar əşyalarla kölgələnmək, eynilə çadır və ağacla kölgələnmək kimi caizdir. Çünki səhih hədisdə sabit olmuşdur ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, Əqəbə cəmrəsini atarkən, onun üçün paltarla kölgəlik düzəldilmişdi. Həmçinin ondan, sallallahu aleyhi və səlləm, səhih olaraq rəvayət olunur ki, Arafa günü Nəmirada onun üçün çadır qurulmuş və o, günəş zeniti keçənə qədər onun altında qalmışdır.

[1] Hədisi Buxari: (1521) və Müslim: (1350) rəvayət etmişdir.

Ehramda olan kişi və qadınlara çöl ovunu öldürmək, bunda kömək etmək, onu yerindən hürkütmək, kəbin kəsmək, cima etmək, qadınlarla nişanlanmaq və onlara şəhvətlə toxunmaq haramdır. Osman, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«لَا يَنْكِحُ المُحْرِمُ وَلَا يُنْكِحُ وَلَا يَخْطُبُ»

"İhramda olan adam nikah etmir, başqasını da nikah etdirmir və (evlənmək üçün qadınla) nişanlamır"[1]. Hədisi Müslim rəvayət etmişdir.

İhramda olan kimsə unudaraq və ya bilməməzlikdən tikişli paltar geyinərsə, başını örtərsə və ya ətir sürtərsə, ona fidyə vacib deyil və yadına düşdüyü və ya bildiyi vaxt dərhal həmin şeyi aradan qaldırmalıdır. Həmçinin, səhih rəyə görə, unudaraq və ya bilməməzlikdən başını qırxan, saçından bir şey götürən və ya dırnaqlarını kəsən kimsənin də üzərinə düşən bir şey yoxdur.

Müsəlmana - istər ehramda olsun, istərsə də olmasın, istər kişi olsun, istərsə də qadın - Haram hüdudları daxilindəki ovu öldürmək və onun öldürülməsinə bir alətlə, işarə ilə və ya bu kimi vasitələrlə kömək etmək haramdır.

Haram ərazisindəki ov heyvanını yerindən hürkütmək, ağaclarını və yaş bitkilərini kəsmək, habelə tapıntısını onu elan edəcək kimsədən

---

[1] Hədisi Müslim: (1409) rəvayət etmişdir.

başqasının götürməsi haramdır. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, buyurmuşdur:

«فَإِنَّ هَذَا البَلَدَ - يَعْنِي مَكَّةَ - حَرَامٌ بِحُرْمَةِ اللَّهِ إِلَى يَوْمِ القِيَامَةِ، لَا يُعْضَدُ شَوْكُهُ، وَلَا يُنَفَّرُ صَيْدُهُ، وَلَا يُلْتَقَطُ لُقَطَتُهُ إِلَّا مَنْ عَرَفَهَا، وَلَا يُخْتَلَى خَلَاهَا»

"Həqiqətən, bu şəhər (yəni: Məkkə) Allah tərəfindən Qiyamət gününə qədər haram edilmişdir. Onun tikanı dərilməz, ovu hürküdülməz, tapıntısı onu elan edəcək kəsdən başqa götürülməz və yaş otu biçilməz"[1]. Hədisi Buxari və Müslim rəvayət etmişdir.

"Münşid": elan edən (tanıdan) şəxsə, "xalə" isə yaş ota deyilir. Mina və Müzdəlifə "Haram" ərazisinə, Arafat isə "Halal" ərazisinə daxildir.

## Fəsil.

## Hacının Məkkəyə daxil olarkən etdiyi əməllər və Məscidul-Harama daxil olduqdan sonra təvaf etməsinin və onun edilmə qaydasının bəyanı.

İhramda olan şəxs Məkkəyə çatdıqda, oraya daxil olmamışdan əvvəl qüsl alması müstəhəbdir. Çünki peyğəmbər, sallallahu əleyhi va səlləm, belə etmişdir. Məscidul-Harama daxil olarkən, sağ ayağını birinci atması və belə deməsi sünnədir: [Bismilləh, vas-salatu vas-səlamu 'alə rasuli-lləh. Ə'uzu billəhil-'Azim va bi-vəchihil-Kərim va sultanihil-qadim minəş-şeytanir-racim. Allahummə

[1] Hədisi Buxari: (1834) və Müslim: (1353) rəvayət etmişdir.

iftəh li əbvabə rahmətikə] - «Allahın adı ilə! Salavat və salam olsun Allahın elçisinə! Lənətlənmiş şeytandan Əzəmətli Allaha, Onun Kərim Üzünə və əzəli hökmranlığına sığınıram! Allahım! Öz mərhəmət qapılarını mənim üçün aç!». Bu dua digər məscidlərə daxil olarkən də deyilir. Bildiyimə görə, Məscidul-Harama daxil olmaq üçün peyğəmbərdən, sallallahu əleyhi va səlləm, sabit olmuş xüsusi bir zikr yoxdur.

Əgər təməttü həcci və ya ümrə edirsə, Kəbəyə çatdıqda təvafa başlamazdan əvvəl təlbiyyəni dayandırır. Sonra Həcərul-Əsvədi qəsd edir və ona tərəf dönür, sonra sağ əli ilə ona toxunur və əgər mümkün olarsa, izdihamla insanlara əziyyət vermədən onu öpür. Ona toxunarkən: “Bismilləhi va-Llahu əkbər”, və ya “Allahu əkbər” deyir. Əgər onu öpmək mümkün olmazsa, ona əli ilə və ya əsa və bənzəri bir şeylə toxunar və toxunduğu şeyi öpər. Əgər ona toxunmaq da mümkün olmazsa, ona tərəf işarə edər: "Allahu əkbər" deyər, lakin əlini öpməz. Təvafın səhih olması üçün təvaf edən kimsənin kiçik və böyük hədisdən (dəstəmazsızlıq və cünubluqdan) təmiz olması şərtdir. Çünki təvaf namaz kimidir, lakin təvaf əsnasında danışmağa icazə verilmişdir. Təvaf edərkən Kəbəni sol tərəfində saxlamalıdır. Təvafın əvvəlində: "Allahummə imənən bikə va təsdiqan bikitəbikə va vəfaən biəhdikə vat-tibəən lisunnəti nəbiyyikə Muhəmmədin, sallallahu əleyhi va səlləm" deməsi

yaxşıdır. Çünki bu, peyğəmbərdən, sallallahu əleyhi va səlləm, rəvayət olunmuşdur. Yeddi şovt təvaf edir və istər ümrə edən, istər təməttu, istər yalnız həccə ehramına girən (ifrad), istərsə də həcc ilə ümrəni birləşdirən (qiran) kimsə olsun, Məkkəyə ilk gəldikdə etdiyi birinci təvafın ilk üç dövrəsində tez-tez yeriyərək dövrə vurur, qalan dördündə isə asta gedişlə yeriyir. Hər bir şovta Həcərul-Əsvaddan başlayıb, onunla da bitirir.

"Rəməl": qısa addımlarla sürətli yeriməkdir və başqa təvaflarda deyil, məhz bu təvafın bütün dövrələrində "idtıba'" etmək müstəhəbdir. İdtıba': ihramın ortasını sağ qoltuğunun altından keçirib, uclarını isə sol çiyninin üstünə qoymaqdır.

Əgər dövrlərin sayında şəkk edərsə, yəqin olanı, yəni: ən az olan sayı əsas götürməlidir. Belə ki, üç, yoxsa dörd dövr etdiyinə şəkk edərsə, onu üç hesab etməlidir. Səy edərkən də eynilə belə etməlidir.

Təvafı bitirdikdən sonra, təvafın iki rükət namazını qılmazdan əvvəl ridası ilə çiyinlərini örtməli, uclarını isə sinəsinin üzərinə salmalıdır.

Qadınların etdikləri inkar olunmalı və ondan çəkindirilməli olan əməllərdən biri də, bəzənərək və gözəl ətirlər vuraraq təvaf etmələri, həmçinin övrət olduqları halda örtünməmələridir. Onlara örtünmək, təvaf zamanı və qadınların kişilərlə qarışdığı digər hallarda zinəti tərk etmək vacibdir. Çünki onlar övrət və fitnədirlər. Qadının üzü onun ən aşkar zinətidir, buna görə də onu

məhrəmlərindən başqasına göstərməsi caiz deyildir. Uca Allahın bu buyruğuna görə:

﴿...وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا لِبُعُولَتِهِنَّ...﴾

"Zinətlərini ərlərindən başqasına göstərməsinlər". [Nur 24 surəsi, ayə 31]. Əgər kişilərdən kimsə onları görəcəksə, qadınlara Həcərul-Əsvədi öpərkən üzlərini açmaq icazəli deyil. Əgər qadınlara daşa toxunub onu öpmək üçün imkan olmazsa, kişilərlə izdiham yaratmaları da icazəli deyil. Əksinə, onlar kişilərin arxasınca təvaf etməlidirlər və bu, onlar üçün kişilərlə izdiham yaradaraq Kəbənin yaxınlığında təvaf etməkdən daha xeyirli və savab baxımından daha böyükdür. Nə bu təvafdan başqa digər təvaflarda, nə səydə, nə də qadınlar üçün rəməl və idtiba etmək şəriətə uyğun deyil. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, rəməl və idtibanı yalnız Məkkəyə gəldiyi zaman etdiyi ilk təvafında yerinə yetirmişdir. Təvaf edərkən hədəsdən və nəcasətdən təmiz olmalı, Rəbbinə boyun əyməli və təvazökarlıq göstərməlidir.

Təvaf edərkən Allahı daha çox zikr etməsi və dua etməsi müstəhəbdir. Əgər təvafda Quran oxusa, bu da yaxşıdır. Nə bu təvafda, nə də digər təvaflarda və səydə xüsusi bir zikr və ya dua vacib deyil.

Bəzi insanların təvafın və ya səyin hər bir dövrəsi üçün xüsusi zikrlər və ya dualar təyin etməsinin isə heç bir əsası yoxdur. Əksinə, asan

gələn hər hansı zikr və duanı etmək kifayətdir. Yəmən küncünə çatdıqda sağ əli ilə ona toxunub: "Bismilləh, Allahu-əkbər" deməli, lakin onu öpməməlidir. Əgər ona toxunmaq çətin gələrsə, toxunmadan təvafına davam etməlidir. Ona işarə etməsi və onun qarşısında təkbir gətirməsi lazım deyil. Çünki bildiyimizə görə bu, peyğəmbərdən, sallallahu aleyhi və səlləm, sabit olmamışdır. Yəmən küncü ilə qara daş arasında bu duanı deməsi müstəhəbdir:

﴿...رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَفِي الْآخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ 201﴾

"Ey Rəbbimiz! Bizə həm (bu) dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi (Cəhənnəm) odunun əzabından qoru!". [Bəqərə 2 surəsi, ayə 201]. Hər dəfə Həcərul-Əsvədin bərabərinə çatdıqda ona toxunub öpür və (اللهُ أَكْبَرُ) [Allahu əkbər] - "Allah ən böyükdür" – deyir. Əgər ona toxunmaq və onu öpmək mümkün olmazsa, hər dəfə onun bərabərinə çatdıqda ona tərəf işarə edir və (اللهُ أَكْبَرُ) [Allahu Əkbər] - "Allah ən böyükdür" – deyir.

Zəmzəm və İbrahim məqamının arxasından, xüsusilə də izdiham zamanı təvaf etməyin heç bir eybi yoxdur. Bütün məscid təvaf yeridir və məscidin eyvanlarında edilən təvaf da səhih sayılır. Lakin imkan varsa, Kəbəyə yaxın təvaf etmək daha əfzəldir.

Təvafı bitirdikdən sonra, əgər mümkün olarsa, İbrahim məqamının arxasında iki rükət namaz qılır. İzdiham və bu kimi səbəblərdən orada namaz qılmaq mümkün olmadıqda isə bu namazı Məscidin istənilən yerində qılır. Sünnəyə görə bu namazda Fatihədən sonra oxuyur:

﴿قُلۡ يَٰٓأَيُّهَا ٱلۡكَٰفِرُونَ1﴾

"De: "Ey kafirlər!". (Kəfirun 109 surəsi, ayə 1). Birinci rükətdə və

﴿قُلۡ هُوَ ٱللَّهُ أَحَدٌ1﴾

"De: "O Allah Təkdir!". (İxlas 112 surəsi, ayə 1). - ikinci rükətdə. Ən əfzəli budur. Lakin onlardan başqasını oxusa, heç bir eybi yoxdur. Sonra peyğəmbərə, sallallahu aleyhi və səlləm, tabe olmaq məqsədilə Həcərul-Əsvədə yönəlir, əgər mümkün olarsa, onu sağ əli ilə toxunur.

Sonra Səfa qapısından çıxıb Səfa təpəsinə qalxır və ya onun yanında dayanır. Əgər mümkündürsə, Səfa təpəsinə qalxmaq daha fəzilətlidir. Birinci dövrəyə başlayarkən Uca Allahın bu ayəsini oxuyur:

﴿إِنَّ الصَّفَا وَالْمَرْوَةَ مِنْ شَعَائِرِ اللَّهِ...﴾

"Həqiqətən, Səfa və Mərvə Allahın nişanələrindəndir". (Bəqərə 2 surəsi, ayə 158).

Səfa dağında qibləyə yönəlib Allaha həmd etmək, təkbirlər demək və bu sözləri söyləmək müstəhəbdir: [Lə ilahə illəllah, vallahu əkbər. Lə ilahə illəllahu vahdəhu lə şərikə lə-hu, ləhul-mulku

va ləhul-həmdu, yuhyi va yumitu va huvə alə kulli şeyin qadir. Lə ilahə illəllahu vahdəhu, əncəzə va'dəhu va nəsara abdə-hu va həzə-məl-əhzabə vahdəhu], «Allahdan başqa haqq məbud yoxdur və Allah ən böyükdür. Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəri-ki yoxdur. Mülk Onundur və həmd Onadır. O, dirildir və öldürür və O, hər şeyə Qadirdir. Allahdan başqa haqq məbud yoxdur, O təkdir. Allah vədini yerinə yetirdi, quluna kömək etdi və (düşmənlərdən olan) dəstələri tək Özü məğlub etdi!». Sonra əllərini qaldıraraq bacardığı duanı edir, bu zikri və duanı üç dəfə təkrar edir. Sonra düşərək Mərvaya doğru yeriyir. Birinci yaşıl işarəyə çatdıqda kişi, ikinci yaşıl işarəyə çatana qədər sürətlə yeriyir. Qadınların isə iki işarə arasında sürətlə yeriməsi şəriətə uyğun deyildir. Çünki qadın, övrətdir. Əksinə, onun bütün səy boyu adi yerişlə yeriməsi şəriətə uyğundur. Sonra yeriyərək Mərvə təpəsinə qalxır və ya onun yanında dayanır. Müyəssər olarsa, onun üzərinə çıxmaq daha fəzilətlidir. Mərvənin üzərində də Səfada dediyini deyir və etdiyini edir, ayəni oxumaq istisna olmaqla. Bu da Uca Allahın bu sözüdür:

﴿إِنَّ الصَّفَا وَالْمَرْوَةَ مِنْ شَعَائِرِ اللَّهِ...﴾

"Həqiqətən, Səfa və Mərvə Allahın nişanələrindəndir". [Bəqərə 2 surəsi, ayə 158]. Bu, yalnız birinci şovtda Səfaya qalxarkən peyğəmbərə, sallallahu aleyhi və səlləm, uyaraq edilir. Sonra enir

və Mərvaya çatana qədər adi yerişlə gedilən yerdə yeriyir, sürətli gedilən yerdə isə sürətlənir. Bunu yeddi dəfə təkrarlayır. Getməsi bir şovt, qayıtması isə başqa bir şovt sayılır. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, qeyd olunanları etmiş və belə buyurmuşdur:

«خُذُوا عَنِّي مَنَاسِكَكُمْ».

«Mənasiklərinizi (həcc əməllərini) məndən öyrənin!»[1]. Səy edərkən bacardığı qədər çox zikr və dua etməsi, həmçinin böyük və kiçik hədəsdən təmiz olması müstəhəbdir. Əgər təharətsiz halda səy edərsə, səyi səhih sayılar. Eləcə də, əgər qadın tavafdan sonra heyz və ya nifas olarsa və bu halda səy edərsə, səyi səhih sayılar. Çünki səy etmək üçün təharətli olmaq şərt deyil, sadəcə daha öncə qeyd olunduğu kimi müstəhəbdir.

Səyi tamamladıqda saçını qırxır və ya qısaldır. Kişi üçün saçı qırxmaq daha əfzəldir. Əgər saçını qısaldıb, qırxmağı həcc üçün saxlayarsa, bu, gözəl bir əməldir. Əgər Məkkəyə gəlişi həcc vaxtına yaxındırsa, onun üçün saçı qısaltmaq daha əfzəldir ki, saçını qırxmağı həccə saxlasın. Çünki Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, səhabələri ilə birlikdə Zilhiccə ayının dördündə Məkkəyə gəldikdə, hədy qurbanı gətirməyənlərə ehramdan çıxıb saçlarını qısaltmağı əmr etmiş, lakin onlara saçlarını

[1] Hədisin qaynağı əvvəldə qeyd edilmişdir.

qırxmağı buyurmamışdır. Saçı qısaldarkən başın bütün hissələrindən qısaltmaq lazımdır. Saçın bir hissəsini qısaltmaq kifayət etmədiyi kimi, başın bir hissəsini qırxmaq da kifayət deyil. Qadına isə yalnız saçını qısaltmaq buyurulmuşdur və onun üçün buyurulan odur ki, hər saç hörgüsünün ucundan bir barmaq buğumu qədər və ya daha az kəssin. "Ənmulə" – barmağın uc hissəsidir. Qadın bundan artıq kəsməməlidir.

İhramda olan şəxs qeyd olunanları etdikdə ümrəsi tamamlanmış olur və ihram səbəbi ilə ona haram olan hər şey halal olur. Yalnız Haram hüdudlarından kənardan özü ilə qurbanlıq gətirən şəxs istisnadır, o, həm həcc, həm də ümrə ehramından çıxana qədər ehramda qalmalıdır.

Amma ifrad həccinə yaxud həcc ilə ümrəni birlikdə (qiran) etməyə ehrama girən şəxsə gəlincə, onun ehramını ümrəyə dəyişməsi və təməttu həcci edən kimsənin etdiklərini etməsi sünnədir. Lakin bu, özü ilə qurbanlıq gətirən kimsəyə aid deyildir. Çünki peyğəmbər, sallallahu aleyhi va sələm, səhabələrinə bunu əmr etmiş və demişdir:

«لَوْلَا أَنِّي سُقْتُ الهَدْيَ لَأَحْلَلْتُ مَعَكُمْ».

“Əgər mən qurbanlıq gətirməsəydim, sizinlə birlikdə ehramdan çıxardım”[1].

Əgər qadın ömrə üçün ihrama girdikdən sonra heyiz yaxud nifas olarsa, təmizlənənə qədər Kəbəni

---

[1] Hədisi Buxari: (1568) rəvayət etmişdir.

təvaf etmir və Səfa ilə Mərva arasında səy etmir. Təmizləndikdən sonra təvaf və səy edir, saçından qısaldır və bununla da ömrəsi tamamlanmış olur. Əgər Tərviyə günündən əvvəl təmizlənməzsə, qaldığı yerdən həcc üçün ihrama girir və insanlarla birlikdə Minaya gedir. Bununla da o, həcc ilə ömrəni birləşdirərək Qiran həccini etmiş olur. Arafatda durmaq, Məşarda (Müzdəlifədə) durmaq, cəməratlara daş atmaq, Müzdəlifə və Minada gecələmək, qurban kəsmək və saçını qısaltmaq kimi hacıların etdiyi bütün əməlləri edir. Heyzdən təmizləndikdən sonra Kəbəni təvaf edir, Səfa ilə Mərva arasında - (hərəsinda) bir təvaf və bir səy edir. Bu, onun həm həcci, həm də ömrəsi üçün kifayət edir. Çünki Aişədən, Allah ondan razı olsun, rəvayət olunan hədisdə o, ömrə üçün ihrama girdikdən sonra heyz olmuş və peyğəmbər, sallallahu aleyhi va səlləm, ona belə demişdir:

«افْعَلِي مَا يَفْعَلُ الحَاجُّ غَيْرَ أَنْ لَا تَطُوفِي بِالبَيْتِ حَتَّى تَطْهُرِي»

"Hacıların etdiyi əməlləri et, lakin heyzdən təmizlənənədək Kəbəni təvaf etmə"[1]. Hədisi Buxari və Müslim rəvayət etmişdir.

Heyz və ya nifas olan qadın Qurban bayramı günü Cəmarata daş atdıqda və saçından qısaltdıqda, digər təmiz qadınlar kimi həccini tamamlayana qədər əri istisna olmaqla, ihramda olarkən ona haram olan ətir və bu kimi hər bir şey

---

[1] Hədisi Buxari: (305) və Müslim: (1211) rəvayət etmişdir.

halal olur. Təmizləndikdən sonra təvaf və səy etdikdə isə əri ona halal olur.

## Fəsil.

## Zilhiccə ayının səkkizinci günü həcc üçün ihrama girməyin və Minaya getməyin hökmü.

Tərviyə günü, yəni: Zilhiccə ayının səkkizinci günü gəldikdə, Məkkədə ehramda olmayanlar və Məkkə əhlindən həcc etmək istəyənlər üçün yaşadıqları yerdən həcc üçün ehrama girmələri müstəhəbdir. Çünki peyğəmbərin, sallallahu aleyhi va səlləm, səhabələri onun, sallallahu aleyhi va səlləm, əmri ilə Əbtah deyilən yerdə qalıb, Tərviyə günü oradan həcc üçün ehrama girmişdilər. Peyğəmbər, sallallahu aleyhi va səlləm, onlara Kəbəyə gedib onun yanında və ya Mizabın (qızıl novdanın) yanında ehrama girmələrini əmr etməmişdir. Həmçinin Minaya getdikləri zaman onlara vida təvafı etmələrini də əmr etməmişdir. Əgər bu, şəriətdə olsaydı, onlara bunu öyrədərdi. Bütün xeyir peyğəmbərə, sallallahu aleyhi va səlləm, və onun səhabələrinə, Allah onlardan razı olsun, tabe olmaqdadır.

Həcc üçün ehrama girərkən, miqatda ehrama girərkən etdiyi kimi qüsl alması, təmizlənməsi və ətirlənməsi müstəhəbdir. Həcc üçün ihrama girdikdən sonra Tərviyə günü zəvaldan əvvəl və ya sonra Minaya getmələri və Cəməratul-Aqabəni

daşlayana qədər təlbiyəni çoxlu deməələri sünnədir. Minada: zöhr, əsr, məğrib, işa və sübh namazlarını qılırlar. Sünnəyə uyğun olan, hər namazı öz vaxtında, birləşdirmədən (cəm etmədən), qısaldaraq qılmalarıdır. Məğrib və sübh namazları isə qısaldılmır.

Məkkə əhli ilə başqaları arasında heç bir fərq yoxdur. Çünki peyğəmbər, sallallahu aleyhi va səlləm, Minada, Ərəfatda və Müzdəlifədə Məkkə əhli və başqaları ilə birlikdə namazları qəsr edərək qılmış və Məkkə əhlinə tam qılmağı əmr etməmişdir. Əgər bu, onlara vacib olsaydı, bunu onlara bəyan edərdi.

Sonra, Ərafa günü günəş çıxdıqdan sonra hacı Minadan Ərafaya doğru yola düşür. Mümkün olarsa, zəvala qədər Nəmirada gözləməsi sünnədir. Çünki peyğəmbər, sallallahu aleyhi va səlləm, belə etmişdir.

Günəş zenitdən batmağa meyl etdikdə, imamın yaxud da onun təyin etdiyi insanın, bütün bunlarda peyğəmbərə, sallallahu aleyhi va səlləm, tabe olaraq, insanlara vəziyyətə uyğun xütbə oxuması, bu xütbədə hacılara həmin gün və ondan sonrakı günlərdə şəriətin buyurduqlarını bəyan etməsi, onları Allaha qarşı təqvalı olmağa, Onu ibadətdə təkləşdirməyə, bütün əməllərdə ixlaslı olmağa çağırması, Onun haram buyurduqlarından çəkindirməsi və onlara Allahın Kitabından və peyğəmbərinin, sallallahu aleyhi va səlləm,

sünnəsindən yapışmağı, bütün işlərdə onlarla hökm verməyi və onlara müraciət etməyi tövsiyə etməsi sünnədir. Bundan sonra, peyğəmbərin, sallallahu aleyhi va səlləm, etdiyi kimi, zöhr və əsr namazlarını bir azan və iki iqamə ilə zöhrün vaxtında qısaldaraq və cəm edərək qılırlar. Hədisi Müslim, Cabirdən, Allah ondan razı olsun, rəvayət etmişdir.

Sonra insanlar Arafatda dayanır. Urənə vadisi istisna olmaqla, Arafatın hər yeri dayanma yeridir. Mümkün olarsa, üzü qibləyə və Rəhmət dağına tərəf yönəlmək müstəhəbdir. Əgər hər ikisinə tərəf yönəlmək mümkün olmazsa, dağa tərəf olmasa da, qibləyə tərəf yönəlməlidir. Bu dayanma yerində hacının Uca Allahı çoxlu zikr etməsi, Ona dua edib yalvarması müstəhəbdir. Dua edərkən əllərini qaldırmalıdır. Təlbiyyə gətirməsi və ya Qurandan bir şey oxuması da yaxşıdır. Bu zikri çoxlu demək sünnədir: [Lə iləhə illəllahu vahdəhu lə şərikə ləh, ləhul-mulku va ləhul-həmdu, yuhyi va yumit va huvə alə kulli şeyin qadir] - "Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır. O dirildir və öldürür. O hər şeyə qadirdir". Çünki peyğəmbərdən, sallallahu aleyhi va səlləm, rəvayət olunur ki, o belə demişdir:

«خَيْرُ الدُّعَاءِ دُعَاءُ يَوْمِ عَرَفَةَ، وَأَفْضَلُ مَا قُلْتُ أَنَا وَالنَّبِيُّونَ مِنْ قَبْلِي: لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الحَمْدُ، يُحْيِي وَيُمِيتُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ»،

«Duaların ən xeyirlisi Arafa günü edilən duadır, mənim və məndən əvvəlki peyğəmbərlərin dediyi ən fəzilətli söz isə budur: «Lə iləhə illəllahu vahdəhu lə şərikə ləh. Ləhul-mulku va ləhul-həmdu, yuhyi va yumitu va huvə alə kulli şeyin qadir» (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır. O, dirildir və öldürür və O, hər şeyə Qadirdir!)»[1], Peyğəmbər, sallallahu aleyhi va səlləm, Səhih bir hədisdə belə buyurmuşdur:

«أَحَبُّ الكَلَامِ إِلَى اللَّهِ أَرْبَعٌ: سُبْحَانَ اللَّهِ، وَالحَمْدُ لِلَّهِ، وَلَا إِلَهَ إِلَّا اللَّهُ، وَاللَّهُ أَكْبَرُ».

«Allaha ən sevimli olan dörd kəlimə vardır: Subhanallah (Allah nöqsanlardan pakdır), əlhəmdulilləh (həmd yalnız Allaha məxsusdur), lə iləhə illəllah (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur), Allahu əkbər (Allah ən böyükdür)»[2].

Buna görə də bu zikri xuşu və qəlb hüzuru ilə çox etmək və təkrarlamaq lazımdır. Həmçinin, hər zaman, xüsusilə də bu əzəmətli gündə bu məqamda şəriətdə varid olan zikrləri və duaları da çoxaltmaq, zikr və duanın ən əhatəli formalarını seçmək lazımdır. Onlardan bəziləri bunlardır:

"Allah pak və nöqsansızdır və həmd Ona məxsusdur, Əzəmətli Allah pak və nöqsansızdır".

﴿...لَا إِلَهَ إِلَّا أَنتَ سُبْحَانَكَ إِنِّي كُنتُ مِنَ الظَّالِمِينَ 87﴾

---

1 Hədisi Tirmizi: (3585) rəvayət etmişdir.
2 Hədisi Müslim: (2137) rəvayət etmişdir.

"Səndən başqa (ibadətə layiq olan) haqq məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!". (Ənbiya 21 surəsi, ayə 87).

"Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Biz yalnız Ona ibadət edirik. Nemət Onundur, lütf Onundur və gözəl tərif Onadır. Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Kafirlərə xoş gəlməsə də, biz dini yalnız Ona məxsus edirik!".

"Qüdrət və güc yalnız Allahdadır"[1].

* ﴿...رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَفِي الْآخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ 201﴾

"Ey Rəbbimiz! Bizə həm (bu) dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi (Cəhənnəm) odunun əzabından qoru!".

[Bəqərə 2 surəsi, ayə 201].

* اللَّهُمَّ أَصْلِحْ لِي دِينِيَ الَّذِي هُوَ عِصْمَةُ أَمْرِي، وَأَصْلِحْ لِي دُنْيَايَ الَّتِي فِيهَا مَعَاشِي، وَأَصْلِحْ لِي آخِرَتِيَ الَّتِي فِيهَا مَعَادِي، وَاجْعَلِ الحَيَاةَ زِيَادَةً لِي فِي كُلِّ خَيْرٍ، وَالمَوْتَ رَاحَةً لِي مِنْ كُلِّ شَرٍّ.

"Allahım! İşimin isməti olan dinimi mənim üçün islah et! Yaşayışım olan dünyamı mənim üçün yaxşılaşdır. Dönüş yerim olan axirətimi mənim üçün yaxşılaşdır. Həyatı mənim üçün hər bir xeyirdə artım et. Ölümü mənim üçün hər bir şərrdən qurtaran rahatlıq et!"[2].

---

[1] Bu hədisi Müslim İbn Zübeyrdən, Allah ondan razı olsun, (594) nömrəsi ilə rəvayət etmişdir.

[2] Bu hədisi Müslim Əbu Hüreyrədən, Allah ondan razı olsun, (2720) nömrəsi ilə rəvayət etmişdir.

* أَعُوذُ بِاللَّهِ مِنْ جَهْدِ البَلَاءِ، وَدَرَكِ الشَّقَاءِ، وَسُوءِ القَضَاءِ، وَشَمَاتَةِ الأَعْدَاءِ.

[Əuzu billəhi min cəhdil-bələ va dərakiş-şəqa va suil-qada va şəmətətil-əadə]. "Bəlanın məşəqqətindən, bədbəxtliyə düçar olmaqdan, pis qəzadan və düşmənlərin sevinmələrindən Allaha sığınıram"[1].

* اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الهَمِّ وَالحَزَنِ، وَأَعُوذُ بِكَ مِنَ العَجْزِ وَالكَسَلِ، وَأَعُوذُ بِكَ مِنَ الجُبْنِ وَالبُخْلِ، وَمِنَ المَأْثَمِ وَالمَغْرَمِ، وَأَعُوذُ بِكَ مِنْ غَلَبَةِ الدَّيْنِ وَقَهْرِ الرِّجَالِ.

"Allahım! Qəm və kədərdən, acizlik və tənbəllikdən, qorxaqlıq və xəsislikdən, günaha batmaqdan və borclanmaqdan, borcun üstün gəlməsindən və insanların zülmündən Sənə sığınıram"[2].

* اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ البَرَصِ وَالجُنُونِ وَالجُذَامِ وَمِنْ سَيِّئِ الأَسْقَامِ.

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ البَرَصِ وَالجُنُونِ وَالجُذَامِ وَمِنْ سَيِّئِ الأَسْقَامِ»

[Allahummə inni əuzu bikə minəl-barasi val-cununi val-cuzəmi va min seyyiil-əsqam] "Allahım! Baras xəstəliyindən, dəlilikdən, cüzamdan və pis xəstəliklərdən Sənə sığınıram"[3].

"Allahım! Dünyada və axirətdə Səndən əfv və salamatlıq diləyirəm".

---

[1] Bu hədisi Buxari Əbu Hüreyrədən, Allah ondan razı olsun, (6347) nömrəsi ilə rəvayət etmişdir.

[2] Hədisi Əbu Davud: (1554) Əbu Umamə əl-Ənsaridən bu ləfzlə, (ومن المأثم والمغرم) "Günaha batmaqdan və borclanmaqdan" sözü olmadan rəvayət etmişdir.

[3] Bu hədisi Əbu Davud Ənəsdən, Allah ondan razı olsun, (1554) nömrəsi ilə rəvayət etmişdir.

"Allahım! Dinim, dünyam, ailəm və malım üçün Səndən əfv və salamatlıq diləyirəm".

* اللَّهُمَّ اسْتُرْ عَوْرَتِي وَآمِنْ رَوْعَاتِي، اللَّهُمَّ احْفَظْنِي مِنْ بَيْنِ يَدَيَّ وَمِنْ خَلْفِي، وَعَنْ يَمِينِي وَعَنْ شِمَالِي، وَمِنْ فَوْقِي، وَأَعُوذُ بِعَظَمَتِكَ أَنْ أُغْتَالَ مِنْ تَحْتِي.

"Allahım! Eyiblərimi ört və qorxularımdan məni əmin-amanlıqda et! Allahım! Məni önümdən, arxamdan, sağımdan, solumdan və başımın üstündən qoru. Ayağımın altının qazılmasından (xaincəsinə öldürülməkdən) Sənin əzəmətinə sığınıram"[1].

* اللَّهُمَّ اغْفِرْ لِي جِدِّي وَهَزْلِي، وَخَطَئِي وَعَمْدِي، وَكُلَّ ذَلِكَ عِنْدِي، اللَّهُمَّ اغْفِرْ لِي مَا قَدَّمْتُ وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ وَمَا أَعْلَنْتُ، وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي، أَنْتَ الْمُقَدِّمُ وَأَنْتَ الْمُؤَخِّرُ، وَأَنْتَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ.

[Allahummə-ğfir li ciddi va həzli, va xatai va əmdi, va kullə zəlikə indi. Allahummə-ğfir li mə qaddəmtu va mə əxxartu, va mə əsrartu va mə əaləntu, va mə əntə ələmu bihi minni, əntəl-muqaddimu va əntəl-muaxxiru, va əntə alə kulli şeyin qadir]. "Allahım! Ciddi və zarafatla, səhvən və bilərəkdən etdiyim (günahlarımı) bağışla! Bunların hamısı məndə vardır. Allahım! Etdiyim, sonra edəcəyim, gizlin saxladığım, üzə çıxardığım və məndən daha yaxşı bildiyin (günahlarımı) bağışla! Əvvələ çəkən də Sənsən, təxirə salan da Sənsən və Sən hər şeyə qadirsən"[2].

---

[1] Bu hədisi Əbu Davud İbn Ömərdən, Allah ondan razı olsun, (5074) nömrəsi ilə rəvayət etmişdir.

[2] Bu, Müslimin Əbu Musa əl-Əşəridən, Allah ondan razı olsun, (2719) nömrəsi ilə rəvayət etdiyi hədisin bir hissəsidir.

* اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الثَّبَاتَ فِي الأَمْرِ وَالعَزِيمَةَ عَلَى الرُّشْدِ، وَأَسْأَلُكَ شُكْرَ نِعْمَتِكَ وَحُسْنَ عِبَادَتِكَ، وَأَسْأَلُكَ قَلْبًا سَلِيمًا وَلِسَانًا صَادِقًا، وَأَسْأَلُكَ مِنْ خَيْرِ مَا تَعْلَمُ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا تَعْلَمُ، وَأَسْتَغْفِرُكَ لِمَا تَعْلَمُ، إِنَّكَ عَلَّامُ الغُيُوبِ.

"Allahım! Səndən dində səbatlı (sabitqədəm) olmağı və doğru yolda əzmkar olmağı diləyirəm. Səndən nemətinə şükür etməyi və Sənə gözəl ibadət etməyi diləyirəm. Səndən sağlam bir qəlb və doğru danışan bir dil diləyirəm. Səndən bildiyin xeyri diləyirəm, bildiyin şərdən Sənə sığınıram və bildiklərinə görə Səndən bağışlanma diləyirəm. Həqiqətən, Sən qeybləri bilənsən"[1].

* اللَّهُمَّ رَبَّ النَّبِيِّ مُحَمَّدٍ عَلَيْهِ الصَّلَاةُ وَالسَّلَامُ، اغْفِرْ لِي ذَنْبِي، وَأَذْهِبْ غَيْظَ قَلْبِي وَأَجِرْنِي مِنْ مُضِلَّاتِ الفِتَنِ مَا أَحْيَيْتَنَا.

"Allahım, ey peyğəmbər Muhəmmədin, ona Allahın salavatı və salamı olsun, Rəbbi! Günahımı bağışla, qəlbimin qəzəbini apar və bizi yaşatdığın müddətcə məni azdırıcı fitnələrdən qoru!"[2].

* اللَّهُمَّ رَبَّ السَّمَاوَاتِ وَرَبَّ الأَرْضِ وَرَبَّ العَرْشِ العَظِيمِ، رَبَّنَا وَرَبَّ كُلِّ شَيْءٍ، فَالِقَ الحَبِّ وَالنَّوَى، وَمُنْزِلَ التَّوْرَاةِ وَالإِنْجِيلِ وَالفُرْقَانِ، أَعُوذُ بِكَ مِنْ شَرِّ كُلِّ شَيْءٍ أَنْتَ آخِذٌ بِنَاصِيَتِهِ، اللَّهُمَّ أَنْتَ الأَوَّلُ فَلَيْسَ قَبْلَكَ شَيْءٌ، وَأَنْتَ الآخِرُ فَلَيْسَ بَعْدَكَ شَيْءٌ، وَأَنْتَ الظَّاهِرُ فَلَيْسَ فَوْقَكَ شَيْءٌ، وَأَنْتَ البَاطِنُ فَلَيْسَ دُونَكَ شَيْءٌ، اقْضِ عَنَّا الدَّيْنَ وَأَغْنِنَا مِنَ الفَقْرِ.

"Allahım! Ey göylərin Rəbbi, yerin Rəbbi və əzəmətli Ərşin Rəbbi! Rəbbimiz və hər şeyin Rəbbi! Toxumu və çəyirdəyi yaran, Tövratı, İncili və

---

[1] Bu hədisi Tirmizi Şəddəd ibn Əvsdən, Allah ondan razı olsun, (3407) nömrəsi ilə rəvayət etmişdir.

[2] Bu hədisi Əhməd Ümmü Sələmədən, Allah ondan razı olsun, rəvayət etmişdir (cild: 6, səh. 301).

Furqanı (Quranı) nazil edən! Kəkilindən tutduğun hər bir şeyin şərrindən Sənə sığınıram. Allahım! Sən Əvvəlsən, Səndən əvvəl heç bir şey yoxdur. Və Sən Axırsan, Səndən sonra heç bir şey yoxdur. Və Sən Zahirsən, Səndən uca heç bir şey yoxdur. Və Sən Batinsən, Səndən daha gizlin heç bir şey yoxdur. Bizim borcumuzu ödə və bizi yoxsulluqdan xilas et"[1].

* اللَّهُمَّ أَعْطِ نَفْسِي تَقْوَاهَا، وَزَكِّهَا أَنْتَ خَيْرُ مَنْ زَكَّاهَا، أَنْتَ وَلِيُّهَا وَمَوْلَاهَا، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ العَجْزِ وَالكَسَلِ، وَأَعُوذُ بِكَ مِنَ الجُبْنِ وَالهَرَمِ وَالبُخْلِ، وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ القَبْرِ.

"اللَّهُمَّ أَعْطِ نَفْسِي تَقْوَاهَا، وَزَكِّهَا أَنْتَ خَيْرُ مَنْ زَكَّاهَا، أَنْتَ وَلِيُّهَا وَمَوْلَاهَا، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ العَجْزِ وَالكَسَلِ، وَأَعُوذُ بِكَ مِنَ الجُبْنِ وَالهَرَمِ وَالبُخْلِ، وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ القَبْرِ".

[Allahummə əati nəfsi taqvahə, va zəkkihə əntə xayru mən zəkkəhə, əntə valiyuhə va mövləhə. Allahummə inniy əuzu bikə minəl-aczi val-kəsəli, va əuzu bikə minəl-cubni val-harami val-buxli, va əuzu bikə min azəbil-qabri].

"Allahım! Nəfsimə təqvasını bəxş et və onu təmizlə. Sən onu təmizləyənlərin ən xeyirlisisən. Sən onun Himayədarı və Sahibisən. Allahım! Acizlik və tənbəllikdən, qorxaqlıq, qocalıq və xəsislikdən və qəbir əzabından Sənə sığınıram"[2].

---

[1] Bu hədisi Müslim Əbu Hüreyrədən, Allah ondan razı olsun, (2713) nömrəsi ilə rəvayət etmişdir.

[2] Bu hədisi Müslim Zeyd ibn Ərqəmdən, Allah ondan razı olsun, (2722) nömrəsi ilə rəvayət etmişdir.

* اللَّهُمَّ لَكَ أَسْلَمْتُ، وَبِكَ آمَنْتُ، وَعَلَيْكَ تَوَكَّلْتُ، وَإِلَيْكَ أَنَبْتُ، وَبِكَ خَاصَمْتُ، أَعُوذُ بِعِزَّتِكَ أَنْ تُضِلَّنِي، لَا إِلَهَ إِلَّا أَنْتَ، أَنْتَ الحَيُّ الَّذِي لَا يَمُوتُ، وَالجِنُّ وَالإِنْسُ يَمُوتُونَ.

"Allahım! Sənə təslim oldum. Sənə iman etdim. Sənə təvəkkül etdim. Sənə tövbə edib, Sənə döndüm. Sənin uğrunda mübarizə apardım. Məni azdırmağından Sənin izzətinə sığınıram, Səndən başqa haqq ilah (məbud) yoxdur. Sən, ölməyən dirisən! Cinlər və insanlar isə ölürlər"[1].

* اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ عِلْمٍ لَا يَنْفَعُ، وَمِنْ قَلْبٍ لَا يَخْشَعُ، وَمِنْ نَفْسٍ لَا تَشْبَعُ، وَمِنْ دَعْوَةٍ لَا يُسْتَجَابُ لَهَا.

[Allahummə inniy əuzu bikə min ilmin lə yənfa, va min qalbin lə yaxşa, va min nəfsin lə təşba, va min dəavatin lə yustəjəbu ləhə]. "Allahım! Fayda verməyən elmdən, qorxmayan qəlbdən, doymayan nəfsdən və qəbul olunmayan duadan Sənə sığınıram"[2].

* اللَّهُمَّ جَنِّبْنِي مُنْكَرَاتِ الأَخْلَاقِ وَالأَعْمَالِ وَالأَهْوَاءِ وَالأَدْوَاءِ.

[Allahummə cənnibni munkərat əl-əxlaq, val-əamal, val-əhva, val-ədva].
"Allahım! Məni pis əxlaqlardan, əməllərdən, havalardan (nəfsin istəklərindən) və xəstəliklərdən uzaq et"[3].

---

1 Bu hədisi Müslim İbn Abbasdan, Allah ondan razı olsun, (2717) nömrəsi ilə rəvayət etmişdir.

2 Bu, Zeyd bin Ərqamdan, Allah ondan razı olsun, daha öncə (2722) nömrəsi ilə təxric edilmiş hədisinin bir hissəsidir.

3 Bu hədisi Tirmizi Ziyad bin Aləqadan, o da əmisindən (3591) nömrəsi ilə rəvayət etmişdir.

* اللَّهُمَّ أَلْهِمْنِي رُشْدِي، وَأَعِذْنِي مِنْ شَرِّ نَفْسِي.

(اللَّهُمَّ أَلْهِمْنِي رُشْدِي، وَأَعِذْنِي مِنْ شَرِّ نَفْسِي)

[Allahummə əlhimni ruşdi, va əizni min şərri nəfsi]

"Allahım! Mənə doğru yolu göstər və məni nəfsimin şərindən qoru!"[1].

* اللَّهُمَّ اكْفِنِي بِحَلَالِكَ عَنْ حَرَامِكَ، وَأَغْنِنِي بِفَضْلِكَ عَمَّنْ سِوَاكَ.

[Allahummə-kfiniy bi-həlalikə an həramikə va əğniniy bi-fadlikə ammən si-vakə] -

"Allahım! Məni Öz halalınla kifayət-ləndirib haramına möhtac etmə! Məni Öz lüt-fünlə Özündən başqasına möhtac etmə!"[2].

* اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الهُدَى وَالتُّقَى وَالعَفَافَ وَالغِنَى.

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الهُدَى وَالتُّقَى وَالعَفَافَ وَالغِنَى»

[Allahummə inni əsəlukəl-hudə vat-tuqa, val-afafə, val-ğinə] -

"Allahım! Səndən hidayət, təqva, iffəti və zənginliyi diləyirəm"[3].

* اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الهُدَى وَالسَّدَادَ.

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الهُدَى وَالسَّدَادَ»

---

[1] Bu hədisi Tirmizi İmran bin Huseyndən, Allah ondan razı olsun, (3483) nömrəsi ilə rəvayət etmişdir.

[2] Bu hədisi Tirmizi Əlidən, Allah ondan razı olsun, (3563) nömrəsi ilə rəvayət etmişdir.

[3] Bu hədisi Müslim Abdullah bin Məsuddan, Allah ondan razı olsun, (2721) nömrəsi ilə rəvayət etmişdir.

[Allahummə inni əsəlukəl-hudə vas-sədadə] "Allahım! Səndən hidayəti və düzgünlüyü diləyirəm"[1].

* اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنَ الخَيْرِ كُلِّهِ، عَاجِلِهِ وَآجِلِهِ، مَا عَلِمْتُ مِنْهُ وَمَا لَمْ أَعْلَمْ، وَأَعُوذُ بِكَ مِنَ الشَّرِّ كُلِّهِ، عَاجِلِهِ وَآجِلِهِ، مَا عَلِمْتُ مِنْهُ وَمَا لَمْ أَعْلَمْ، وَأَسْأَلُكَ مِنْ خَيْرِ مَا سَأَلَكَ مِنْهُ عَبْدُكَ وَنَبِيُّكَ مُحَمَّدٌ ﷺ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا اسْتَعَاذَ مِنْهُ عَبْدُكَ وَنَبِيُّكَ مُحَمَّدٌ ﷺ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الجَنَّةَ وَمَا قَرَّبَ إِلَيْهَا مِنْ قَوْلٍ أَوْ عَمَلٍ، وَأَعُوذُ بِكَ مِنَ النَّارِ وَمَا قَرَّبَ إِلَيْهَا مِنْ قَوْلٍ أَوْ عَمَلٍ، وَأَسْأَلُكَ أَنْ تَجْعَلَ كُلَّ قَضَاءٍ قَضَيْتَهُ لِي خَيْرًا.

"Allahım! Xeyirin hamısını – həm bu dünyadakını, həm də axirətdəkini – bildiklərimi və bilmədiklərimi Səndən diləyirəm. Şərrin də hamısından – həm bu dünyadakından, həm də axirətdəkindən – bildiklərimdən və bilmədiklərimdən Sənə sığınıram. Səndən qulun və peyğəmbərin olan Muhamməddin, sallallahu aleyhi va səlləm, istədiyi xeyiri diləyirəm və qulun və peyğəmbərin olan Muhamməddin, sallallahu aleyhi va səlləm, sığındığı şeyin şərrindən Sənə sığınıram. Allahım! Mən Səndən Cənnəti və ona yaxınlaşdıran hər bir sözü və əməli diləyir, Cəhənnəmdən və ona yaxınlaşdıran hər bir sözdən və əməldən Sənə sığınıram və mənim üçün təqdir etdiyin hər bir qədəri xeyir etməni Səndən istəyirəm"[2].

---

[1] Bu hədisi Müslim Əlidən, Allah ondan razı olsun, (2725) nömrəsi ilə rəvayət etmişdir.

[2] Bu hədisi İbn Macə Aişədən, Allah ondan razı olsun, (3846) nömrəsi ilə rəvayət etmişdir.

* لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ المُلْكُ وَلَهُ الحَمْدُ، يُحْيِي وَيُمِيتُ بِيَدِهِ الخَيْرُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، سُبْحَانَ اللَّهِ، وَالحَمْدُ لِلَّهِ، وَلَا إِلَهَ إِلَّا اللَّهُ، وَاللَّهُ أَكْبَرُ، وَلَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ العَلِيِّ العَظِيمِ.

[Lə iləhə illəllahu vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu, yuhyi və yumitu biyədihil-xayru va huvə alə kulli şeyin qadir. Subhanəllahi, val-həmdulilləhi, va lə iləhə illəllahu, vallahu əkbər, va lə həulə va lə quvvətə illə billəhil-aliyyil-azim] - "Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır. O, dirildir və öldürür, xeyir Onun əlindədir və O hər şeyə Qadirdir! Allah pak və müqəddəsdir, həmd Allaha məxsusdur, Allahdan başqa haqq məbud yoxdur və Allah ən Böyükdür. Qüdrət və güc yalnız Uca və Əzəmətli Allahdadır!"[1].

* اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ، وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا صَلَّيْتَ عَلَى إِبْرَاهِيمَ، وَعَلَى آلِ إِبْرَاهِيمَ، إِنَّكَ حَمِيدٌ مَجِيدٌ، وَبَارِكْ عَلَى مُحَمَّدٍ، وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا بَارَكْتَ عَلَى إِبْرَاهِيمَ، وَعَلَى آلِ إِبْرَاهِيمَ، إِنَّكَ حَمِيدٌ مَجِيدٌ.

[Allahummə salli alə Muhəmmədin va alə əli Muhəmməd, kəmə salleytə alə İbrahimə va alə əli İbrahimə, innəkə həmidun məcid. Va bərik alə Muhəmmədin va alə əli Muhəmməd, kəmə bəraktə alə İbrahimə va alə əli İbrahimə, innəkə həmidun məcid] = "Allahım! İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Şübhəsiz

---

[1] Bu hədisi Buxari Ubadə bin Samitdən, Allah ondan razı olsun, (1154) nömrəsi ilə rəvayət etmişdir.

ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım! İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!"[1].

* ﴿...رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَفِي الْآخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ 201﴾

"Ey Rəbbimiz! Bizə həm (bu) dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi (Cəhənnəm) odunun əzabından qoru!".

[Bəqərə 2 surəsi, ayə 201].

Bu əzəmətli yerdə həcc edən kimsənin əvvəlki zikrləri və duaları, habelə bu mənada olan digər zikr, dua və peyğəmbərə, sallallahu aleyhi və səlləm, salavatları təkrar etməsi müstəhəbdir. O, dualarında israrlı olmalı və Rəbbindən dünya və axirət xeyirlərini istəməlidir. Peyğəmbər, sallallahu aleyhi və səlləm, dua etdikdə, duasını üç dəfə təkrar edərdi. Buna görə də bu işdə ondan nümunə götürmək lazımdır.

Müsəlman bu məqamda pak və müqəddəs olan Rəbbinə boyun əyərək Ona qarşı təvazökar, itaətkar və Onun hüzurunda aciz bir vəziyyətdə olur. Onun rəhmətini və məğfirətini umar, əzabından və qəzəbindən qorxar. Özünü hesaba çəkər və səmimi tövbəsini təzələyər. Çünki bu, əzəmətli bir gün və böyük bir toplanışdır. Allah bu

1 Bu hədisi Buxari Kəab bin Ucradan, Allah ondan razı olsun, (3370) nömrəsi ilə rəvayət etmişdir.

gündə qullarına qarşı səxavətli olar, onlarla mələklərinin yanında öyünər və Cəhənnəm odundan azad etməni çoxaldar. Bədr günü istisna olmaqla, şeytanın Arafa günündə olduğu qədər məğlub, kiçik və həqir göründüyü başqa bir gün yoxdur. Bu da onun, Allahın Öz qullarına qarşı səxavətini, ehsanını, onları Cəhənnəmdən çoxlu azad etməsini və bağışlamasını görməsi səbəbindəndir.

Müslimin "Səhih" əsərində, Aişədən, Allah ondan razı olsun, rəvayət olunan hədisdə peyğəmbər, sallallahu aleyhi va sələm, belə buyurmuşdur:

«مَا مِنْ يَوْمٍ أَكْثَرَ مِنْ أَنْ يُعْتِقَ اللَّهُ فِيهِ عَبْدًا مِنَ النَّارِ مِنْ يَوْمِ عَرَفَةَ، وَإِنَّهُ لَيَدْنُو ثُمَّ يُبَاهِي بِهِمُ الْمَلَائِكَةَ، فَيَقُولُ: مَا أَرَادَ هَؤُلَاءِ؟».

«Elə bir gün yoxdur ki, Allah həmin gün Arafa günündəkindən daha çox qulunu Cəhənnəm odundan azad etsin. Həqiqətən, O, (həmin gün qullarına) yaxınlaşar, sonra da mələklərin qarşısında onlarla fəxr edərək buyurar: "Bunlar nə istəyirlər?"»[1].

Odur ki, müsəlmanlar yaxşı əməllər etməli, düşmənləri olan şeytanı isə çoxlu zikr və dua etməklə, bütün günah və xətalara görə daima tövbə edib bağışlanma diləməklə - zəlil etməli və kədərləndirməlidirlər. Hacılar günəş batana qədər bu yerdə zikr, dua və Allaha yalvarmaqla məşğul

[1] Bu hədisi Müslim Aişədən, Allah ondan razı olsun, (1348) nömrəsi ilə rəvayət etmişdir.

olarlar. Günəş batdıqda isə aramla və vüqarla Müzdəlifəyə doğru yola düşər, peyğəmbərin, sallallahu aleyhi və səlləm, etdiyi kimi bol-bol təlbiyyə gətirər və geniş yerlərdə tələsərlər. Günəş batmazdan öncə (Arafatdan) ayrılmaq caiz deyildir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, günəş batana qədər orada qalmış və demişdir:

«خُذُوا عَنِّي مَنَاسِكَكُمْ».

«Mənasiklərinizi (həcc əməllərini) məndən götürün»[1].

Müzdəlifəyə çatdıqda, istər məğrib vaxtında, istərsə də işa vaxtı daxil olduqdan sonra çatsınlar, peyğəmbərin, sallallahu aleyhi və səlləm, etdiyi kimi məğrib namazını üç rükət, işa namazını isə iki rükət olmaqla cəm edərək, bir azan və iki iqamə ilə qılarlar.

Bəzi avam insanların namazdan öncə Müzdəlifəyə çatan kimi cəmərat daşlarını toplamaları və onların çoxunun bunun şəriətə uyğun bir əməl olduğunu düşünməsi heç bir əsası olmayan bir xəta əməldir. Peyğəmbər, sallallahu aleyhi va səlləm, daşların yalnız Müzdəlifədən Minaya getdikdən sonra yığılmasını əmr etmişdir. Daşları hansı yerdən toplasa, bu, kifayət edər və onların məhz Müzdəlifədən toplanması şərt deyildir. Əksinə, onları Minadan toplamaq da caizdir. Sünnəyə görə, peyğəmbərə, sallallahu

[1] Hədisin qaynağı daha əvvəl qeyd edilmişdir.

aleyhi va səlləm, iqtida edərək, bu gün Cəməratul-Aqabəni daşlamaq üçün yeddi daş toplanır. Növbəti üç günə gəlincə isə, hacı hər gün üç cəməratı daşlamaq üçün Minadan iyirmi bir daş toplayır.

Daşları yumaq müstəhəb deyil, əksinə, onlar yumadan atır. Çünki bu, peyğəmbərdən, sallallahu aleyhi və səlləm, və onun səhabələrindən nəql olunmamışdır. Həmçinin, atılmış daşlarla da atılmaz.

Hacı bu gecəni Müzdəlifədə gecələyir. Qadınlardan, uşaqlardan və bu kimi zəif olan şəxslərə isə gecənin sonunda Minaya yollanmaq icazəlidir. Çünki bu, Aişə, Ümmü Sələmə və başqalarından rəvayət olunan hədisə əsaslanır. Digər hacılara gəldikdə isə, onların fəcr namazını qılana qədər orada qalmaları, sonra Məşarül-Haramda (yəni: müzdəlifada) durub üzlərini qibləyə çevirərək, hava tam işıqlanana qədər Allahı çoxlu zikr etmələri, təkbir gətirmələri və dua etmələri lazımdır. Burada dua zamanı əlləri qaldırmaq müstəhəbdir. Müzdəlifənin harasında dayansalar, bu onlara kifayət edər və onlara Məşara yaxınlaşmaq yaxud ora çıxmaq vacib deyil. Çünki peyğəmbər, sallallahu aleyhi va səlləm, belə demişdir:

«وَقَفْتُ هَاهُنَا - يَعْنِي عَلَى المَشْعَرِ الحَرَامِ - وَجَمْعٌ كُلُّهَا مَوْقِفٌ»

«Mən burada (yəni: Məşarül-Haramda) dayandım, lakin Müzdəlifənin hər bir yeri dayanmaq üçün

icazəlidir»[1]. Hədisi Müslim öz "Səhih" əsərində rəvayət etmişdir. "Cəm" isə Müzdəlifədir.

Hava tam aydınlaşanda, günəş çıxmadan əvvəl Minaya doğru yola çıxıb yolboyu təlbiyəni çoxlu deyərlər, Muhəssrə çatdıqda isə bir qədər tələsmək müstəhəbdir.

Minaya çatdıqda Cəməratul-Aqabənin yanında təlbiyəni dayandırır və çatan kimi ora ard-arda olmaqla yeddi ədəd daş atırlar. Hər daşı atarkən əlini qaldırır və təkbir gətirir. Daşları vadinin içindən atmaq, Kəbəni sol, Minanı isə sağ tərəfində saxlamaq müstəhəbdir. Çünki peyğəmbər, sallallahu aleyhi va səlləm, belə etmişdir. Əgər daşları başqa tərəflərdən atarsa və daşlar hədəfə (daş atılan yerə) düşərsə, bu da kifayət edər. Daşın hədəfdə qalması şərt deyil, şərt olan onun ora düşməsidir. Elm əhlinin zahiri görüşünə görə, əgər daş hədəfə düşüb sonra oradan çıxarsa, bu kifayət edər. Bunu açıq şəkildə bildirənlərdən biri də İmam Nəvəvidir - Allah ona rəhmət etsin - "Şərhul-Muhəzzəb" əsərində. Cəmarat daşları xəzf daşları kimi, yəni: noxuddan bir az böyük olmalıdır.

Daş atdıqdan sonra qurbanını kəsər. Qurbanı kəsərkən onu üzü qibləyə çevirmək və: "Bismilləhi vallahu əkbər, Allahummə həzə minkə və ləkə" (Allahın adı ilə, Allah ən böyükdür. Ey Allahım, bu

---

1 Bu hədisi Müslim Cabirdən, Allah ondan razı olsun, (1218) nömrəsi ilə rəvayət etmişdir.

Səndəndir və Sənin üçündür) - demək müstəhəbdir. Dəvəni sol əli bağlı vəziyyətdə, ayaq üstə, inək və qoyunu isə sol böyrü üstə uzadaraq kəsmək sünnədir. Əgər üzü qiblədən başqa tərəfə kəssə, sünnəni tərk etmiş olar, lakin kəsdiyi qurban keçərlidir. Çünki qurban kəsərkən üzü qibləyə çevirmək vacib deyil, sünnədir. Qurban ətindən yemək, hədiyyə etmək və sədəqə vermək müstəhəbdir. Çünki Uca Allah buyurur:

﴿...فَكُلُوا مِنْهَا وَأَطْعِمُوا الْبَائِسَ الْفَقِيرَ﴾

"Onlardan özünüz də yeyin, çarəsiz qalmış fəqirə də yedirdin!". (Həcc 22 surəsi, ayə 28). Elm əhlinin ən səhih rəyinə görə, qurban kəsməyin vaxtı təşriq günlərinin üçüncü günü günəş batana qədər davam edir. Beləliklə, qurban kəsmə müddəti Qurban bayramı günü və ondan sonrakı üç gündür.

Hədy qurbanını kəsdikdən sonra saçını qırxır və ya qısaldır. Saçı qırxmaq daha əfzəldir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, saçını qırxanlar üçün (üç dəfə), saçını qısaldanlar üçün isə bir dəfə rəhmət və məğfirət diləmişdir. Başın yalnız bir hissəsini qısaltmaq kifayət etməz, əksinə, qısaltma da eynilə saçı qırxmaq kimi bütün başı əhatə etməlidir. Qadın isə hər hörüyündən bir barmaq buğumu qədər və ya daha az qısaldır.

Böyük camarata daş atdıqdan, başını qırxdıqdan və ya qısaltdıqdan sonra ihramlı olan kimsəyə qadınlardan başqa hər şey halal olur ki, buna

"birinci təhəllül" deyilir. Bu təhəllüldən sonra ətirlənib, ifada təvafını etmək üçün Məkkəyə yönəlməsi sünnədir. Çünki Aişə, Allah ondan razı olsun, belə demişdir:

«كُنْتُ أُطَيِّبُ رَسُولَ اللَّهِ ﷺ لِإِحْرَامِهِ قَبْلَ أَنْ يُحْرِمَ، وَلِحِلِّهِ قَبْلَ أَنْ يَطُوفَ بِالبَيْتِ»

«Mən Allah rəsulunu, sallallahu aleyhi və səlləm, ehrama girməzdən əvvəl ehramı üçün və Beyti təvaf etməzdən əvvəl ehramdan çıxması üçün ətirləyərdim»[1]. Hədisi Buxari və Müslim rəvayət etmişdir.

Bu təvaf, İfada təvafı və Ziyarət təvafı adlanır. Bu, həccin rükunlarından biridir və onsuz həcc tamam olmaz. Uca Allahın bu sözündə də məhz bu təvaf qəsd edilir:

﴿ثُمَّ لْيَقْضُوا تَفَثَهُمْ وَلْيُوفُوا نُذُورَهُمْ وَلْيَطَّوَّفُوا بِالْبَيْتِ الْعَتِيقِ 29﴾

"Sonra kirlərini təmizləyərək (dırnaq kəsmək, saçını qırxmaq yaxud qısaltmaq və s.) həcc ayinlərini tamamlasınlar, nəzirlərini yerinə yetirsinlər və qədim Evi (Kəbəni) təvaf etsinlər". (Həcc 22 surəsi, ayə 29).

Təvafı və (İbrahim) məqamının arxasında iki rükət namazı tamamladıqdan sonra, əgər Təmmətü həcci edirsə, Səfa və Mərva arasında səy edir. Bu səy onun həcc səyi, birinci səy isə ümrə səyi sayılır.

Alimlərin ən səhih rəyinə görə bir səy kifayət deyil. Aişə, Allah ondan razı olsun, demişdir: “Biz

---

[1] Hədisi Buxari: (1539) və Müslim: (1189) rəvayət etmişdir.

rəsulullah, sallallahu aleyhi və salləm, ilə birlikdə çıxdıq..." deyə hədisi nəql etmişdir. Hədisin davamında peyğəmbər, sallallahu aleyhi və salləm, belə buyurmuşdur:

«وَمَنْ كَانَ مَعَهُ هَدْيٌ فَلْيُهِلَّ بِالحَجِّ مَعَ العُمْرَةِ ثُمَّ لَا يَحِلُّ حَتَّى يَحِلَّ مِنْهُمَا جَمِيعًا»...

«Özü ilə qurban gətirən şəxs həccə və ümrəyə birlikdə niyyət etsin və hər ikisini tamamlamayınca ehramdan çıxmasın». ... nəhayət dedi ki:

«فَطَافَ الَّذِينَ أَهَلُّوا بِالعُمْرَةِ بِالبَيْتِ وَبِالصَّفَا وَالمَرْوَةِ ثُمَّ حَلُّوا ثُمَّ طَافُوا طَوَافًا آخَرَ بَعْدَ أَنْ رَجَعُوا مِنْ مِنًى لِحَجِّهِمْ»

«Ömrə üçün ehrama girənlər Kəbə evini təvaf edib Səfa və Mərvə arasında səy etdilər, sonra ehramdan çıxdılar. Minadan qayıtdıqdan sonra isə həccləri üçün bir daha təvaf etdilər»[1]. Hədisi Buxari və Müslim rəvayət etmişdir.

Aişənin, Allah ondan razı olsun, ömrə üçün ehrama girənlər haqqında dediyi: "Sonra həccləri üçün Minadan qayıtdıqdan sonra başqa bir təvaf etdilər" sözü ilə, bu hədisin təfsirindəki ən səhih rəyə görə, Səfa və Mərvə arasındakı səy nəzərdə tutulur. Bununla ifada təvafını qəsd etdiyini deyənlərin rəyinə gəlincə, bu, səhih deyildir. Çünki ifada təvafı hamı üçün rükundur və onlar bunu artıq yerinə yetirmişdilər. Burada qəsd olunan sadəcə təməttü həcci edənə xas olan bir şeydir ki, bu da həccini tamamlamaq üçün Minadan

[1] Hədisi Buxari: (1556) və Müslim: (1211) rəvayət etmişdir.

qayıtdıqdan sonra Səfa və Mərvə arasında ikinci dəfə edilən səydir. Bu, Allaha həmd olsun ki, aydındır və elm əhlinin əksəriyyətinin rəyidir.

Bunun doğruluğuna həmçinin İmam Buxarinin Səhih əsərində "mualləq" (yəni: sənədsiz) lakin qəti ifadə ilə (cəzm üslubunda) İbn Abbasdan, Allah onların hər ikisindən razı olsun, rəvayət etdiyi hədis də dəlalət edir. Belə ki, ondan həcc mütəsi barədə soruşulduqda belə demişdir: Vida həccində mühacirlər, ənsar və peyğəmbərin, sallallahu aleyhi va səlləm, zövcələri ehrama girdilər, biz də ehrama girdik. Məkkəyə çatdıqda Allah rəsulu, sallallahu aleyhi va səlləm, dedi: “Qurbanlıq heyvan gətirənlər istisna olmaqla, həcc üçün etdiyiniz niyyəti ümrəyə çevirin”. Beləliklə, biz Kəbəni təvaf etdik, Səfa və Mərvə arasında səy etdik, zövcələrimizlə yaxınlıq etdik və (adi) paltarlarımızı geyindik. Peyğəmbər, sallallahu aleyhi va səlləm, dedi: “Kim qurbanlıq heyvan gətiribsə, qurbanlığı kəsiləcəyi yerə çatmayınca ehramdan çıxmaz”. Sonra tərviyə gününün axşamı bizə həcc üçün ehrama girməyi əmr etdi. Həcc ayinlərini bitirdikdən sonra gəlib Kəbəni təvaf etdik, Səfa və Mərvə arasında səy etdik"[1]. Bununla məqsəd tamamlanmış olur və bu mətn təməttü həcci edən şəxsin iki dəfə səy etməsinə açıq-aydın dəlalət edir. Ən doğrusunu Allah bilir.

---

[1] Hədisi Buxari: (1572) rəvayət etmişdir.

Muslimin Cabirdən, Allah ondan razı olsun, rəvayətinə gəlincə: «Peyğəmbər, sallallahu aleyhi və səlləm, və səhabələri Səfa və Mərva arasında yalnız bir səy etdilər»[1]. Onların etdiyi ilk təvafa gəlincə, bu, səhabələrdən hədi gətirənlərə aiddir. Çünki onlar peyğəmbər, sallallahu aleyhi va səlləm, ilə birlikdə həm həcc, həm də ümrə ehramından çıxana qədər ehramda qalmışdılar. Peyğəmbər, sallallahu aleyhi və səlləm, həcc və ümrəyə niyyət etmiş və hədi gətirənlərə ümrə ilə birlikdə həccə niyyət etmələrini və hər ikisindən birlikdə çıxmayınca ehramdan çıxmamağı əmr etmişdir. Həcc ilə ümrəni birləşdirən şəxsə yalnız bir səy vacibdir, necə ki, buna Cabirin zikr olunan hədisi və digər səhih hədislər də dəlalət edir.

Eynilə, ifrad həcci edən və bayram gününə qədər ehramda qalan kimsə üçün yalnız bir səy vardır. Belə ki, qiran və ifrad həcci edən kimsə "qudum" təvafından sonra səy edərsə, bu səy ona yetər və "ifada" təvafından sonra bir daha səy etməsinə ehtiyac qalmaz. Bu, Aişə və İbn Abbasın hədisləri ilə zikr olunan Cabirin hədisini cəm etməkdir. Bununla da ziddiyyət aradan qalxar və bütün hədislərlə əməl edilmiş olar.

Bu cəmi (hədislərin uzlaşdırılmasını) təsdiq edən də odur ki, Aişə və İbn Abbasın hər iki hədisi səhihdir və onlar təməttü həcci edən şəxs üçün

---

[1] Hədisi Müslim: (1215) rəvayət etmişdir.

ikinci səyi isbat etmişlər. Cabirin hədisinin zahiri isə bunu inkar edir. İsbat edən (dəlil) inkar edən (dəlildən) üstün tutulur. Bu qayda Üsul və Hədis terminologiyası elmlərində də təsdiqini tapmışdır. Doğru olana müvəffəq edən Allah Sübhanəhu və Təaladır və Allahdan başqa heç bir güc və qüvvət yoxdur.

## Fəsil.

## Qurban bayramı günündə həcc edən kimsənin etdiyi əməllərin üstünlüyünün bəyanı.

Həcc edən kimsə üçün ən fəzilətli olan, Qurban bayramı günü bu dörd əməli zikr olunduğu tərtiblə etməsidir: Birinci böyük camarata daş atmaq, sonra qurban kəsmək, sonra başı qırxmaq və ya qısaltmaq, sonra isə evi təvaf etməkdir. Təməttu həcci edən, eləcə də Qudum təvafından sonra səy etməmiş İfrad və ya Qiran həcci edən kimsə təvafdan sonra səy etməlidir. Əgər bu əməllərdən bəzisini digərindən əvvəl edərsə, bu caizdir. Çünki bu barədə peyğəmbərdən, sallallahu aleyhi və səlləm, rüsxət olduğu sabitdir. Səyi təvafdan əvvəl etmək də buna daxildir, çünki o da Qurban bayramı günü edilən əməllərdəndir və səhabənin bu sözünə daxil olur: “Peyğəmbərdən, sallallahu aleyhi və səlləm, həmin gün ondan vaxtından əvvəl edilən və ya təxirə salınan bir şey haqqında soruşulduqda, o, yalnız belə buyurardı:”

«افْعَلْ وَلَا حَرَجَ»،

"Et, heç bir qəbahət yoxdur"[1]. Çünki bu, unutqanlıq və cahilliyin baş verdiyi bir məsələdir və bu, işləri asanlaşdırdığı üçün onun da ümumi hökmə daxil edilməsi vacibdir.

Peyğəmbərdən, sallallahu aleyhi va səlləm, səhih bir rəvayətdə təvaf etməzdən əvvəl səy edən kəs haqqında soruşulduqda, o, belə buyurmuşdur:

«لَا حَرَجَ»

"Heç bir qəbahət yoxdur"[2]. Bu hədisi Əbu Davud, Usamə bin Şərikdən Səhih isnadla rəvayət etmişdir. Beləliklə, onun şəksiz olaraq ümumi hökmə daxil olduğu aydınlaşdı. Müvəffəq edən Allahdır.

Hacının tam təhəllül (ehramdan tam çıxma) əldə etməsinə səbəb olan əməllər üçdür: Əqəbə cəmrəsini daşlamaq, saçları qırxmaq və ya qısaltmaq, həmçinin əvvəl qeyd edildiyi kimi, ifada tavafını edib ondan sonra səy etmək. Bu üç əməli yerinə yetirdikdə, ehram səbəbilə haram olan hər şey — qadınlarla yaxınlıq, ətir və digər qadağalar — ona halal olur. Bu əməllərdən ikisini edən şəxsə isə ehramla haram olan hər şey halal olur, yalnız qadınlarla yaxınlıq istisnadır. Buna "Birinci təhəllül" deyilir.

---

1 Hədisi Buxari: (83) və Müslim: (1306) rəvayət etmişdir.
2 Hədisi Əbu Davud: (2015) rəvayət etmişdir.

Hacının Zəmzəm suyundan içməsi, ondan doyunca içməsi və bacardığı qədər faydalı dualar etməsi müstəhəbdir, və

«مَاءُ زَمْزَمَ لِمَا شُرِبَ لَهُ».

«Zəmzəm suyu nə üçün içilərsə, onun üçündür»[1]. Həmçinin Səhih Müslimdə Əbu Zərrdən, Allah ondan razı olsun, rəvayət edilir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, Zəmzəm suyu barədə belə demişdir:

«إِنَّهُ طَعَامُ طُعْمٍ».

«Həqiqətən, o, doyuran bir yeməkdir»[2]. Əbu Davud əlavə etmişdir:

«وَشِفَاءُ سُقْمٍ».

"Həm də xəstəliklərə şəfadır"[3].

İfada təvafını və səy etməsi vacib olanlar isə səyi yerinə yetirdikdən sonra hacılar Minaya qayıdır və gecələri ilə birlikdə üç gün orada qalırlar. Bu üç günün hər birində zəval vaxtından sonra üç camarata daş atırlar. Daşları atarkən tərtibə riayət etmək vacibdir.

Əvvəlcə Xeyf Məscidinin yanındakı birinci camarata ard-arda yeddi daş atır və hər daş atdıqda əlini qaldırır. Ondan bir qədər aralanıb, cəmaratı

---

[1] Hədisi İbn Macə: (3062) Cabir bin Abdullahdan, Allah ondan razı olsun, rəvayət etmişdir.

[2] Hədisi Müslim: (2473) rəvayət etmişdir.

[3] Yəni: Əbu Davud ət-Təyalisi. O, bunu Əbu Zərrin, Allah ondan razı olsun, İslamı qəbul etməsi hekayəsinin eyni hədisində rəvayət etmişdir. Bax: Musnəd Əbu Davud ət-Təyəlisi (459).

sol tərəfində saxlayaraq qibləyə yönəlməsi, əllərini qaldırıb çoxlu dua edərək yalvarıb-yaxarması sünnədir.

Sonra eyni şəkildə ikinci camarata daş atır. Sünnədir ki, daş atdıqdan sonra bir qədər irəli gedib onu sağ tərəfində saxlasın, qibləyə yönəlsin, əllərini qaldırıb çoxlu dua etsin.

Sonra üçüncü camarata daş atır və orada dayanmır.

Sonra Təşriq günlərinin ikinci günündə, günəş zəvaldan batmağa meyl etdikdən sonra, peyğəmbərə, sallallahu aleyhi və səlləm, iqtida edərək, birinci gündə olduğu kimi camaratları daşlayır, həmçinin birinci və ikinci camaratın yanında da birinci gündə etdiyi kimi edir.

Təşriq günlərinin ilk iki günündə daş atmaq həccin vacib əməllərindəndir. Eləcə də, birinci və ikinci gecə Minada gecələmək vacibdir. Yalnız su verənlər, çobanlar və onlara bənzər şəxslər üçün bu vacib deyildir.

Sonra, qeyd olunan iki gündə daş atdıqdan sonra kim Minadan tələsib çıxmaq istəyərsə, günəş batmazdan əvvəl çıxması caizdir. Yubanaraq üçüncü gecəni də orada keçirib, üçüncü gün də cəməratları daşlamaq isə daha fəzilətli və savabı daha böyükdür. Necə ki, Uca Allah buyurur:

﴿وَاذْكُرُوا اللَّهَ فِي أَيَّامٍ مَعْدُودَاتٍ فَمَنْ تَعَجَّلَ فِي يَوْمَيْنِ فَلَا إِثْمَ عَلَيْهِ وَمَنْ تَأَخَّرَ فَلَا إِثْمَ عَلَيْهِ لِمَنِ اتَّقَى...﴾

"Sayı müəyyən olan günlərdə Allahı yad edin. Kim iki gün ərzində tez çıxarsa, ona heç bir günah olmaz. Kim yubanarsa, ona da heç bir günah olmaz. Bu, müttəqilərə aiddir". [Bəqərə 2 surəsi, ayə 203]. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, insanlara tələsməyə rüxsət versə də, özü tələsməmiş, əksinə, on üçüncü gün zəvaldan sonra camaratlara daş atana qədər Minada qalmış, sonra da zöhr namazını qılmadan oradan ayrılmışdır.

Daş atmağı bacarmayan uşağın vəlisinin, öz yerinə daş atdıqdan sonra onun yerinə Aqəbə cəmrəsinə və digər cəmrələrə daş atması caizdir. Eləcə də daş atmağı bacarmayan kiçik qız uşağının yerinə vəlisi daş atır. Çünki Cabir, Allah ondan razı olsun, demişdir:

«حَجَجْنَا مَعَ رَسُولِ اللَّهِ ﷺ، وَمَعَنَا النِّسَاءُ وَالصِّبْيَانُ، فَلَبَّيْنَا عَنِ الصِّبْيَانِ وَرَمَيْنَا عَنْهُمْ»

«Biz Allah rəsulu, sallallahu aleyhi və səlləm, ilə birgə həcc etdik. Yanımızda qadınlar və uşaqlar da var idi. Biz uşaqların əvəzinə təlbiyə gətirdik və onların əvəzinə daş atdıq»[1]. Hədisi İbn Macə rəvayət etmişdir.

Xəstəliyinə, qocalığına və ya hamiləliyinə görə daş atmaqdan aciz olan şəxsə öz yerinə başqasını vəkil təyin etməyə icazə verilir. Uca Allah buyurur:

﴿فَاتَّقُوا اللَّهَ مَا اسْتَطَعْتُمْ...﴾

---

[1] Hədisi Tirmizi: (927) rəvayət etmişdir.

"Allahdan bacardığınız qədər qorxun...". (ət-Təğabun 64 surəsi, ayə 16). Bu kimsələrin Cəməratda insanlarla birgə sıxlıq yaratmağa gücü çatmır, daş atma vaxtı isə keçir və bunun qəzası da şəriətdə buyurulmamışdır. Buna görə də onlara vəkil təyin etmək caizdir. Digər həcc əməllərindən fərqli olaraq, ehramda olan şəxsin, hətta etdiyi həcc nafilə olsa belə, həmin əməlləri yerinə yetirmək üçün başqasını vəkil təyin etməsi doğru deyil. Çünki həcc və ya ümrə ibadətinə başlayan insanın, bu ibadətlər nafilə olsa belə, onları axıra qədər tamamlaması vacibdir. Uca Allah buyurur:

﴿وَأَتِمُّوا الْحَجَّ وَالْعُمْرَةَ لِلَّهِ...﴾

"Allah üçün həcc və ümrəni tam yerinə yetirin". [Bəqərə 2 surəsi, ayə 196]. Daş atma vaxtından fərqli olaraq, təvaf və səyin vaxtı keçmir.

Arafada dayanmağa, Müzdəlifə və Minada gecələməyə gəldikdə isə, şübhəsiz ki, onların vaxtı keçir. Lakin aciz şəxsin bu yerlərdə olması, məşəqqətlə olsa da, mümkündür. Daş atmağı birbaşa özünün etməsi isə belə deyil. Çünki digər əməllərdən fərqli olaraq, üzrlü şəxs haqqında saleh sələflərdən daş atmaq üçün başqasını vəkil təyin etməyin caizliyi varid olmuşdur.

İbadətlər tovqifidir. Heç kəs bir dəlil olmadan onlara bir şey əlavə edə bilməz. Vəkilin bir yerdə duraraq üç camaratın hər birinə əvvəlcə öz yerinə, sonra isə onu vəkil edən şəxsin yerinə daş atması

icazəlidir. Alimlərin iki rəyinin ən səhihinə görə, onun əvvəlcə üç camaratın hamısına öz yerinə daş atıb, sonra geri qayıdaraq vəkil edənin yerinə atması vacib deyildir. Çünki bunu vacib edən bir dəlil yoxdur. Həmçinin bu işdə məşəqqət və çətinlik vardır. Uca Allah buyurur:

﴿...وَمَا جَعَلَ عَلَيْكُمْ فِي الدِّينِ مِنْ حَرَجٍ...﴾

"Dində də sizin üçün heç bir çətinlik etmədi". [Həcc 22 surəsi, ayə 78]. Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«يَسِّرُوا وَلَا تُعَسِّرُوا».

"Asanlaşdırın, çətinləşdirməyin"[1]. Çünki Allah rəsulunun, sallallahu aleyhi və səlləm, səhabələrinin öz uşaqları və aralarındakı acizlərin adından daş atarkən bunu etdikləri nəql olunmamışdır. Əgər onlar bunu etsəydilər, bu, mütləq nəql olunardı. Çünki bu, insanların nəql etməyə böyük maraq göstərdiyi məsələlərdəndir. Ən doğrusunu Allah bilir.

## Fəsil.

## Təməttü və qiran edənə qanın (qurban kəsməyin) vacib olması haqqında.

Məscidul-haram sakinlərindən olmayan, təməttü və ya qiran həcci edən hacıya qurban kəsmək vacibdir. Bu qurbanlıq bir qoyun, yaxud dəvənin və ya inəyin yeddidə bir hissəsidir.

[1] Hədisi Buxari: (69) Ənəsdən, Allah ondan razı olsun, rəvayət etmişdir.

Qurbanlıq halal maldan və pak qazancdan olmalıdır. Çünki Uca Allah pakdır və yalnız pak (halal) olanı qəbul edər.

Əgər Allah müsəlmana öz malından özünə kifayət edən və onu insanların əlində olana möhtac etməyən bir şey müyəssər edibsə, o, istər padşah olsun, istərsə də başqaları, onlardan qurbanlıq kimi hədiyyələr və ya başqa bir şey istəməkdən çəkinməlidir. Çünki peyğəmbərdən, sallallahu əleyhi va səlləm, rəvayət olunan çoxsaylı hədislərdə istəmək pislənmiş, eyib sayılmış, onu tərk edən isə təriflənmişdir.

Əgər Təməttü və Qiran həcci edən kimsənin qurban kəsməyə imkanı olmazsa, həcc mərasimində üç gün, ailəsinə döndükdə isə yeddi gün oruc tutmalıdır. O, bu üç günün orucunu istəsə bayram günündən əvvəl, istəsə də üç təşriq günündə tuta bilər. Çünki Uca Allah buyurmuşdur:

﴿...فَمَنْ تَمَتَّعَ بِالْعُمْرَةِ إِلَى الْحَجِّ فَمَا اسْتَيْسَرَ مِنَ الْهَدْيِ فَمَنْ لَمْ يَجِدْ فَصِيَامُ ثَلَاثَةِ أَيَّامٍ فِي الْحَجِّ وَسَبْعَةٍ إِذَا رَجَعْتُمْ تِلْكَ عَشَرَةٌ كَامِلَةٌ ذَلِكَ لِمَنْ لَمْ يَكُنْ أَهْلُهُ حَاضِرِي الْمَسْجِدِ الْحَرَامِ...﴾

"Əminlik içində olduğunuz təqdirdə isə həcc vaxtına qədər ümrədən faydalanan (ümrəni bitirib, həccə qədər qadağan olunanlardan istifadə edən) kəs müyəssər olan (asan başa gələn) bir qurban kəsməlidir. Qurbanlıq (heyvan) tapmayanlar isə həcc əsnasında üç gün, və (vətəninə) qayıtdıqda isə yeddi gün oruc tutmalıdırlar. Bu da, tam on gün

edir. Bu, ailəsi Məscidul-Haramda yaşamayanlara aiddir". [Bəqərə 2 surəsi, ayə 196]. Ayə.

Buxarinin "Səhih" kitabında, Aişə və İbn Ömərdən, Allah onlardan razı olsun, rəvayət edildiyinə görə onlar belə demişlər:

«لَمْ يُرَخَّصْ فِي أَيَّامِ التَّشْرِيقِ أَنْ يُصَمْنَ إِلَّا لِمَنْ لَمْ يَجِدِ الهَدْيَ»،

"Təşriq günlərində heç kəsə oruc tutmağa rüsxət verilməmişdir. Yalnız kəsməyə qurbanlıq heyvanı olmayan kimsələr müstəsna idilər"[1]. Bu rəvayət, peyğəmbərə, sallallahu aleyhi və səlləm, isnad edilən hədis hökmündədir. Üç günün orucunu Ərafa günündən əvvəl tutmaq daha əfzəldir ki, (hacı) Arafa günündə oruc tutmasın. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, Arafa günündə iftar etmiş və Ərafatda Ərafa günü oruc tutmağı qadağan etmişdir. Həmçinin bu gün oruc tutmamaq insanın zikr və dua etməyə daha çox taqətli olmasına səbəb olur. Qeyd olunan üç günün orucunu ardıcıl və ya ayrı-ayrı günlərdə tutmaq icazəlidir. Eləcə də yeddi günün orucunu ardıcıl tutmaq vacib deyil, əksinə, onları həm ardıcıl, həm də ayrı-ayrı günlərdə tutmaq olar. Çünki Uca Allah və Onun elçisi, sallallahu aleyhi və səlləm, bu orucların ardıcıl tutulmasını şərt qoymamışdır. Yeddi günün orucunu isə ailəsinin yanına qayıtdıqdan sonra tutmaq daha əfzəldir. Çünki Uca Allah buyurmuşdur:

---

[1] Hədisi Buxari: (1998) rəvayət etmişdir.

﴿...وَسَبْعَةٍ إِذَا رَجَعْتُمْ...﴾

"Qayıtdıqda isə yeddi gün oruc tutmalıdırlar". [Bəqərə 2 surəsi, ayə 196].

Qurban kəsməyə maddi imkanı olmayan kimsənin oruc tutması, öz adından qurban kəsmək üçün hökmdarlardan və ya başqalarından istəməsindən daha fəzilətlidir. Kiməsə istəmədən və nəfsi tamah salmadan qurbanlıq və ya başqa bir şey verilsə, bunda bir qəbahət yoxdur. Bu hökm, hətta başqasının adından həcc edən şəxsə də aiddir, o şərtlə ki, onu vəkil edənlər verilən puldan qurbanlıq alınmasını şərt qoşmamış olsunlar. Bəzi insanların yalan danışaraq adlarını çəkdikləri şəxslərin adından hökumətdən və ya başqalarından qurbanlıq istəməsinə gəlincə, şübhəsiz ki, bu, haramdır. Çünki bu, yalanla mal əldə etməkdir. Allah bizi və bütün müsəlmanları bundan qorusun.

## Fəsil.

## Həcc edənlərə və digərlərinə yaxşılığı əmr etməyin vacibliyinə dair.

Hacılara və digərlərinə vacib olan ən böyük əməllərdən biri də yaxşılığı əmr edib pislikdən çəkindirmək, habelə Allahın Öz Kitabında və rəsulunun, sallallahu aleyhi va səlləm, dili ilə əmr etdiyi kimi, camaatla beş vaxt namaza riayət etməkdir.

Məkkə və digər yerlərin sakinlərindən olan bir çox insanın evlərdə namaz qılaraq məscidləri tərk

etməsi şəriətə zidd olan xəta əməldir. Buna görə də bu əməli qadağan etmək və insanlara məscidlərdə namazları qorumağı əmr etmək vacibdir. Çünki peyğəmbərdən, salləllahu aleyhi va səlləm, sabit olmuşdur ki, İbn Umm Məktum, Allah ondan razı olsun, kor olduğu və evi məsciddən uzaq olduğu üçün evində namaz qılmağa izin istədikdə, peyğəmbər, salləllahu aleyhi va səlləm, ona belə demişdir:

«هَلْ تَسْمَعُ النِّدَاءَ بِالصَّلَاةِ؟ قَالَ: نَعَمْ، قَالَ: فَأَجِبْ»،

"Namaz azanını eşidirsənmi?". O: "Bəli", - dedi. Peyğəmbər, salləllahu aleyhi va səlləm, buyurdu: "Elə isə cavab ver"[1]. Başqa rəvayətdə demişdir:

«لَا أَجِدُ لَكَ رُخْصَةً»،

"Sənin üçün bir rüxsət görmürəm"[2]. Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«لَقَدْ هَمَمْتُ أَنْ آمُرَ بِالصَّلَاةِ فَتُقَامَ، ثُمَّ آمُرَ رَجُلًا فَيَؤُمَّ النَّاسَ، ثُمَّ أَنْطَلِقَ إِلَى رِجَالٍ لَا يَشْهَدُونَ الصَّلَاةَ فَأُحَرِّقَ عَلَيْهِمْ بُيُوتَهُمْ بِالنَّارِ»،

"Mən, namazın iqamə edilməsini, sonra da bir kişiyə camaata namaz qıldırmağı əmr etməyi, daha sonra isə gedib namaza gəlməyənlərin evlərini yandırmağı istədim"[3]. İbn Macənin Sünən əsərində və digər kitablarda "həsən isnadla" İbn Abbasdan, Allah onların hər ikisindən razı olsun, rəvayət

---

[1] Hədisi Buxari: (2420) və Müslim: (651) rəvayət etmişdir.
[2] Hədisi Əbu Hüreyrədən, Allah ondan razı olsun, Müslim: (653) rəvayət etmişdir.
[3] Hədisi Əbu Davud: (552) Abdullah ibn Ümm Məktumdan rəvayət etmişdir.

olunur ki, peyğəmbər, sallallahu aleyhi va səlləm, belə demişdir:

«مَنْ سَمِعَ النِّدَاءَ فَلَمْ يَأْتِ فَلَا صَلَاةَ لَهُ إِلَّا مِنْ عُذْرٍ».

"Azanı eşidib üzrü olmadan namaza gəlməyənin namazı yoxdur"[1]. Səhih Müslimdə rəvayət edilir ki, İbn Məsud, Allah ondan razı olsun, belə demişdir: «Kim sabah Allaha müsəlman olaraq qovuşmaq istəyirsə, azan verilən yerdə bu namazları qılmağa davam etsin. Çünki Allah peyğəmbəriniz ﷺ üçün hidayət sünnələrini müəyyən etmişdir və bu namazlar da hidayət sünnələrindəndir. Əgər siz, (camaatdan) geri qalan bu kimsənin evində qıldığı kimi, namazlarınızı evlərinizdə qılsanız, peyğəmbərinizin sünnəsini tərk etmiş olarsınız. Əgər peyğəmbərinizin sünnəsini tərk etsəniz, zəlalətə düşərsiniz. Bir kəs gözəl bir şəkildə dəstəmaz alıb, sonra bu məscidlərdən birinə üz tutarsa, Allah onun atdığı hər addıma görə bir savab yazar, onu bir dərəcə yüksəldər və onun bir günahını silər. Həqiqətən, biz görürdük ki, nifaqı bəlli olan münafiqdən başqa heç kəs ondan (camaat namazından) geri qalmırdı. Hətta elə adam olurdu ki, iki nəfərin qoltuğunda gətirilib səfdə dayandırılırdı»[2].

Hacılara və digərlərinə Uca Allahın haram buyurduqlarından çəkinmək və onları etməkdən

---

[1] Hədisi Müslim: (654) rəvayət etmişdir.
[2] Hədisi Əbu Davud: (551) İbn Abbasdan rəvayət etmişdir.

həzər etmək vacibdir. Məsələn: zina, livat, oğurluq, sələm yemək, yetim malı yemək, alqı-satqıda aldatmaq, əmanətə xəyanət etmək, sərxoşedici içkilər içmək, tütün çəkmək, paltarı yerlə sürümək, təkəbbürlük, həsəd, riyakarlıq, qeybət etmək, söz gəzdirmək, müsəlmanları ələ salmaq, val, ud, rübab, tütək və bu kimi digər əyləncə (musiqi) alətlərindən istifadə etmək, radio və digər vasitələrlə musiqi alətlərinin müşayiəti ilə oxunan mahnıları dinləmək, nərd və şahmat oynamaq, qumar oynamaq, insan və digər ruh sahiblərinin şəklini çəkmək və buna razı olmaq. Bütün bunlar Allahın hər zaman və hər məkanda qullarına haram etdiyi pis əməllərdəndir. Buna görə də hacılar və Məscidul-Haramın sakinləri bunlardan digərlərindən daha çox çəkinməlidirlər. Çünki bu əmin-amanlıq yurdunda günahların ağırlığı daha şiddətli və cəzası daha böyükdür.

Uca Allah buyurmuşdur:

﴿...وَمَنْ يُرِدْ فِيهِ بِإِلْحَادٍ بِظُلْمٍ نُذِقْهُ مِنْ عَذَابٍ أَلِيمٍ 25﴾

"Orada zülm etməklə haqdan dönmək istəyənlərə ağrılı-acılı bir əzab daddıracağıq". (Həcc 22 surəsi, ayə 25). Uca Allah Hərəm-şərifdə zülm etmək niyyətində olan kimsəyə belə əzab vəd etmişsə, bəs bu günahı edənin cəzası necə olar?! Şübhəsiz ki, onun cəzası daha böyük və daha şiddətlidir. Buna görə də həm bu əməldən, həm də digər bütün günahlardan çəkinmək vacibdir.

Hacılar, həcc ibadətinin qəbul olunmasına və günahlarının bağışlanmasına, yalnız bu və Allahın onlara haram buyurduğu digər günahlardan çəkinməklə nail ola bilərlər. Necə ki, peyğəmbər, sallallahu aleyhi va səlləm, bir hədisdə belə buyurmuşdur:

«مَنْ حَجَّ فَلَمْ يَرْفُثْ وَلَمْ يَفْسُقْ رَجَعَ كَيَوْمِ وَلَدَتْهُ أُمُّهُ».

"Kim həcc edərsə, (həcc əsnasında) qadını ilə yaxınlıq etməsə və söyüş söyüb pis sözlər danışmasa, həccdən anadan doğulduğu kimi (günahsız) qayıdar"[1].

Bu münkər əməllərdən daha şiddətlisi və daha böyüyü: ölülərin, onlara dua edən kəs üçün Allah yanında şəfaətçi olacaqları, xəstəsini sağaldacaqları və ya səfərdə olan yaxınını geri qaytaracaqları və bu kimi şeyləri edəcəkləri ümidi ilə onlara dua etmək, onlardan yardım istəmək, onlara nəzir demək və onlara qurban kəsməkdir.

Bu, Allahın haram etdiyi böyük şirkdəndir və cahiliyyə müşriklərinin dinidir. Allah da bunu inkar etmək və ondan çəkindirmək üçün peyğəmbərlər göndərmiş və kitablar nazil etmişdir.

Buna görə də hacılardan və digərlərindən hər bir kəsin üzərinə vacibdir ki, ondan çəkinsin, əgər keçmişdə belə bir əmələ yol vermişdirsə, ona görə Allaha tövbə etsin və bu tövbədən sonra yeni bir

---

[1] Hədisi Buxari: (1521) və Müslim: (1350) Əbu Hureyrədən, Allah ondan razı olsun, rəvayət etmişdir.

həcc yerinə yetirsin. Çünki böyük şirk bütün əməlləri batil edir. Uca Allah belə buyurur:

﴿...وَلَوْ أَشْرَكُوا لَحَبِطَ عَنْهُمْ مَا كَانُوا يَعْمَلُونَ 88﴾

"Əgər onlar (Allaha) şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı". [Ənam 6 surəsi, ayə 88].

Kiçik şirkin növlərindən biri də Allahdan başqasına, məsələn: peyğəmbərə, Allahın salavatı və salamı onun üzərinə olsun, Kəbəyə, əmanətə və bu kimi şeylərə and içməkdir.

Bunlardan: riya (özünü göstərmək) və sümə (eşitdirmək), həmçinin "Allah və sən istəməyincə", "Əgər Allah və sən olmasaydın", "Bu, Allahdan və səndəndir" və buna bənzər sözlərdir.

Bu şirk olan münkərlərdən çəkinmək və onları tərk etməyi bir-birinə tövsiyə etmək lazımdır. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, belə demişdir:

«مَنْ حَلَفَ بِغَيْرِ اللهِ فَقَدْ كَفَرَ أَوْ أَشْرَكَ».

«Kim Allahdan başqasına and içərsə, artıq küfür etmiş yaxud şərik qoşmuşdur»[1]. Bu hədisi Əhməd, Əbu Davud və Tirmizi səhih isnadla rəvayət etmişdir.

Səhih hədisdə Ömərdən, Allah ondan razı olsun, rəvayət olunur ki, rəsulullah, sallallahu əleyhi va səlləm, belə buyurmuşdur:

---

[1] Hədisi Əbu Davud: (3251) rəvayət etmişdir.

«مَنْ كَانَ حَالِفًا فَلْيَحْلِفْ بِاللهِ أَوْ لِيَصْمُتْ».

«Kim and içsə Allaha and içsin yaxud da sussun»[1]. Peyğəmbər, sallallahu aleyhi va səlləm, həmçinin belə buyurmuşdur:

«مَنْ حَلَفَ بِالأَمَانَةِ فَلَيْسَ مِنَّا».

"Əmanətə and içən bizdən deyildir"[2]. Bu hədisi Əbu Davud rəvayət etmişdir.

Peyğəmbər, sallallahu aleyhi və səlləm, həmçinin buyurmuşdur:

«أَخْوَفُ مَا أَخَافُ عَلَيْكُمُ الشِّرْكُ الأَصْغَرَ، فَسُئِلَ عَنْهُ فَقَالَ: الرِّيَاءُ».

"Sizin üçün ən çox qorxduğum kiçik şirkdir". Ondan bu barədə soruşulduqda, belə buyurdu: "Riyadır"[3]. Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«لَا تَقُولُوا: مَا شَاءَ اللهُ وَشَاءَ فُلَانٌ، وَلَكِنْ قُولُوا مَا شَاءَ اللهُ ثُمَّ شَاءَ فُلَانٌ».

«"Allah istədi və filankəs istədi" - deməyin, əksinə "Allah istədi, sonra isə filankəs istədi" - deyin»[4]. Nəsai, İbn Abbasdan, Allah ondan və atasından razı olsun, rəvayət edir ki, bir kişi dedi: "Ey Allahın rəsulu, Allah və sən istədin". Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, dedi:

«أَجَعَلْتَنِي لِلَّهِ نِدًّا، بَلْ مَا شَاءَ اللهُ وَحْدَهُ».

---

1 Hədisi Əbu Davud: (3253) rəvayət etmişdir.
2 Hədisi Buxari: (2679) və Müslim: (1646) Abdullahdan rəvayət etmişdir.
3 Hədisi İmam Əhməd "Müsnəd" (5/428) əsərində rəvayət etmişdir.
4 Hədisi Əbu Davud: (4980) rəvayət etmişdir.

«Sən məni Allah ilə bərabərmi etdin?! Əksinə, tək Allah istəyincə»[1].

Bu hədislər peyğəmbərin, sallallahu əleyhi və səlləm, tövhidi himayə etməsinə, ümmətini böyük və kiçik şirkdən çəkindirməsinə, onların imanının salamatlığına və Allahın əzabından, eləcə də Onun qəzəbinə səbəb olan amillərdən nicat tapmalarına nə qədər can atmasına dəlalət edir. Allah onu buna görə ən xeyirli mükafatla mükafatlandırsın. Həqiqətən, o, təbliğ etmiş, xəbərdar etmiş, Allaha və Onun qullarına nəsihət etmişdir. Qiyamət gününə qədər davam edən salavat və salam onun üzərinə olsun.

Həm həcc ziyarətində olan, həm də Allahın əmin-amanlıq yurdunda və Onun möhtərəm rəsulunun, ona Allahın salavatı və salamı olsun, şəhərində yaşayan elm əhlinin üzərinə vacibdir ki, insanları zülmətlərdən nura çıxarmaq və Allahın onların üzərinə vacib etdiyi təbliğ və bəyan etmə vəzifəsini yerinə yetirmək üçün onlara Allahın buyurduğu şəriəti öyrətsinlər, Allahın haram buyurduğu şirk və asiliklərin növlərindən çəkindirsinlər, bunu dəlilləri ilə izah etsinlər və tam aydın şəkildə bəyan etsinlər. Uca Allah buyurur:

﴿وَإِذْ أَخَذَ اللَّهُ مِيثَاقَ الَّذِينَ أُوتُوا الْكِتَابَ لَتُبَيِّنُنَّهُ لِلنَّاسِ وَلَا تَكْتُمُونَهُ...﴾

"Bir zaman Allah Kitab verilənlərdən: “Siz o (kitabı) mütləq insanlara açıqlayacaqsınız və onu

---

[1] Hədisi İbn Macə: (2117) rəvayət etmişdir.

gizlətməyəcəksiniz!”– deyə əhd almışdı". (Əli İmran 3 surəsi, ayə 187).

Bundan məqsəd: bu ümmətin alimlərini, axirəti deyil, bu keçici dünyanı üstün tutduqları üçün haqqı gizlədən Kitab əhli zalımlarının yolunu tutmaqdan çəkindirməkdir. Uca Allah buyurmuşdur:

﴿إِنَّ الَّذِينَ يَكْتُمُونَ مَا أَنْزَلْنَا مِنَ الْبَيِّنَاتِ وَالْهُدَى مِنْ بَعْدِ مَا بَيَّنَّاهُ لِلنَّاسِ فِي الْكِتَابِ أُولَئِكَ يَلْعَنُهُمُ اللَّهُ وَيَلْعَنُهُمُ اللَّاعِنُونَ 159 إِلَّا الَّذِينَ تَابُوا وَأَصْلَحُوا وَبَيَّنُوا فَأُولَئِكَ أَتُوبُ عَلَيْهِمْ وَأَنَا التَّوَّابُ الرَّحِيمُ 160﴾

"Kitabda insanlara bəyan etdikdən sonra, nazil etdiyimiz açıq-aydın dəlilləri və doğru yol göstərən ayələri gizlədən kəslərə həm Allah lənət edər, həm də, lənət edə bilənlər lənət oxuyarlar!

Yalnız tövbə edənlər, (əməllərini) islah edənlər və (haqqı) bəyan edənlər istisnadır. Mən onların tövbəsini qəbul edərəm. Mən tövbələri qəbul edənəm, Rəhmliyəm!". (Bəqərə 2 surəsi, ayələr 159-160). Quran ayələri və peyğəmbər hədisləri göstərmişdir ki, Uca Allaha dəvət etmək və qulları yaradılış qayəsinə yönəltmək ən fəzilətli saleh əməllərdən və ən mühüm vaciblərdəndir və bu, Qiyamət gününə qədər rəsulların və onların ardıcıllarının yoludur. Necə ki, Uca Allah buyurur:

﴿وَمَنْ أَحْسَنُ قَوْلًا مِمَّنْ دَعَا إِلَى اللَّهِ وَعَمِلَ صَالِحًا وَقَالَ إِنَّنِي مِنَ الْمُسْلِمِينَ 33﴾

"Allaha tərəf çağıran, saleh əməl edən və: “Mən müsəlmanlardanam!”– deyən kəsdən daha gözəl

söz söyləyən kim ola bilər?!". (Fussilət 41 surəsi, ayə 33). İzzət və Cəlal sahibi olan Allah buyurur:

﴿قُلْ هَذِهِ سَبِيلِي أَدْعُو إِلَى اللَّهِ عَلَى بَصِيرَةٍ أَنَا وَمَنِ اتَّبَعَنِي وَسُبْحَانَ اللَّهِ وَمَا أَنَا مِنَ الْمُشْرِكِينَ 108﴾

"De: "Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, bəsirət (elm və yəqinlik) üzərində, insanları Allaha çağırırıq. Allah pakdır, müqəddəsdir. Mən müşriklərdən deyiləm"". (Yusuf 12 surəsi, ayə 108).

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«مَنْ دَلَّ عَلَى خَيْرٍ فَلَهُ مِثْلُ أَجْرِ فَاعِلِهِ»

«Kim bir xeyirə yol göstərsə, ona onu edənin əcrinin misli verilər»[1].

«لَأَنْ يَهْدِيَ اللهُ بِكَ رَجُلًا وَاحِدًا خَيْرٌ لَكَ مِنْ حُمْرِ النَّعَمِ»

"Əgər Allah sənin vasitənlə bir nəfəri düz yola yönəltsə, bu sənin üçün qırmızı dəvələrdən daha xeyirli olar"[2]. Bu mənada bir çox ayə və hədislər mövcuddur.

Elm və iman əhlinin üzərinə düşür ki, xüsusilə də nəfsi istəklərin üstünlük təşkil etdiyi, dağıdıcı prinsiplərin və azdırıcı şüarların yayıldığı, hidayətə çağıranların azaldığı, ateizmə və hər cür əxlaqsızlığa çağıranların isə çoxaldığı bu dövrdə, Uca Allaha dəvət yolunda səylərini daha da

---

[1] Hədisi Müslim: (1893) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (3009) və Müslim: (2406) rəvayət etmişdir.

artırsınlar, qulları nicat yollarına istiqamətləndirsinlər və onları həlak səbəblərindən xəbərdar etsinlər. Yardım ancaq Allahdandır. Uca və Əzəmətli Allahdan başqa heç bir güc və qüvvət yoxdur.

## Fəsil.
## İtaətləri artırmağın müstəhəb olması.

Hacıların Məkkədə qaldıqları müddətdə Allahı zikr etməklə, Ona itaət etməklə və saleh əməllər görməklə məşğul olmaları, həmçinin çoxlu namaz qılıb Kəbə evini təvaf etmələri müstəhəbdir. Çünki Haramda yaxşı əməllərin savabı qat-qat çoxdur, günahı da çox böyükdür. Həmçinin, onlara Allahın rəsuluna, sallallahu aleyhi və səlləm, çoxlu salavat və salam göndərmələri də müstəhəbdir.

Hacılar Məkkədən çıxmaq istədikdə, evlə (Kəbə ilə) son görüşləri olsun deyə, evi təvaf etmələri, vida təvafını etmələri vacibdir. Lakin heyzli və nifaslı qadınlara vida təvafı vacib deyildir. İbn Abbas, Allah onların ikisindən də razı olsun, belə demişdir:

«أُمِرَ النَّاسُ أَنْ يَكُونَ آخِرُ عَهْدِهِمْ بِالبَيْتِ، إِلَّا أَنَّهُ خُفِّفَ عَنِ المَرْأَةِ الحَائِضِ»

«İnsanlara son (ayin) olaraq Kəbəni təvaf etmələri əmr edildi. Lakin heyzli qadın üçün bu (hökm) yüngülləşdirildi»[1].

---

[1] Hədisi Buxari: (1755) və Müslim: (1328) rəvayət etmişdir.

O, Kəbə evi ilə vidalaşdıqdan sonra məsciddən çıxmaq istədikdə, üzü irəli gedərək çıxmalıdır. Geri-geri getməməlidir. Çünki bu əməl nə peyğəmbərdən, sallallahu aleyhi və səlləm, nə də onun səhabələrindən nəql edilməmişdir. Əksinə, bu, sonradan ortaya çıxarılmış bidətlərdəndir. Peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«مَنْ عَمِلَ عَمَلًا لَيْسَ عَلَيْهِ أَمْرُنَا فَهُوَ رَدٌّ».

"Kim (dində) bizim etmədiyimiz (şəriət dəlillərinə istinad etməyən) bir əməl edərsə, o əməl qəbul olunmaz"[1]. Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

إِيَّاكُمْ وَمُحْدَثَاتِ الأُمُورِ، فَإِنَّ كُلَّ مُحْدَثَةٍ بِدْعَةٌ، وَكُلَّ بِدْعَةٍ ضَلَالَةٌ».

«Dinə əlavə edilmiş yeniliklərdən çəkinin, çünki hər bir yenilik bidətdir, hər bir bidət də zəlalətdir»[2].

Uca Allahdan dininə sadiq qalmağı və ona zidd olan şeylərdən qorunmağı diləyirik. Həqiqətən, O, Səxavətli və Kərimdir.

## Fəsil.

## Ziyarət əhkamları və ədəbləri haqqında.

Peyğəmbərin, sallallahu aleyhi və səlləm, məscidini həcdən əvvəl və ya sonra ziyarət etmək sünnədir. Çünki "Səhiheyndə" Əbu Hureyrədən, radiyallahu anhu, rəvayət olunur ki, rəsulullah, sallallahu aleyhi və səlləm, buyurmuşdur:

---

[1] Hədisin qaynağı daha əvvəl qeyd edilmişdir.

[2] Hədisi Müslim: (867) Cabir bin Abdullahdan, Allah ondan razı olsun, rəvayət etmişdir.

«صَلَاةٌ فِي مَسْجِدِي هَذَا خَيْرٌ مِنْ أَلْفِ صَلَاةٍ فِيمَا سِوَاهُ إِلَّا المَسْجِدَ الحَرَامَ».

«Mənim bu məscidimdə qılınan bir namaz, Məscidul-Haram istisna olmaqla, başqa məscidlərdə qılınan min namazdan daha xeyirlidir»[1]. İbn Ömər, Allah onların hər ikisindən razı olsun, peyğəmbərin, sallallahu aleyhi və səlləm, belə dediyini rəvayət etmişdir:

«صَلَاةٌ فِي مَسْجِدِي هَذَا أَفْضَلُ مِنْ أَلْفِ صَلَاةٍ فِيمَا سِوَاهُ إِلَّا المَسْجِدَ الحَرَامَ»

«Mənim bu məscidimdə qılınan bir namaz, Məscidul-Haram istisna olmaqla, başqa məscidlərdə qılınan min namazdan daha fəzilətlidir»[2]. Hədisi Müslim rəvayət etmişdir. Abdullah bin Zubeyrdən, Allah ondan razı olsun, belə söylədiyi rəvayət edilir: Allahın rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, buyurdu:

«صَلَاةٌ فِي مَسْجِدِي هَذَا أَفْضَلُ مِنْ أَلْفِ صَلَاةٍ فِيمَا سِوَاهُ إِلَّا المَسْجِدَ الحَرَامَ، وَصَلَاةٌ فِي المَسْجِدِ الحَرَامِ أَفْضَلُ مِنْ مِائَةِ صَلَاةٍ فِي مَسْجِدِي هَذَا»

«Mənim bu məscidimdə qılınan bir namaz, Məscidul-Haram istisna olmaqla, başqa məscidlərdə qılınan min namazdan daha fəzilətlidir və Məscidul-Haramda qılınan bir namaz mənim bu məscidimdə qılınan yüz namazdan daha fəzilətlidir»[3]. Bu hədisi Əhməd, İbn Xuzeymə və İbn Hibban rəvayət etmişdir.

---

1 Hədisi Buxari: (1190) və Müslim: (1394) rəvayət etmişdir.
2 Hədisi Müslim: (1395) rəvayət etmişdir.
3 Hədisi İmam Əhməd "Müsnəd" (4/5) əsərində rəvayət etmişdir.

Cabirdən, Allah ondan razı olsun, rəvayət edilir ki, Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«صَلَاةٌ فِي مَسْجِدِي هَذَا أَفْضَلُ مِنْ أَلْفِ صَلَاةٍ فِيمَا سِوَاهُ، إِلَّا المَسْجِدَ الحَرَامَ، وَصَلَاةٌ فِي المَسْجِدِ الحَرَامِ أَفْضَلُ مِنْ مِائَةِ أَلْفِ صَلَاةٍ فِيمَا سِوَاهُ»

«Mənim bu məscidimdə qılınan bir namaz, Məscidul-Haram istisna olmaqla, digər məscidlərdə qılınan min namazdan daha xeyirlidir. Məscidul-Haramda qılınan bir namaz digər məscidlərdə qılınan yüz min namazdan daha xeyirlidir»[1]. Hədisi Əhməd və İbn Macə rəvayət etmişdir. Bu mənada olan hədislər çoxdur.

Ziyarətçi məscidə çatdıqda, daxil olarkən sağ ayağını birinci atması və bu duanı deməsi müstəhəbdir: [Bismilləh, vas-salatu vas-səlamu alə rasulilləh, əuzu billəhil-azıym va bi-vəchihil-kəriym va sultanihil-qadiym minəş-şeytanir-raciym, Allahummə-ftəh liy əbvabə rahmətikə] - «Allahın adı ilə! Salavat və salam olsun Allahın elçisinə! Qovulmuş şeytandan Əzəmətli Allaha, Onun Kəramətli Üzünə və əzəli hökmranlığına sığınıram. Allahım! Öz mərhəmət qapılarını mənim üçün aç!».

Həmçinin bu zikri digər məscidlərə də daxil olarkən deyir. Peyğəmbərin, sallallahu aleyhi və səlləm, məscidinə daxil olmaq üçün xüsusi bir zikr yoxdur. Sonra iki rükət namaz qılır və bu namazda Allahdan dünya və axirət xeyirlərindən istədiyini

---

[1] Hədisi İbn Macə: (1406) rəvayət etmişdir.

diləyir. Əgər bu namazı "Rovdeyi-şərifdə" qılsa, daha əfzəl olar. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«مَا بَيْنَ بَيْتِي وَمِنْبَرِي رَوْضَةٌ مِنْ رِيَاضِ الجَنَّةِ».

"Evimlə minbərim arası Cənnət bağlarından bir bağçadır"[1]. Namaz qıldıqdan sonra peyğəmbərin, sallallahu aleyhi va səlləm, və onun iki səhabəsini: Əbu Bəkir və Ömərin, radiyallahu anhuma, qəbrini ziyarət edir. Peyğəmbərin, sallallahu aleyhi va səlləm, qəbrinin qarşısında ədəb və asta səslə dayanıb, sonra ona, sallallahu aleyhi va səlləm, belə salam verir: «Sənə Allahın salamı, rəhməti və bərəkəti olsun, ey Allahın elçisi!». Çünki Əbu Davudun "Sünən" əsərində həsən isnadla Əbu Hureyrədən, radiyallahu anhu, rəvayət olunur ki, rəsulullah, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«مَا مِنْ أَحَدٍ يُسَلِّمُ عَلَيَّ إِلَّا رَدَّ اللهُ عَلَيَّ رُوحِي حَتَّى أَرُدَّ عَلَيْهِ السَّلَامَ».

"Kim mənə salam verərsə, Allah ruhumu mənə qaytarar, mən də onun salamını qaytararam"[2]. Ziyarət edən kimsə salam verərkən: «Sənə Allahın salamı olsun, ey Allahın peyğəmbəri! Sənə Allahın salamı olsun, ey Allahın seçilmiş qulu! Sənə Allahın salamı olsun, ey elçilərin seyyidi və müttəqilərin imamı! Mən şəhadət verirəm ki, sən Risaləti insanlara çatdırdın, əmanəti yerinə yetirdin,

---

[1] Hədisi Buxari: (1195) və Müslim: (1390) rəvayət etmişdir.
[2] Hədisi Əbu Davud: (2041) rəvayət etmişdir.

ümmətə nəsihət etdin və Allah yolunda həqiqi cihad etdin» - deməsi caizdir. Çünki bütün bunlar peyğəmbərin, sallallahu aleyhi va səlləm, vəsflərindəndir. Həmçinin, şəriətdə ona salavat və salamı birlikdə deməyin caizliyi təsdiqini tapdığı üçün və Uca Allahın buyruğuna əməl edərək peyğəmbərə, sallallahu aleyhi va səlləm, salavat gətirib dua edir:

﴿إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا 56﴾

"Həqiqətən Allah və mələkləri peyğəmbərə salavat gətirirlər. Ey iman gətirənlər! Siz də ona salavat gətirib, layiqincə salamlayın!". [Əhzab 33 surəsi, ayə 56]. Sonra Əbu Bəkrə və Ömərə, Allah onların hər ikisindən razı olsun, salam verir, onlar üçün dua edir və razılıq diləyir.

İbn Ömər, Allah onların hər ikisindən razı olsun, peyğəmbərə, sallallahu aleyhi va səlləm, və onun iki səhabəsinə salam verdikdə, adətən yalnız bu sözləri deyərdi: "Allahın salamı sənin üzərinə olsun, ey Allahın elçisi. Allahın salamı sənin üzərinə olsun, ey Əbu Bəkr. Allahın salamı sənin üzərinə olsun, ey atacan". Sonra oradan ayrılardı.

Bu ziyarət yalnız kişilər üçün şəriətə uyğundur, qadınların isə heç bir qəbri ziyarət etməsi icazəli deyil, necə ki, peyğəmbərdən, Allahın salavatı və salamı onun üzərinə olsun, sabit olmuşdur ki, o:

«لَعَنَ زُوَّارَاتِ الْقُبُورِ مِنَ النِّسَاءِ وَالْمُتَّخِذِينَ عَلَيْهَا الْمَسَاجِدَ وَالسُّرُجَ».

«Qəbirləri ziyarət edən qadınlara, onların üzərini məscid edənlərə və çıraq yandıranlara - lənət etmişdir»[1].

Yuxarıda qeyd edilən hədislərə əsasən, hər kəs peyğəmbərin, sallallahu aleyhi və səlləm, məscidində namaz qılmaq, orada dua etmək və digər məscidlərdə icazəli olan bu kimi əməlləri etmək məqsədi ilə Mədinəyə səfər edə bilər.

Ziyarətçinin, böyük savab qazanmaq üçün, peyğəmbər, sallallahu aleyhi və səlləm, məscidində beş fərz namazını qılması və orada çoxlu zikr, dua və nafilə namazı qılması sünnədir.

Rovdada çoxlu nafilə namazı qılmaq müstəhəbdir. Çünki onun fəziləti barədə peyğəmbər, sallallahu aleyhi və səlləm, səhih bir hədisdə demişdir:

«مَا بَيْنَ بَيْتِي وَمِنْبَرِي رَوْضَةٌ مِنْ رِيَاضِ الجَنَّةِ».

"Evimlə minbərim arası Cənnət bağlarından bir bağçadır"[2].

Fərz namazına gəlincə, ziyarətçi və qeyrisi bacardığı qədər qabağa keçməli və birinci səfə riayət etməlidir. Hətta bu, qiblə tərəfdəki genişləndirilmiş hissədə olsa belə. Çünki peyğəmbərin, sallallahu aleyhi və səlləm, səhih hədislərində birinci səfə təşviq və rəğbətləndirmə

---

[1] Hədisi Əbu Davud: (3236) rəvayət etmişdir.
[2] Hədisin qaynağı daha əvvəl qeyd edilmişdir.

vardır. Məsələn, peyğəmbərin, sallallahu aleyhi və səlləm, bu sözü kimi:

«لَوْ يَعْلَمُ النَّاسُ مَا فِي النِّدَاءِ وَالصَّفِّ الأَوَّلِ ثُمَّ لَمْ يَجِدُوا إِلَّا أَنْ يَسْتَهِمُوا عَلَيْهِ لَاسْتَهَمُوا»

«Əgər insanlar azan (verməyin) və (namazda) birinci səfdə (durmağın nə qədər xeyirli və bərəkətli) olduğunu bilsəydilər və (buna nail olmaq üçün) püşk atmaqdan başqa bir yol tapmasaydılar, püşk atardılar»[1]. Hədisi Buxari və Müslim rəvayət etmişdir. Buna oxşar olaraq peyğəmbər, sallallahu aleyhi və səlləm, səhabələrinə buyurmuşdur:

«تَقَدَّمُوا فَأْتَمُّوا بِي وَلْيَأْتَمَّ بِكُمْ مَنْ بَعْدَكُمْ، وَلَا يَزَالُ الرَّجُلُ يَتَأَخَّرُ عَنِ الصَّلَاةِ حَتَّى يُؤَخِّرَهُ اللهُ»

«İrəli keçin və mənə tabe olun. Sizdən sonrakılar da sizə tabe olsunlar. Bir kişi namazdan geri qalmaqda davam edər, nəhayət Allah da onu geri salar»[2]. Hədisi Müslim rəvayət etmişdir.

Əbu Davud Aişədən, Allah ondan razı olsun, həsən sənədlə peyğəmbərin, sallallahu aleyhi və səlləm, belə dediyini rəvayət etmişdir:

«لَا يَزَالُ الرَّجُلُ يَتَأَخَّرُ عَنِ الصَّفِّ الْمُقَدَّمِ حَتَّى يُؤَخِّرَهُ اللهُ فِي النَّارِ».

«Kişi ön cərgədən geri qalmaqda davam edər, nəhayət Allah da onu Cəhənnəmdə geri salar»[3].

[1] Hədisi Müslim: (438) Əbu Səid əl-Xudridən, Allah ondan razı olsun, rəvayət etmişdir.

[2] Hədisi Buxari: (615) və Müslim: (437) rəvayət etmişdir.

[3] Hədisi Müslim: (430) Cabir bin Səmurədən rəvayət etmişdir.

Səhih bir hədisdə peyğəmbər, sallallahu aleyhi və səlləm, səhabələrinə belə buyurmuşdur:

«أَلَا تَصُفُّونَ كَمَا تَصُفُّ المَلَائِكَةُ عِنْدَ رَبِّهَا؟ قَالُوا: يَا رَسُولَ اللهِ، وَكَيْفَ تَصُفُّ المَلَائِكَةُ عِنْدَ رَبِّهَا؟ قَالَ: يُتِمُّونَ الصُّفُوفَ الأُوَلَ، وَيَتَرَاصُّونَ فِي الصَّفِّ»

«Mələklər Rəbblərinin hüzurunda səf çəkdikləri kimi, siz də səf çəkməyəcəksinizmi?». Onlar dedilər: "Ey Allahın elçisi! Mələklər Rəbblərinin hüzurunda necə səf çəkirlər?". O buyurdu: "Onlar birinci səfləri tamamlayarlar və səfdə sıx dururlar"».[1] Hədisi Müslim rəvayət etmişdir.

Bu mənada olan hədislər çoxdur və onlar istər məscidin genişləndirilməsindən əvvəl, istərsə də sonra peyğəmbərin, sallallahu aleyhi və səlləm, məscidinə və digər məscidlərə şamil edilir. Peyğəmbərdən, sallallahu aleyhi və səlləm, səhabələrini səflərin sağ tərəfində durmağa təşviq etdiyi səhih olaraq rəvayət olunmuşdur. Məlumdur ki, onun ilk məscidində səfin sağ tərəfi Rovdanın xaricində idi. Bununla da bilinir ki, birinci səflərə və səflərin sağ tərəflərinə diqqət yetirmək şərəfli Rovdaya diqqət yetirməkdən daha üstündür və bu ikisini qorumaq Rovdada namaz qılmağı qorumaqdan daha fəzilətlidir. Bu, bu babda varid olan hədislər üzərində düşünən kimsə üçün açıq-aydındır. Müvəffəq edən Allahdır.

[1] Hədisi Əbu Davud: (679) rəvayət etmişdir. Ləfzi belədir: "Bir qövm birinci səfdən geri qalmaqda davam etdikcə, nəhayət Allah da onları Cəhənnəmdə geri salar".

Heç kəsə otağa əl sürtmək, onu öpmək və ya onun ətrafında təvaf etmək icazəli deyil. Çünki bu, Sələfi-salehdən rəvayət olunmamışdır, əksinə, bu, pislənilən bir bidətdir.

Heç kəsə peyğəmbərdən, sallallahu aleyhi və səlləm, istəyinin yerinə yetirilməsini, sıxıntısının aradan qaldırılmasını, xəstənin şəfa tapmasını və sairə buna oxşar şeyləri istəmək icazəli deyil. Çünki bütün bunlar yalnız Uca Allahdan istənilir. Bunları ölülərdən istəmək Allaha şirk qoşmaq və Ondan başqasına ibadət etməkdir. İslam dini iki əsas üzərində qurulmuşdur:

Birincisi: Yalnız Uca Allaha ibadət edilməlidir.

İkincisi: Uca Allaha yalnız rəsulun, sallallahu əleyhi va səlləm, gətirdiyi şəriətlə ibadət edilməlidir.

Bu, "Allahdan başqa ibadətə layiq haqq məbud olmadığına və Muhəmmədin Allahın rəsulu" olduğuna - şəhadət verməyin mənasıdır.

Həmçinin heç kəsə peyğəmbərdən, sallallahu aleyhi və səlləm, şəfaət istəmək icazəli deyil. Çünki şəfaət Uca Allaha məxsusdur və o, yalnız Ondan istənilir. Uca Allah bu haqda belə buyurmuşdur:

﴿قُل لِّلَّهِ ٱلشَّفَٰعَةُ جَمِيعًا...﴾

"(Ey Peyğəmbər!) De: "Şəfaət bütünlüklə Allaha aiddir..." (Zümər 39 surəsi, ayə 44). Belə deyərsən: "Allahım! Peyğəmbərini mənim üçün şəfaətçi et. Allahım! Mələklərini və mömin qullarını mənim

üçün şəfaətçi et. Allahım! Həddi-buluğa çatmadan ölən uşaqlarımı mənim üçün şəfaətçi et" və bu kimi dualar edərsən. Amma ölülərdən heç bir şey istənilməz, nə şəfaət, nə də başqa bir şey. İstər peyğəmbər olsunlar, istərsə də başqaları. Çünki bu, şəriətdə buyurulmamışdır və ölünün əməli də, şəriət sahibinin istisna etdiyi əməllər xaric, bütün əməlləri kəsilmişdir.

Müslimin "Səhih" əsərində Əbu Hureyrədən, Allah ondan razı olsun, rəvayət etdiyi hədisdə, peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«إِذَا مَاتَ ابْنُ آدَمَ انْقَطَعَ عَمَلُهُ إِلَّا مِنْ ثَلَاثٍ: صَدَقَةٍ جَارِيَةٍ، أَوْ عِلْمٍ يُنْتَفَعُ بِهِ، أَوْ وَلَدٍ صَالِحٍ يَدْعُو لَهُ».

"Adəm övladı vəfat etdikdə, üç əməldən başqa bütün əməlləri dayanar: Davamlı sədəqə, faydalı elm yaxud onun üçün dua edən saleh övlad"[1].

Peyğəmbərdən, sallallahu aleyhi və səlləm, sağlığında və Qiyamət günü şəfaət istəməyin icazəli olması onun buna qadir olması ilə bağlıdır. Belə ki, o, istəyən kimsə üçün Rəbbinə yönəlib Ondan diləyə bilər. Dünyada isə bu məlumdur. Bu, yalnız ona xas deyil, əksinə bu, həm ona, həm də başqalarına aiddir. Buna görə də bir müsəlmanın öz qardaşına: "Filan məsələdə Rəbbimin yanında mənə şəfaətçi ol" – yəni: "mənim üçün Allaha dua

[1] Hədisi Müslim: (1631) Əbu Hureyrədən, Allah ondan razı olsun, rəvayət etmişdir.

et" – deməsi icazəlidir. Əgər istənilən şey Allahın tələb edilməsini icazəli buyurduğu məsələlərdəndirsə, bu söz deyilən kimsənin də Allahdan istəməsi və qardaşı üçün şəfaətçi olması icazəlidir.

Qiyamət gününə gəlincə, heç kəs Uca Allahın izni olmadan şəfaət edə bilməyəcəkdir. Necə ki, Uca Allah buyurmuşdur:

﴿...مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلَّا بِإِذْنِهِ...﴾

"Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər?". (Bəqərə 2 surəsi, ayə 255).

Ölüm halına gəldikdə isə, bu, insanın nə ölümdən əvvəlki, nə də dirildikdən sonrakı halına bənzədilməsi icazəli olmayan xüsusi bir haldır. Çünki ölən kəsin əməli sona çatır və o, öz qazandığı əmələ bağlı qalır. Yalnız şəriət sahibinin istisna etdiyi əməldən başqa. Ölülərdən şəfaət istəmək, şəriət sahibinin istisna etdiyi əməldən olmadığı üçün bunu həmin istisnalara aid etmək icazəli deyil. Şübhəsiz ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, vəfatından sonra şəhidlərin həyatından daha kamil bir bərzəx həyatı yaşayır. Lakin bu həyat nə onun ölümdən əvvəlki həyatı, nə də Qiyamət günündəki həyatı kimidir. Əksinə, bu elə bir həyatdır ki, onun həqiqətini və keyfiyyətini yalnız Uca Allah bilir. Məhz buna görə də şərəfli hədisdə peyğəmbər, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

«مَا مِنْ أَحَدٍ يُسَلِّمُ عَلَيَّ إِلَّا رَدَّ اللهُ عَلَيَّ رُوحِي حَتَّى أَرُدَّ عَلَيْهِ السَّلَامَ»

"Kim mənə salam verərsə, Allah ruhumu mənə qaytarar ki, mən də onun salamını qaytarım"[1].

Bu, onun vəfat etdiyinə və ruhunun cəsədini tərk etdiyinə dəlalət edir. Lakin ona salam verildikdə ruhu özünə qaytarılır. Onun, sallallahu aleyhi və səlləm, vəfat etməsinə dair Qurandan və Sünnədən olan dəlillər məlumdur və bu, elm əhli arasında ittifaq edilmiş bir məsələdir. Lakin bu, onun bərzəx həyatına mane olmur, necə ki, şəhidlərin ölməsi də onların bərzəx həyatına mane olmamışdır. Uca Allah buyurur:

﴿وَلَا تَحْسَبَنَّ الَّذِينَ قُتِلُوا فِي سَبِيلِ اللَّهِ أَمْوَاتًا بَلْ أَحْيَاءٌ عِنْدَ رَبِّهِمْ يُرْزَقُونَ 169﴾

"Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə, (onlar) diridirlər; onlara Rəbbi yanında ruzi verilir". [Əli İmran 3 surəsi, ayə 169].

Bu məsələni geniş şəkildə izah etdik, çünki bu mövzuda şübhələr yaradan, insanları şirkə və Allahdan başqa ölülərə ibadət etməyə çağıranların çoxalması səbəbindən buna böyük ehtiyac vardır. Buna görə də Allahdan özümüz və bütün müsəlmanlar üçün Onun şəriətinə zidd olan hər bir şeydən salamatlıq diləyirik. Ən doğrusunu isə Allah bilir.

Amma bəzi ziyarətçilərin peyğəmbərin, sallallahu aleyhi və səlləm, qəbrinin yanında səslərini ucaltmaları və orada uzun müddət dayanmaları şəriətə ziddir. Çünki Uca Allah

---

[1] Hədisi Əbu Davud: (2041) rəvayət etmişdir.

ümmətə səslərini peyğəmbərin, sallallahu aleyhi və səlləm, səsindən yuxarı qaldırmağı və bir-birlərinə müraciət etdikləri kimi ona da ucadan müraciət etməyi qadağan etmiş və Öz sözündə onun yanında səslərini alçaltmağı buyurmuşdur:

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَرْفَعُوا أَصْوَاتَكُمْ فَوْقَ صَوْتِ النَّبِيِّ وَلَا تَجْهَرُوا لَهُ بِالْقَوْلِ كَجَهْرِ بَعْضِكُمْ لِبَعْضٍ أَنْ تَحْبَطَ أَعْمَالُكُمْ وَأَنْتُمْ لَا تَشْعُرُونَ 2 إِنَّ الَّذِينَ يَغُضُّونَ أَصْوَاتَهُمْ عِنْدَ رَسُولِ اللَّهِ أُولَئِكَ الَّذِينَ امْتَحَنَ اللَّهُ قُلُوبَهُمْ لِلتَّقْوَى لَهُمْ مَغْفِرَةٌ وَأَجْرٌ عَظِيمٌ 3﴾

"Ey iman gətirənlər! Səsinizi peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz batil olar.

Allahın rəsulu yanında səslərini asta çıxaranlar, Allahın qəlblərini təqva üçün sınağa çəkdiyi kimsələrdir. Onlar üçün bağışlanma və böyük mükafat vardır". (Hucurat 49 surəsi, ayələr 2-3).

Çünki peyğəmbərin, salləllahu aleyhi va səlləm, qəbrinin yanında uzun müddət dayanmaq və salamı çoxlu təkrarlamaq orada izdihama, səs-küyə və səslərin yüksəlməsinə səbəb olur. Bu isə Allahın bu muhkəm ayələrdə müsəlmanlar üçün buyurduqlarına ziddir. Peyğəmbər, salləllahu aleyhi va səlləm, istər sağlığında, istərsə də vəfatından sonra hörmətə layiqdir. Buna görə də möminə onun qəbrinin yanında şəri ədəbə zidd olan bir şey etmək yaraşmaz.

Eləcə də bəzi ziyarətçilərin və başqalarının üzünü qəbrə tutaraq, əllərini qaldırıb onun qəbrinin yanında dua etmələri rəsulullahın, salləllahu aleyhi va səlləm, səhabələri və onlara yaxşılıqda tabe olanların (sələfin) yoluna ziddir. Əksinə, bu, sonradan uydurulmuş bidətlərdəndir. Peyğəmbər, salləllahu aleyhi va səlləm, demişdir:

«فَعَلَيْكُمْ بِسُنَّتِي وَسُنَّةِ الْخُلَفَاءِ الرَّاشِدِينَ الْمَهْدِيِّينَ مِنْ بَعْدِي، تَمَسَّكُوا بِهَا وَعَضُّوا عَلَيْهَا بِالنَّوَاجِذِ، وَإِيَّاكُمْ وَمُحْدَثَاتِ الأُمُورِ، فَإِنَّ كُلَّ مُحْدَثَةٍ بِدْعَةٌ وَكُلَّ بِدْعَةٍ ضَلَالَةٌ».

«Sizə mənim sünnəmi və məndən sonra gələcək doğru yolda olan raşidi xəlifələrin sünnəsini tövsiyə edirəm. Onlara möhkəm sarılın. Onlardan azı dişlərinizlə yapışın. Dinə əlavə edilmiş yeniliklərdən çəkinin. Çünki hər bir yenilik bidətdir və hər bir bidət isə zəlalətdir»[1].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«مَنْ أَحْدَثَ فِي أَمْرِنَا هَذَا مَا لَيْسَ مِنْهُ فَهُوَ رَدٌّ»

"Kim bizim bu işimizdə (dinimizdə) onda olmayan bir yenilik edərsə o, rədd olunar"[2].

«مَنْ عَمِلَ عَمَلًا لَيْسَ عَلَيْهِ أَمْرُنَا فَهُوَ رَدٌّ».

"Kim (dində) bizim etmədiyimiz (şəriət dəlillərinə istinad etməyən) bir əməl edərsə, o əməl qəbul olunmaz"[3].

---

[1] Hədisi Əbu Davud: (4607) əl-İrbad bin Səriyədən rəvayət etmişdir.
[2] Hədisin qaynağı daha əvvəl qeyd edilmişdir.
[3] Hədisin qaynağı daha əvvəl qeyd edilmişdir.

Əli bin Huseyin Zeynulabidin, Allah onlardan razı olsun, peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, qəbrinin yanında dua edən bir kişini görüb, onu bu işdən çəkindirdi və dedi: Mən sənə atamdan, o da babamdan, babam da Allah rəsulundan, Allahın salavatı və salamı onun üzərinə olsun, eşitdiyi hədisi danışıram. Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, buyurmuşdur:

«لَا تَتَّخِذُوا قَبْرِي عِيدًا، وَلَا بُيُوتَكُمْ قُبُورًا، وَصَلُّوا عَلَيَّ، فَإِنَّ تَسْلِيمَكُمْ يَبْلُغُنِي أَيْنَمَا كُنْتُمْ».

"Mənim qəbrimi ziyarətgaha və evlərinizi də qəbirsanlıqlara çevirməyin, mənə salavat deyin, sizin harada olmanızdan aslı olmayaraq, sizin mənə dediyiniz salamlar mənə çatar"[1].

Eləcə də, bəzi ziyarətçilərin namaz qılan şəxsin duruşu kimi sağ əlini sol əlinin üzərinə qoyub sinəsinin üstündə və ya altında tutması nə peyğəmbərə, sallallahu aleyhi və səlləm, salam verərkən, nə də ondan başqası olan padşahlara, başçılara və digərlərinə salam verərkən caiz deyil. Çünki bu, zəlillik, boyun əymə və ibadət halıdır ki, Allahdan başqası üçün edilməz. Necə ki, bunu Hafiz İbn Həcər, rahiməhullah, “Fəth” əsərində alimlərdən nəql etmişdir. Bu məsələ, onun üzərində

[1] Zeynulabidinin rəvayətini şeyx hafiz əl-Məqdisiyə nisbət etmiş və hədisi bu hekayəsiz rəvayət etmişdir, İmam Əhməd isə "Müsnəd" (2/367) əsərində nəql etmişdir.

düşünən və məqsədi saleh sələflərin yoluna tabe olmaq olan kəs üçün aydın və aşkardır.

Təəssübkeşliyə, nəfsə, kor-koranə təqlidə və əməlisaleh sələflərin yoluna dəvət edənlərə qarşı sui-zənnə qapılan kimsəyə gəlincə, onun işi Allaha həvalədir. Allahdan həm özümüzə, həm də ona hidayət verməsini və haqqı hər şeydən üstün tutmağa müvəffəq etməsini diləyirik. Həqiqətən, O, istənilənlərin ən xeyirlisidir.

Eləcə də bəzi insanların uzaqdan o şərəfli qəbrə tərəf yönələrək salam və ya dua ilə dodaqlarını tərpətmələri - bütün bunlar yuxarıda qeyd eildiyi kimi sonradan uydurulmuş əməllərdəndir. Müsəlmana Allahın icazə vermədiyi bir şeyi dinə gətirməsi yaraşmaz. O, bu əməli ilə sevgi və səmimiyyətdən daha çox, hörmətsizlik və uzaqlığa yaxındır. İmam Malik, Allah ona rəhmət etsin, bu və buna bənzər əməlləri inkar etmiş və demişdir: "Bu ümmətin axırı, onun əvvəlini islah edən şeydən başqası ilə islah olmayacaq"[1].

Məlumdur ki, bu ümmətin əvvəlkilərini islah edən, peyğəmbərin, sallallahu aleyhi və səlləm, onun raşidi xəlifələrinin, Allahın razı qaldığı səhabələrinin və onlara yaxşılıqla tabe olanların getdiyi yol olmuşdur. Bu ümmətin sonrakı nəsilləri də yalnız həmin yola sarılmaqla və o yolla getməklə islah ola bilər.

---

[1] "İğasətu-lləhfan fi məsayidi-şşeytan" (1/363).

Allah müsəlmanları dünyada və axirətdə nicata, səadətə və izzətə nail olmağı müvəffəq etsin. Həqiqətən, O, Səxavətli və Kərimdir.

## Diqqət:

## Peyğəmbərin, salləllahu aleyhi va səlləm, qəbrini ziyarət etməyin hökmü.

Peyğəmbərin, sallallahu aleyhi və səlləm, qəbrini ziyarət etmək, bəzi insanların zənn etdiyi kimi, vacib və ya həccin şərtlərindən deyil, sadəcə rəsulullahın, sallallahu aleyhi və səlləm, məscidini ziyarət edən və ya ona yaxın olan kimsənin ziyarət etməsi müstəhəbdir.

Mədinədən uzaqda olan kəsə qəbri ziyarət etmək məqsədi ilə səfərə çıxmaq icazəli deyil. Lakin ona şərəfli məscidi ziyarət etmək məqsədi ilə səfərə çıxmaq sünnədir. O, məscidə çatdıqda şərəfli qəbri və iki səhabənin qəbrini ziyarət edər. Beləliklə, peyğəmbərin, sallallahu aleyhi və səlləm, qəbrini və iki səhabəsinin qəbrini ziyarət etməsi, onun, sallallahu aleyhi və səlləm, məscidini ziyarət etməsinə bağlı olur. Bu da Buxari və Müslimdə sabit olan rəvayətə görədir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, buyurmuşdur:

«لَا تُشَدُّ الرِّحَالُ إِلَّا إِلَى ثَلَاثَةِ مَسَاجِدَ: المَسْجِدِ الحَرَامِ، وَمَسْجِدِي هَذَا، وَالمَسْجِدِ الأَقْصَى».

«Üç məsciddən başqa heç bir yerə (ibadət məqsədi ilə) səfər etmək olmaz: Məscidül-Haram, mənim bu

məscidim (peyğəmbərin - sallallahu aleyhi va səlləm - məscidi) və Məscidül-Aqsa»[1].

Əgər peyğəmbərin, sallallahu aleyhi və səlləm, və ya başqasının qəbrini ziyarət etmək məqsədi ilə səfərə çıxmaq şəriətə uyğun olsaydı, o, ümmətinə bunu bildirər və onun fəzilətini onlara göstərərdi. Çünki o, insanlara qarşı ən səmimi olan, Allahı ən yaxşı tanıyan və Ondan ən çox qorxan idi. O, (risaləti) açıq-aydın bir şəkildə çatdırmış, ümmətini hər bir xeyrə yönəltmiş və onları hər bir şərdən çəkindirmişdir. Necə ola bilər ki, o, üç məsciddən başqa yerə səfərə çıxmaqdan çəkindirmiş və belə demişdir:

«لَا تَتَّخِذُوا قَبْرِي عِيدًا، وَلَا بُيُوتَكُمْ قُبُورًا، وَصلُّوا عَلَيَّ، فَإِنَّ صَلَاتَكُمْ تَبْلُغُنِي حَيْثُ كُنْتُمْ»

«Qəbrimi ziyarətgaha, evlərinizi də qəbirsanlıqlara çevirməyin, mənə salavat (salallahu aleyhi va səlləm) deyin, siz harada olsanız belə, sizin mənə dediyiniz salavatlar çatar»[2].

Peyğəmbərin, sallallahu aleyhi və səlləm, qəbrini ziyarət etmək üçün səfərə çıxmağın şəriətə uyğun olduğunu demək, onun bayram (ziyarətgah) yerinə çevrilməsinə və peyğəmbərin, sallallahu aleyhi və səlləm, qorxduğu və qadağan olan halın, yəni: ifrata varmağın və həddindən artıq tərifləməyin baş verməsinə gətirib çıxarır. Necə ki, bir çox insanlar

---

[1] Hədisi Buxari: (1189) və Müslim: (1397) Əbu Hureyrədən rəvayət etmişdir.
[2] Hədisin qaynağı əvvəldə qeyd edilmişdir.

peyğəmbərin, sallallahu aleyhi və səlləm, qəbrini ziyarət etmək üçün səfərə çıxmağın şəriətə uyğun olduğuna etiqad etdikləri üçün bu hala düçar olmuşlar.

Peyğəmbərin, sallallahu aleyhi və səlləm, qəbrini ziyarət üçün səfərə çıxmağın şəriətə uyğun olduğunu deyənlərin dəlil gətirdikləri hədislərə gəlincə, onlar isnadları zəif, əksinə, uydurma hədislərdir. Necə ki, Darəqutni, Beyhəqi, Hafiz bin Həcər və başqaları kimi hədis hafizləri onların zəif olduğunu bildirmişlər. Buna görə də bu hədislərlə, üç məsciddən başqa yerə səfərə çıxmağın haram olmasına dəlalət edən səhih hədislərə qarşı çıxmaq icazəli deyil.

Ey əziz oxucu! Tanıyıb və aldanmaqdan çəkinməyin üçün bu mövzuda uydurulmuş bəzi hədisləri diqqətinə çatdırırıq:

Birincisi: “Kim həcc edib, mənin qəbrimi ziyarət etməsə, mənə əzab-əziyyət vermişdir”.

İkincisi: "Kim məni vəfatımdan sonra ziyarət edərsə, məni sağlığımda ziyarət etmiş kimidir".

Üçüncüsü: "Kim eyni ildə məni və atam İbrahimi ziyarət edərsə, Allahın ona Cənnəti bəxş edəcəyinə zəmanət verərəm".

Dördüncüsü: "Kim qəbrimi ziyarət edərsə, şəfaətim ona halal (vacib) olar".

Bu və buna bənzər hədislərin heç biri peyğəmbərdən, sallallahu aleyhi və səlləm, sabit olmayıb.

Hafiz bin Həcər "ət-Təlxis" kitabında rəvayətlərin əksəriyyətini zikr etdikdən sonra demişdir: "Bu hədisin bütün yolları zəifdir".

Əl-Hafiz əl-Uqeyli demişdir: "Bu mövzuda heç bir səhih hədis yoxdur".

Şeyxülislam ibn-Teymiyyə, Allah ona rəhmət etsin, qətiyyətlə bildirmişdir ki, bu hədislərin hamısı uydurmadır. Onun elmi, hafizəsi və məlumatı buna kifayət edər.

Əgər bunlardan hər hansı biri sabit olsaydı, səhabələr, Allah onlardan razı olsun, bu əməli yerinə yetirməkdə hamıdan öndə olar, bunu ümmətə bəyan edər və onları buna dəvət edərdilər. Çünki onlar peyğəmbərlərdən sonra insanların ən xeyirlisi, Allahın hüdudlarını və Onun qullarına buyurduğu hökmləri ən yaxşı bilən, Allaha və Onun yaratdıqlarına qarşı ən səmimi olanlardır. Onlardan bu barədə heç bir şeyin nəql olunmaması isə bunun şəriətə uyğun olmadığına dəlalət edir.

Əgər onlardan hər hansı biri səhih olsaydı, hədisləri bir-biri ilə uzlaşdırmaq (cəm etmək) üçün, bunu yalnız qəbri ziyarət etmək məqsədi ilə səfərə çıxılmayan şəriətə uyğun ziyarət kimi qəbul etmək vacib olardı. Allah - Subhanəhu və Təala - daha yaxşı bilir.

## Fəsil.
## Quba məscidini və Bəqi qəbirsanlığını ziyarət etməyin müstəhəb olması haqqında.

Mədinə şəhərini ziyarət edənin Quba məscidini ziyarət edib orada namaz qılması müstəhəbdir. Çünki Buxari və Müslimdə İbn Ömərdən, Allah onlardan razı olsun, rəvayət olunan hədisdə belə deyilir:

«كَانَ النَّبِيُّ ﷺ يَزُورُ مَسْجِدَ قُبَاءٍ رَاكِبًا وَمَاشِيًا وَيُصَلِّي فِيهِ رَكْعَتَيْنِ».

«Peyğəmbər, sallallahu aleyhi və səlləm, Quba məscidini miniklə də, ayaqla da ziyarət edər və orada iki rükət namaz qılardı»[1].

Səhl bin Huneyf, Allah ondan razı olsun, rəvayət edir ki, Allahın rəsulu, sallallahu aleyhi va səlləm, belə demişdir:

«مَنْ تَطَهَّرَ فِي بَيْتِهِ ثُمَّ أَتَى مَسْجِدَ قُبَاءٍ فَصَلَّى فِيهِ صَلَاةً كَانَ لَهُ كَأَجْرِ عُمْرَةٍ».

«Kim evində dəstəmaz alar, sonra Quba məscidinə gedib namaz qılarsa, ümrə etmiş kimi savab qazanar»[2].

Bəqi qəbiristanlığını, şəhidlərin qəbirlərini və Həmzənin, Allah ondan razı olsun, qəbrini ziyarət etməsi sünnədir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, onları ziyarət edər və onlar üçün

---

[1] Hədisi Buxari: (1193) və Müslim: (1399) rəvayət etmişdir.
[2] Hədisi İbn Macə: (1412) rəvayət etmişdir.

dua edərdi. Həmçinin peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«زُورُوا الْقُبُورَ فَإِنَّهَا تُذَكِّرُكُمْ بِالآخِرَةِ».

«Qəbirləri ziyarət edin, çünki o sizə, axirəti xatırladır»[1]. Hədisi Müslim rəvayət etmişdir.

Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, səhabələrinə qəbirləri ziyarət edərkən belə deməlırini öyrədirdi:

«السَّلَامُ عَلَيْكُمْ أَهْلَ الدِّيَارِ مِنَ الْمُؤْمِنِينَ وَالْمُسْلِمِينَ، وَإِنَّا إِنْ شَاءَ اللهُ بِكُمْ لَاحِقُونَ، نَسْأَلُ اللهَ لَنَا وَلَكُمُ الْعَافِيَةَ».

[Əs-Sələmu aleykum əhləd-diyari minəl-mumininə val-musliminə, va innə inşə Allahu bikum ləhiqunə, nəsəlu-llahə lənə və ləkumul-afiyə-tə] - «Ey (bu) diyarın mömin və müsəlman sakinləri! Sizə salam olsun! Allah istəsə biz də sizə qovuşacağıq. Allahdan özü-müzə və sizə salamatlıq diləyirik!»[2]. Hədisi Müslim, Süleyman bin Bureydədən, o da öz atasından rəvayət etmişdir.

Tirmizi, İbn Abbasdan, Allah ondan və atasından razı olsun, rəvayət edir ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, Mədinə qəbirlərinin yanından keçərkən üzünü onlara tərəf çevirib belə buyurdu:

«السَّلَامُ عَلَيْكُمْ يَا أَهْلَ الْقُبُورِ، يَغْفِرُ اللهُ لَنَا وَلَكُمْ، أَنْتُمْ سَلَفُنَا وَنَحْنُ بِالأَثَرِ».

---

[1] Hədisi Müslim: (976) rəvayət etmişdir.
[2] Hədisi Müslim: (975) rəvayət etmişdir.

[Əs-Sələmu aleykum yə əhləl-qubur, yəğfirullahu lənə və ləkum, əntum sələfunə va nəhnu bil-əsər] - «Ey qəbir əhli! Sizə salam olsun! Allah bizi və sizi bağışlasın! Siz bizim sələflərimizsiniz, biz də sizin ardınızca gələcəyik»[1].

Bu hədislərdən məlum olur ki, qəbirləri şəriətə uyğun ziyarət etməkdə məqsəd axirəti xatırlamaq, ölülərə yaxşılıq etmək, onlar üçün dua etmək və onlara rəhmət diləməkdir.

Amma qəbirlərinin yanında dua etmək yaxud onların yanında (ibadət məqsədilə) durmaq yaxud onlardan ehtiyacların ödənilməsini və ya xəstələrə şəfa verilməsini istəmək yaxud onların vasitəsilə və ya hörmətləri xatirinə Allahdan istəmək və bu kimi məqsədlərlə edilən ziyarətə gəlincə, bu, Allahın və Onun rəsulunun şəriətə uyğun buyurmadığı və saleh sələflərin, radiyallahu anhum, etmədiyi pislənilən bir bidətdir. Əksinə, bu, rəsulullahın, sallallahu aleyhi və səlləm, qadağan etdiyi əməllərdəndir, belə ki, rəsulullah, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

«زُورُوا الْقُبُورَ، وَلَا تَقُولُوا هُجْرًا».

«Qəbirləri ziyarət edin və pis sözlər söyləməyin»[2].

Bu qeyd olunan məsələlər bidət olmaqda birləşir. Lakin dərəcələri fərqlidir. Onların bəziləri bidətdir, lakin şirk deyildir. Məsələn: qəbirlərin

---

[1] Hədisi Tirmizi: (1035) rəvayət etmişdir.
[2] Hədisi Müslim: (977) İbn Bureydədən, o da atasından rəvayət etmişdir.

yanında Uca Allaha dua etmək, ölünün haqqı və ya hörməti xatirinə Ondan istəmək və bu kimi şeylər. Bəziləri isə böyük şirk növlərindəndir. Məsələn: ölülərə dua etmək, onlardan yardım istəmək və s. bu kimi şeylər.

Bu barədə əvvəldə ətraflı bəhs edilmişdir. Buna görə də diqqətli ol və bu əməllərdən çəkin! Rəbbindən müvəffəqiyyət və haqqa hidayət dilə. Həqiqətən, müvəffəq edən də, doğru yola yönəldən də Odur. Ondan başqa ilah, Ondan savayı Rəbb yoxdur.

Yazdırmaq istədiyimiz son sözlər bunlardır. Əvvəldə də, axırda da həmd Allaha məxsusdur. Allahın salavat və salamı Onun qulu, rəsulu və məxluqatından seçdiyi Muhəmmədin, onun ailəsinin, səhabələrinin və Qiyamət gününədək gözəl tərzdə onların ardınca gedənlərin üzərinə olsun.

# Mündəricat

Kitab və Sünnə işığında həcc, ümrə və ziyarətlə bağlı bir çox məsələlərin araşdırılması və izahı........2
Kitab və Sünnə işığında həcc, ümrə və ziyarətlə bağlı bir çox məsələlərin araşdırılması və izahı........2
Müəllifin ön sözü........2
Fəsil........4
Həcc və ümrənin vacib olmasına dair dəlillər və onları yerinə yetirməyə tələsməyin zərurəti haqqında........4
Fəsil........8
Günahlardan tövbə etməyin və zülmlərdən qurtulmağın vacibliyi........8
Fəsil........15
Hacının miqata çatdığı zaman yerinə yetirməli olduğu əməllər........15
Fəsil........21
Məkan miqatları və onların müəyyən edilməsi haqqında........21
Fəsil........27
Həcc aylardan başqa vaxtda miqata çatan şəxsin hökmü haqqında........27
Fəsil........31
Kiçik uşağın həccinin hökmü: bu onun üçün (fərzi) "Həccü-l-İslamı" yerinə yetirməyə kifayət edirmi?........31
Fəsil........34
Ehram halında qadağan olunan əməllərin və ehramlı şəxs üçün icazəli olan işlərin açıqlanması........34
Fəsil........41
Hacının Məkkəyə daxil olarkən etdiyi əməllər və Məscidul-Harama daxil olduqdan sonra təvaf etməsinin və onun edilmə qaydasının bəyanı........41

Fəsil. .......................................................................................... 51
Zilhiccə ayının səkkizinci günü həcc üçün ihrama girməyin və Minaya getməyin hökmü. ........................................................ 51
Fəsil. .......................................................................................... 74
Qurban bayramı günündə həcc edən kimsənin etdiyi əməllərin üstünlüyünün bəyanı. ........................................ 74
Fəsil. .......................................................................................... 80
Təməttü və qiran edənə qanın (qurban kəsməyin) vacib olması haqqında. ................................................................ 80
Fəsil. .......................................................................................... 83
Həcc edənlərə və digərlərinə yaxşılığı əmr etməyin vacibliyinə dair. .................................................................. 83
Fəsil. .......................................................................................... 93
İtaətləri artırmağın müstəhəb olması. ....................................... 93
Fəsil. .......................................................................................... 94
Ziyarət əhkamları və ədəbləri haqqında. .................................... 94
Diqqət: ...................................................................................... 110
Peyğəmbərin, salləllahu aleyhi va səlləm, qəbrini ziyarət etməyin hökmü. ........................................................................ 110
Fəsil. ........................................................................................ 114
Quba məscidini və Bəqi qəbirsanlığını ziyarət etməyin müstəhəb olması haqqında .................................................... 114

az396v3.1 - 04/09/2026